# ERMƏNİSTANDA AZƏRBAYCAN MƏNŞƏLİ TOPONİMLƏRİN İZAHLI LÜĞƏTİ-III-

http://budaqbudaqov.com/index.php?option=com_content&view=article&id=39:ermnstanda-azrbaycan-mnl-toponmlrn-zahli-luet-3&catid=77:ermnstanda-azrbaycan-mnl-toponmlrn-zahl&Itemid=78

**B-E-Budaqov-N-G-Memmedov**

DAVUDLU - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [170, 19].

DAVUDKƏND - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 122].

DAD MƏLİK - Gorus r-nunda dağ adı (60, 89). Ermənicə Melik adlandırılmışdır. Qədim türk dillərində tey (ted) “dağ” və Məlik (şəxs adı yaxud titul) sözlərindən ibarətdir.

DAYLAXLU - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 73). 1727-ci ilə aid mənbədə kəndli həm də Puşadiz adlandığı qeyd olunmuşdur [32, 304]. Həmin mənbəyə görə kənddə 6 Azərbaycanlı ailə yaşayırdı [32, 304]. Ehtimal ki, "Kitabi-Dədə Qorqud" eposunda işlədilmiş dölək "doğum" sözündən olub "qoyunların döllənən yeri" mənasındadır. XIX əsrdə Naxçıvan qəzasında Daylaxlu kənd (133, 73) adı ilə eynidir.

DAKE BUZÜRG - 1728-ci ildə İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [170, 12]. Mənası məlum olmayan "dak" və farsca bozork "böyük" sözlərindəndir.

DAKE KUÇUK - 1728-ci ildə İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [170, 12]. Mənası məlum olmayan "dak" və farsca kuçek "kiçik" sözlərindəndir.

DAKZİD - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 13]. Mənbədə kənddə 22 azərbaycanlı ailəsinin yaşadığı [32, 268] göstərilmişdir.

DALMA - XVIII əsrin ortalarında İrəvan əyalətində Zəngiçaydan çəkilmiş kanalın adı [150, 177].

DAMAGİRMƏZ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 74).

DAMĞA - 1590-cı ildə Rəvan əyalətinin Zar nahiyəsində kənd adı [169, 327]. Qədim türk dillərində tamqa "çayın qolu" [93, 530] sözündəndir.

DAMLAMA GƏDİK - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133, 74]. Oronim ehtimal ki, mal-qara üçün dam və gədik "dağlararası yol", "dağ keçidi" sözlərindən ibarətdir.

DAMCILI - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı [152]. 1590-cı ildən məlumdur [169, 60]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş, gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi. 1935-ci ildə kənd ermənicə Mravyan adlandırılmışdır. Kənd oradakı "Damcılı" bulağının adı ilə adlanmışdır. XVII əsrin əvvəllərinə aid bir erməni mənbəyində İrəvan əyalətinin Abaran mahalında Damcılı kənd adı [150, 365] ilə mənaca eynidir.

DAMCILI - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı [169, 232]. Mənbədə kəndin İbrahim Mustafa oğluna mənsub olduğu göstərilir.

DANAKALES - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 4]. Danaqalası adından təhrifdir. Toponimin "dana" hissəsinin mənası məlum deyil. XIX əsrdə Borçalı qəzasında Tanadaq (133, 237), Ermənistanda Danasulağı və Danakeçidi (6,227), Gədəbəy r-nunda Danatəpəsi, Kəlbəcər r-nunda Danaörüşü topnimləri ilə sıra təşkil edir. "Dana" sözü "Kitabi Dədə Qorqud" eposunda "Tanasazı" toponimində də əksini tapmışdır. Albaniyada bir vəng Tapahat adlanırdı ("Alban tarixi", III kitab, 4-cü fəsil).

DANAGİRMƏZ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Ovit adlandırılmışdır. Mənası məlum deyil. 1588-ci ilə aid mənbədə Qarabağın Bərdə sancağında Danagirli elinin yaşadığı göstərilir [167, 208].

DANAGİRMƏZ - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı (133, 74). 1590-ci ildən məlumdur [169, 159]. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Niqavan adlandırılmışdır.

DANDAR - Noyemberyan r-nunda, Cücəvan kəndindən cənub-qərbdə dağ zirvəsinni adı (60, 75). Qədim türk mənşəli Dandar (Dondar) tayfasının (bax: 78) adını əks etdirir. Qars əyalətinin Kaqızman dairəsində Dondar dağ adı (133, 88) ilə mənşəcə eynidir.

DANÇILI - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 132]. "Hamamlı da adlanır" (yenə orada). Bax: Hamamlı.

DARABAZ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) kənd adı (133, 75). 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1948-ci ildə kənl ermənicə Darbis adlandırılmışdır. Yerli əhali içərisində tələffüz forması Dər-Abbas. Əsli Darvaz. İlk dəfə Babək ilə əlaqədar hadisələrdə ərəb mənbələrində Darvaz dağının adı qeyd olunur. Hazırda Zəngəzurda Bazarçayın sol sahilində Darvaztəpə dağı vardır. Dağın adının fars dilində darvaza - "keçid", "qapı" sözü ilə izah olunması səhvdir. Əslində toponim suriya dilində dair, ərəbcə deyr, “məbəd”, “monastır” və “baz” "təpə" sözlərindən ibarətdir [bax: 14, 219]. XIX əsrdə Tiflis quberniyasının Borçalı qəzasında iki Darvaz kəndi, Yelizavetpol quberniyasının Cavanşir qəzasında Darvaz kənd xarabalığı [133, 75], Zaqatala r-nunda Darvazbinə kənd adları ilə mənaca eynidir. Toponimin “baz” hissəsi türk

dillərində “baz” “dağ çökəkliyi” (143, IV, 2, 1541; Tuvinsko-russkiy slovarğ, M. 1968, s. 81) monqol dilində bayz, bays "dik qaya", "sıldırım dağ", "ətəyində dar dərədə çay axan qayalıq" mənalarında (Bax: Boz Abdal) Naxçıvanda Betevaz, Nəsirvaz, Teyvaz, Uybaz, Ermənistanda Qındavaz (bax), Ədəvaz (bax), Əlkəvaz (bax), Kivaz (bax), İknəvaz (bax), Liçikvaz (bax), Azərbaycanda Canbaz (Dağlıq Qarabağ), Osmanbazı (Şamaxı r-nu), Sərvəztəpə (Qasım İsmayılov r-nu), Pas Mahmud (Zaqatala r-nu) və ehtimal ki, Kəpəz dağ adlarında əksini tapmışdır. Türkmənistanda Bakubaz və Gökəvaz dağ adları (S.Ataniyazov, göst. lüğəti, s. 55 və 188) vardır.

DARABLU - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [170, 7]. Mənbədə kəndin Dumbuli tayfasının məskunlaşması nəticəsində yarandığı göstərilir (yenə orada).

DARALAK - XVIII əsrin ortalarına aid ermnicə mənbədə İrəvan əyalətində bir kənd adı [150, 359].

DARĞALI - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159] 1918-ci ildə azərbaycanlılar qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1920-ci ildən conra əhalinin bir hissəsi geri qayıtmışdır. 1949-cu ildə bu ailələr Azərbaycana köçürülmüş və ermənilər yerləşdirilmişdir. 1949-cu ildə kənd ermənicə Anastasavan, 1967-ci ildə Haykezard adlandırılmışdır. XX əsrin əvvəllərinə aid mənbədə İrəvan əyalətinin İrəvan qəzasında iki Darğalı kənd adı çəkilmişdir (133, 75). 1728-ci ilə aid mənbədə Daruqali adlanmış və onun Yuva (bax) kəndindən yaranmış məntəqə olması göstərilmişdir [170, 79]. 1588-ci ilə aid mənbədə Bərdə sancağının Şir nahiyəsində qışlayan bir el də Daruqalı adlanırdı [167, 215]. XII-XIII əsrlərdə şəhər və nahiyələrdə verginin yığılmasına başçılıq edən darğa (monqol dilində daraxu) sözündəndir.

DAR YEKƏLİ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra bu kəndin adı mənbələrdə çəkilmir. Suriya dilində dair (ərəbcə deyr) "kilsə", "monastır" sözünün təhrifi olan "dar" və Yekəli adındandır. "Deyr yaxınlığında Yekəli kəndi" mənasındadır. Deyr sözü Azərbaycanda 1727-ci ilə aid arxiv mənbəyində Dağlıq Qarabağın Çilaberd mahalında Dər-Abdul kəndinin [171] adında, Ordubad rayonunda Dırnıs (əsli Deyr-Naus), kəndinin, Cəbrayıl rayonununda Diri (əsli Deyri) qalasının ("Alban tarixi"ndə Tiri kimidir; Aşıq Qurbaninin vətəni) Culfa r-nunda Darıdağ (dair və dağ sözlərindən) və s. toponimlərdə əksini tapmışdır.

DARNƏÇAY - 1728-ci ildə İrəvan əyalətinin Karbinahiyəsində kənd adı (23, 93).

DAHARLI - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 73]. Mənbədə Dağarlı kimidir (yenə orada). 1878-ci ildə kəndin azərbay-canlı əhalisi çıxarılmış və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 167). 1945-ci ildə kənd ermənicə Qetk adlandırılmışdır. Əsli Dağarlı. XIX əsrin sonlarına aid məlumatda bu qəzada üç Dağarlı kəndi qeyd olunmuşdur [133]. Dağarlı yaylasının adındandır.

DAHARLI - İrəvan quberniyasının Aleksandropol qəzasında xaraba kənd adı [133, 73] Əslində Dağarlı. Dağarlı yayalasının adındandır.

DAHARLI - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ və yayla adı [133, 73]. Ehtimal ki, Səlcuq oğuzlarının Dügərli tayfasının adını əks etdirir. "Kitabi-Dədə Qorqud"da Tükər şəxs adı vardır.

DAŞAĞIL - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 121].

DAŞALTI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan mahalında) kənd adı [133, 76]. 1948-1949-cu illərdə əhalisi Azərbaycana köçürülmüşdür. "Qayaaltı" mənasındadır. Azərbaycanın Şuşa rayonundakı Daşaltı kəndinin adı ilə mənaca eynidir.

DAŞALTI - İrəvan quberniyasnn Şərur-Dərələyəz qəzasında qışlaq adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

DAŞARXI - 1728-ci ildə İrəvan əyalətinin qırxbulaq nahiyəsində kənd adı [170, 5].

DAŞBAŞI - Yelizavetpol (Gəncə) quberniyasnın Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı [133, 76]. XIX əsrdə Zəngəzurda yaşamış Puşanlı tayfasının qışlaqlarından birinin adıdır (103, 164). 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. "Qaya başı" mənasındadır.

DAŞBULAQ - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 193].

DAŞBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 125]. Başqa adı Əlikənd [23, 135].

DAŞBULAQ - İrəvan əyalətinin Aleksandropol qəzasında çay adı (133, 76).

DAŞBURUN - Eçmiadzin rayonunda kənd adı. XIX əsrin 70-ci illərində əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ildə kəndin əhalisi erməni idi. "Dağın burun şəkilli qayası" mənasındadır. Bax: Bozburun.

DAŞBURUN - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 76). Daşburun dağının adındandır.

DAŞBURUN - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı [133, 76]. "Burun formalı qaya" mənasındadır. Bax: Bozburun.

DAŞBURUN - İrəvan quberniyasının İrəvan qəzasında iki dağın adı [133, 76]. "Burun formalı qaya" mənasındadır. Bax: Bozburun.

DAŞQALA - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 239). 1878-ci ildə kəndin Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermnilər yerləşdirilmişdir. (6, 167). 1947-ci ildə kənd ermənicə Karaberd adlandırılmışdır. "Qaya üstündə qala" mənasındadır. Kənd yaxnlığındakı "Daşqala" qalasının adı ilə adlanmışdır.

DAŞQALA - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 96].

DAŞQAPI - 1590-cı ildə İrəvan əyalətinin Acaqala nahiyəsində kənd adı [168, 193]. Azərbaycan dilində daş [burada qaya mənasında] və türk dillərində kapı "dar keçid" sözlərindən ibarətdir.

DAŞDAN - Yelizavetpol [Gəncə] quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Meğri rayonunda) kən adı [133, 239]. XIX əsrin sonlarında bu toponim Taştun kimi idi [133, 239]. Albaniyanın ən qədim türk mənşəli toponimlərindəndir. Musa Kalankatlının "Alban" tarixində VII əsrə aid hadisələrdə Taşton kimi qeyd olunmuşdur. Bu göstərir ki, indiki Meğri rayonunun ərazisi Albaniya ərazisinə daxil idi. Türk dillərində taş (daş) "qaya" və ton "uzunvarı təpə" sözlərindəndir.

DAŞ KEYTİ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır [159]. Azərbaycan dilində daş ("qaya" mənasında) və Keyti kəndinin adından ibarətdir. XIX əsrdə mövcud olmuş Keyti adlı kəndlərin (bax: Keyti) biridir. "Qayalıq yerdə yerləşən Keyti (kəndi)" mənasındadır.

DAŞKƏND - Basarkeçər rayonunda kənd adı. 1590-cı ildən məlumdur [169, 326]. 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 120] idi. XIX əsrdə İrəvan quberniasının Novobayazid qzasında Taşkənd kimi qeyd olunmuşdur [136, 34]. Mənbədə kəndin maldarlarının Keyti dağında Tərsa adlı yurd yerində yayladıqları göstərilir (yenə orada). 1919-cu ildə əhalisi qovulmuşdur. 1922-ci ildə bir hissəsi qayıdıb yenidən məskunlaşmışdır. "Daşlıq (qayalıq) yerdə kənd" mənasındadır.

DAŞKƏND - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159].

DAŞKƏSƏN - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 76]. Başqa adı Əhməd-Əxi yurd (yenə orada). "Daş kəsilən (çıxarılan) yer", "karxana" mənasındadır. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Daşkəsən [133, 76] dağ adı və Azərbaycanda bir neçə Daşkəsən toponimləri ilə mənaca eynidir. Bax: Boğazkəsən.

DAŞKƏSƏN - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində yaylaq adı [169, 94].

DAŞ KÖRPÜ - İrəvan quberniyasının Sürməli qəzasında (sonra Amasiya r-nunda) kənd adı (133, 76). 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Kənd Qars əyalətinin Daş körpü kəndindən [133] gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

DAŞ KÖRPÜ - 1590-cı ildə Rəvan əyalətində yaylaq adı [169, 94].

DAŞKÖRPÜ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında çay adı (133, 76).

DAŞLI - İrəvan xanlığnın Vedibasar mahalında kənd adı [159]. 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır. 1728-ci ilə aid mənbədə Daşlı-Qaya kimi

qeyd olunmuşdur [170, 10] ki, bu da əslində Qayı (Kayı) tayfasının daşlıq yerdə məskunlaşması nəticəsində yarandığını göstərir.

DAŞLI - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 92].

DAŞLI - Eçmiadzin rayonunda kənd adı. 1728-ci ilə aid mənbədə Qarni nahiyəsində kənd adı kimi qeyd olunmuşdur (23, 99). Mənbədə kəndli Çinəxan kəndi yaxınlığında yerləşdiyi göstərilir (yenə orada). 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüşdür. 1728-ci ilə aid mənbədə "Reyhanlı (bax: Reyhanlı) camaatına məxsus Taşlu kəndi kimidir [170, 19]. 1968-ci ildə kənd ermənicə Daştəkar adlandırılmışdır. Erməni alimləri elə güman etmişlər ki, kəndin adındakı daş sözü (çünki hqiqətdə də yerli əhali içərisində kənd Daştı kimi də tələffüz olunmuşdur) fars dilindən erməni dilinə keçmiş dəşt "səhra", "düzən" sözündəndir.

DAŞLIQAYA - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı (23, 51).

DAŞLI GÖL - İrəvan quberniyasının Novobayazid qəzasında (133, 239), Ələyəz dağında 3250 m. yüksəlişdə gölün adı. Sahəsi 1151 kv. m.-dir. XX əsrin 30-cu illərində ermənicə Kariliç adlandırılmışdır. Daşlı dərədə yerləşdiyinə görə adlanmışdır.

DAŞLICA - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. 1728-ci ildən məlumdur [23, 64]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. 1728-ci ilə aid mənbədə Taşluca kimidir [170, 17]. "Daşlı (qayalıq)" mənasındadır.

DAŞLICA - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [23, 46].

DAŞNOV - Yelizavetpol (Gəncə) quberniyasnın Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan mahalında) kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Azərbaycan dilində daş və fars dilində nav "suvarma kanalı", "arx" sözlərindəndir.

DAŞNOV - İrəvan xanlığının Vedibasar mahalında kənd adı, [159]. 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir.

DAŞÇILI - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 64]. Əsli Daş Çullu. Qədim türk mənşəli çol (çul) tayfasının adındandır. Bax: Çullu.

DAŞXANA - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Noyemberyan rayonunda) qışlaq adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

DAŞXURMAN - İrəvan quberniyasının Dərələyəz qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. XIX əsrin ortalarında mövcud olmuş qışlaq əsasında yaranmışdır. Qışlaq isə "Daş xırman"ın adındandır. Azrbaycan dilində daş və türk dillərində kərmən "qala" sözündəndir.

DVİN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (170, 9). 1591-ci ilə aid mənbəyə görə digər adı Altuntaxt (168). Qədim Dvin (Bizans mənbələrində Duvin, ərəb mənbələrində Debil) şəhərinin adını əks etdirir. Dvin şəhərinin əsası Ərməniyədə Arşaklar sülaləsindən III Xosrov (332-338) tərəfindən qoyulmuşdur. Əsli Devin. Qədim erməni dilində "e" səsi zəif olduğuna görə toponim ermənicə yazılışda Dvin formasını kəsb etmişdir. Türk dillərində təbin "qışlaq" (bax: G. M. Murzaev. Toponimika i qeoqrafiçeskoe poznanie Monqolii. Sb. "Toponimika v reqionalğnıx qeoqrafiçes-kix isssledovaniəx". M. 1984, s. 7) sözündəndir. Dvin şəhəri erkən orta əsrlərdə xristian və müsəlmanların qarışıq halda yaşadıqları şəhər idi. Sultan Cəlaləddin 1225-ci ildə Dvin qalasını tutduqda qarət olunmamaları üçün şəhərdən müsəlman arvad-uşaqlarının çıxarılmasını yerli qaziyə əmr etməsindən görünür ki, orada türk dilli müsəlman əhali də yaşayırdı. 1236-cı ildə şəhər monqollar tərəfindən dağıdılmışdır.

DVİN KÜRD - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 77).

DEBİKLİ - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı (169, 59). Bax: Dibəkli.

DEBİL - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 127). Ehtimal ki, Dvin toponiminin Şərq mənbələrində tələffüz forması olan Dəbil toponimi ilə bağlıdır. Qeyd edilməlidir ki, Alban tarixçisi Musa Kalankatlı da Dvin toponimini Dəbil kimi yazmışdır ("Alban tarixi", II kitab, 44-cü fəsil).

DELİCAN - 1728-ci ildə İrəvan nahiyəsinin Göycə nahiyəsində kənd adı (23, 55). Ehtimal ki, əhalinin hərəkəti ilə Şərqi Anadoludan gətirilmə addır. XIX əsrdə Qars əyalətində Dəlican nahiyəsi və Dəlican kəndi vardı (133). Kənd isə Qızılbaşların Mosullu tayfvasının əmiri Məmmədxan bəyin oğlu Dəlicanın (16, 12) adı ilə adlanmışdır. Bax: Dilican.

DELİCAN - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 124). "Qaraqişlaq da adlanır" (yenə orada).

DEKİN - 1590-cı ildə Rəvan əyalətinin Məvaziyi-Xatun nahiyəsində kənd adı [169, 133]. Ehtimal ki, türk dillərində teqin "şahzadə" sözündəndir. Ağdaş rayonunda Qaradeyin kənd adı ilə mənaca eynidir.

DEHGEDEYİ - Şəkiabad- 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 106]. "Ködək Buzavənd kəndinin yaxınlığında yerləşir" (yenə orada). Fars dilində deh "kənd" və Gedey etnonimindən (?) ibarətdir.

DEŞDİK CAMAL GÖYÇƏ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 120].

DEM - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir.

DEMİDAĞ - Yelizavetpol (Gəncə) quberniyasnn Zəngəzur qəzasında dağ adı [133, 77]. Türk dillərində dəymə-"mal-qaranın yatması üçün yer" [70, 470] sözündəndir.

DEMİTƏPƏ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı [133]. Ehtimal ki, türk dillərində dəymə-"mal-qaranın yatması üçün yer" sözündəndir.

DƏBƏYƏNLİ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 92]. "Əhalisi Əglənli əşirətindən"dir (yenə orada).

DƏVƏAXUR - XVIII əsrin ortalarında İrəvan əyalətinin Göyçə mahalında kənd adı [150, 360]. Dəvələrin qışda saxlandığı yer, tövlə mənasındadır.

DƏVƏBOYNU - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133, 77]. "Dəvənin boynuna oxşayan dağ" mənasındadır.

DƏVƏDAŞ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 77]. Əsli Tavadaş. Azərbaycanda Alatava toponimi ilə mənaca eynidir. Bax: Dəvəxaraba.

DƏVƏGÖZÜ - İrəvan qəzasında (133, 77) Qelam (ermənicə Qeğam) dağ tirəsindən qərbə şaxələnən bir dağ belinin adı (60, 99). XX əsrin 30-cu illərində dağ ermənicə Uxtupar adlandırılmışdır.

DƏVƏGÖZÜ - Qelam dağ tirəsindən axan bir çayın adı (60, 99). XX əsrin 30-cu illərində ermənicə Uxtuakunk adlandırılmışdır.

DƏVƏLİ - İrəvan xanlığının Vedibasar mahalında kənd adı. 1728-ci ildən məlumdur [170, 10]. 1828-1829-cu illərdə kəndə İrandan gəlmə ermənilər də yerləşdikdən sonra əhali qarışıq yaşamışdır [159]. 1975-ci ildə kənd Ararat adlandırılmışdır. 1988-ci ildə

Azərbaycanlı əhalisi qovulmuşdur. XVII əsrin əvvəllərinə aid ermənicə mənbədə Davalonots kimi qeyd olunmuşdur [150, 115]. Ehtimal ki, orta əsrlərdə Anadoluda mövcud olmuş Dəvəlu bölgəsindən [36, 188] gəlmiş ailələrin özləri ilə gətirdikləri addır. 1588-ci ilə aid mənbədə Azərbaycanda qışı Qarabağda keçirən bir el də Davilu adlanırdı [208].

DƏVƏÇUXURU - 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində [169, 332], 1728-ci ilə Zarzəmin nahiyəsində [23, 121] kənd adı.

DƏVƏXARABA - İrəvan quberniyasınn Novobayazid qəzasında kənd adı [136, 60]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş, Türkiyədən gəlmə yezid kürdləri yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə kəndli əhalisi kürd idi [136, 60]. Əsli Tava-Xaraba. Türk dillərində tava "bitkisiz", quru otlu "yer" sözündəndir. Azərbaycanda Alatava toponimi ilə mənaca eynidir. Ermənicə Avad adlandırılmışdır.

DƏVƏÖLƏN - İrəvan quberniyasının Dərələyəz qəzasında kənd adı [133, 72]. XIX əsrin əvvəllərində mövcud olmuş qışlaq əsasında yaranmışdır. Qışlaq isə "dava (vuruşma) olan (yer)" adlı yerdə yerləşirdi. XIX əsrin sonlarından sonra mənbələrdə kəndin adı çəkilmir.

DƏDƏQIŞLAQ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 73). 1939-cu ildə M.F.Axundovun şərəfinə Axundov adlandırılmışdır. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

DƏDƏQULU - 1728-ci ildə İrəvan əyalətinin Şiragel nahiyəsində kənd adı [170, 128]. Çaqçaq kəndinin yaxınlığında yerləşir (yenə orada).

DƏDƏLİ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında (Talin rayonunda) kənd adı. 1914-cü ildə əhalisi qovulmuş və 1920-ci ildə Türkiyədən gəlmə yezid kürdləri yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Yexnik adlandrılmışdır. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Dərələyəz nahiyəsində Dədəlu kəndi qeyd olunur [170, 14]. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Dədəli, Azərbaycanda Göyçay qəzasında Dədəli və Quba qəzasında Dədəli [133] kənd adları ilə mənşəcə eynidir. Şah İsmayıl Xətai 1501-ci ildə Əbdal bəy Dədəni Əmir əl Ümərа ("əmirlərin əmiri") vəzifəsinə təyin etdikdən sonra ona torpaq sahələri tiul vermişdi. Ehtimal ki, bu kənd adları həmin əmirin adı ilə adlanmışdır.

DƏDƏLİ KÖRPÜ - İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında kkörpü adı [133, 73]. "Körpü yaxınlığındakı Dədəli" mənasındadır.

DƏYİRLİ - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 40]. Ərəb dilində deyr "xristian monastırı" sözündəndir.

DƏYİRLİ - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində qışlaq adı [23, 67].

DƏYMƏDAĞLI - Yelizaetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan rayonunda) kənd adı [133, 72]. Ermənicə Şrvanants adlandırılmışdır. Qarabağ ellərindən biri olan Kolanı tayfasının Dəymədağlı qolunun məskunlaşması nəticəsində yaranmışdır. Tayfa isə Zəngəzurdakı Dəymədağlı dağının adı ilə adlanmışdr. XIX əsrdə Azərbaycanda Cavad, Nuxa və Şamaxı qəzalarında Dəymədağlı kəndlərinin [133] adları ilə mənşəcə eynidir.

DƏYMƏDAĞLI - Yelizavetpol quberniyasınn Zəngəzur qəzasında dağ adı [133]. Türk dillərində dayma "mal-qaranın yatması üçün yer" [79, 470] və ağıl (qoyun ağılı) sözlərindən ibarətdir. "Dayma-yerdə ağıllar yerləşən dağ” mənasındadır.

Azərbaycanın Oğuz və Cəbrayıl rayonlarında Dəymədərə kənd adları ilə mənaca eynidir.

DƏLƏKLİ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [136, 33].

DƏLƏLİ - İrəvan quberniyasınn Eçmiadzin qəzasında kənd adı [133, 73]. XIX əsrin sonlarından sonra bu kəndin adı mənbələrdə çəkilmir. Qədim türk mənşəli Tele tayfasının (bax: Böyük Dəllər) adını əks etdirir.

DƏLİ-AĞACAN - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [170, 16].

DƏLİQARDAŞ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 74]. 1728-ci ilə aid mənbədə Göyçə nahiyyəsində kənd kimi qeyd olunmuşdur [23, 55]. 1919-cu ildə kəndin əhalisi qovulmuş və 1920-ci ildə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd erməncə Sarukan adlandırılmışdır. 1728-ci ilə aid türkcə mənbədə Dəli Qardaş [170, 18], ermənicə mənbədə Dalu-Kartaş [150, 361] kimidir. Keçmişdə oradakı vəngin adı ilə həm də Əyrivəng (ermənicə ayr, əsli qədim türkcə or "mağara", "çuxur") "mağara və vəng "kilsə" sözlərindən) adlanmışdır.

DƏLİDAĞ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 74]. Hünd. 3196 m. XIX əsrdə Azərbaycanda və Ermənistanda mövcud olmuş 10 Dəlidağ [133, 74] oronimindən biridir. Keçmişdə Azərbaycanın maldar ellərinin yaylaqlarının yerləşdiyi dağlardır. Gözlənilmədən havanın dəyişməsi ilə (xalqın ifadəsində dəlilik etməsi ilə) əlaqədar olaraq bəzi dağlara verilən addır.

DƏLİKVƏNG - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyyəsində kənd adı [23, 114].

DƏLİKDAĞ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı (133, 74).

DƏLİKDAŞ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 74]. 1728-ci ilə aid mənbədə Göyçə nahiyəsində kənd kimi qeyd olunur [23, 56]. 1948-ci ildə əhalisi Azərbaycana köçürülmüşdür. 1948-ci ildə kənd ermənicə Tsaxkar adlandırılmışdır. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Göycə nahiyyəsində Dəlik Taş kimidir [170, 12]. Həmin mənbədə Dəlik Taş adlı digər kəndin İrəvan əyalətinin Qırxbulaq nahiyəsində yerləşdiyi göstərilir [170, 43]. Yaxındakı "Dəlikdaş" qayalı dağın adındandır. Bax: Dəlikdaş dağı.

DƏLİKDAŞ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyyəsində kənd adı [23, 84].

DƏLİKDAŞ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında dağ adı [133, 74]. Dağ oradakı vulkan mənşəli təbii deşikli qayanın adı ilə adlanmışdır.

DƏLİ KƏSİK - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 90). "Kəndin başqa adı Qarxındır" (yenə orada) Bax: Qarxın.

DƏLİKLİ - 1590-cı ildə Rəvan əyalətində yaylaq adı [169, 226].

DƏLİLƏR - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyyəsində kənd adı [169, 188].

DƏLİLƏR - 1728-ci ildə İrəvan əyalətinin Karni nahiyəsində kənd adı [23, 49].

DƏLİPAŞA - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. 1886-cı ilə aid məlumatda İrəvan quberniyasının Novobayazid qəzasında kəndin həm də Paşakənd adlandığı göstərilir. [136, 60]. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir. Ehtimal ki, Dəli Paşa şəxs (mülkədar) adındandır.

DƏLİSƏDİ - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı [169, 235].

DƏLƏÇAY - İrəvan quberniyasının Aleksandropol qəzasında iki çay adı [133, 74] Bax: Dəliçay.

DƏLİÇAY - İrəvan quberniyasının Eçmiadzin qəzasında çay adı (133, 74). Mənbəini Ələyəz dağının ətəklərindən alır və Qəzənfər dərəsindən keçərək Qarasu çayına qarışır. Ermənicə Qexarot adlandırılmışdır.

DƏLİCAN QIŞLAĞI - 1728-ci ildə İrəvan əyaltinin Zarzəmin nahiyəsində kənd adı [23, 123].

DƏLLƏKLİ - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı [159]. 1948-1951-ci illərdə əhalisi Azərbaycana köçürülmüşdür. 1946-cı ildə kənd ermənicə Tsovaşen adlandırılmışdır. Əsl adı Dələkli (133, 73) “Kitabi Dədə Qorqud" eposunda Dələk eponimindəndir.

DƏLİLƏR - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133]. 1728-ci ilə aid mənbədə Dəlilər kimidir. [23, 36] "Ərzqan kəndinin yaxınlığında yerləşir" (yenə orada). 1830-1831-ci illərdə xaricdən gəlmə ermənilər də yerləşdirildikdən sonra kəndin əhalisi qarışıq yaşamışdr. 1918-ci ildə kəndin Azərbaycanlı əhalisi qovulmuşdur. 1728-ci ilə aid mənbədə [170, 9] və XIX əsrə aid ədəbiyyatda Dəlilər kimidir [133]. 1935-ci ildə kəndin adı erməniləşdirilərək Dalar adlandırılmışdır. XIX əsrdə Cənubi Qafqazda mövcud olmuş 9 Dəllər və Dəlilər adlı kəndlərdən [133, 74] biridir. İrəvan quberniyasının İrəvan qəzasında Böyük Dalular və Kiçik Dalular adlı kəndlər də vardı [133, 74]. Qədim türk mənşəli tele tayfasının adını əks etdirir [81, 78-79]. Bax: Böyük Dəllər.

DƏLLƏR - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 74]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Bax: Dəllər.

DƏM - İrəvan quberniyasının Eçmiadzin qəzasında qışlaq adı (133, 78) Başqa adı Səməxamik (yenə orada).

DƏMIRLI DAĞ - Zəngəzur dağ tirəsində bir zirvənin adı (60, 75). XX əsrin 30-cu illərində dağ ermənicə Erkatasar adlandırılmışdır.

DƏMİRLİ BULAQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında bulaq adı (133, 78).

DƏMİRLİQIŞLAQ - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [23, 68].

DƏMİRXANQIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində qışlaq adı [23, 123].

DƏMİRSİXAN - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. XVII əsrə aid ermənicə mənbədə Damur-siğan kimidir [150, 116]. Mənası aydın deyil.

DƏMİRÇİ - İrəvan xanlığının Zəngibasar mahalınd kənd adı [159]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. 1728-ci ilə aid mənbədə Timurçi kimidir [170, 63].

DƏMİRÇİ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 94].

DƏMİRÇİLƏR - İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında kənd adı [133, 78]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Dul Qədirli tayfasının Dəmirçilər qolunun adındandır [Bax: Qədirli).

DƏMİRÇİLƏR - Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Taşir rayonunda) kənd adı [133, 78]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Qazaxlıların Dəmirçilər tayfasının məskunlaşması nəticəsində yaranmışdır.

DƏMİRÇİLİ - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 68]. Kəndin əsasını qoymuş nəslin adıdır.

DƏMİRÇİ POQOS - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

DƏMİR ÇIXAN - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [23, 63]. "Dəmir filizi çıxarılan yer" mənasındadır.

DƏMİRÇİ ŞÖLLÜ - İrəvan xanlığnın Zəngibasar mahalında kənd adı [159].1728-ci ilə aid mənbədə Dəmirçiliye Şollu kimidir [23, 36]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. "Dəmirçi kəndi yaxınlığındakı Şöllü (kəndi)" mənasındadır. Bax: Şöllü.

DƏMİBULAQ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında bulaq adı (133, 77).

DƏMİTƏPƏ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında dağ adı (133, 77). XIX əsrin axırlarında Zəngəzur qəzasında Dəmidağ adı (133, 77) ilə mənaca eynidir.

DƏMLƏR - İrəvan quberniyasının Dərələyəz qəzasında kənd adı [133, 77]. XIX əsrin sonlarndan sonra mənbələrdə adı çəkilmir. Damlar (tövlələr) adından təhrifdir.

DƏMLIKDAĞ - Abarandan şimal-şərqdə dağ zirvəsinin adı (60, 75). Ermənicə dağın adı Damlk yazılır.

DƏNGƏVƏNG - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı [160, 232]. Farsca dəngə-"məhəllə", "kiçik kənd" və vəng-"monastır" sözlərindəndir.

DƏRBƏND - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 75). 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində (indi Axuryan rayonunda) kənd adı [23, 115]. 1878-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş və 1880-cı ildə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 168). 1946-cı ildə kənd ermənicə Karmrakar adlandırılmışdır. İlk dəfə "Kitabi Dədə Qorqud" eposunda çəkilən iki Dərbənd toponimindən birinin, Kaqızman Dərbəndinin adındandır. Fars dilində dərbənd "dağ keçidi", "dərə" [145, 70] sözündəndir.

DƏRBƏND - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı (23, 109). 1728-ci ilə aid mənbədə "Dərbənd tabii Abaran" kimidir [170, 96].

DƏRVAZ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 75). Mənbədə Darbaz kimidir (yenə orada). 1915-1918-ci illərdə əhalisi qovulduqdan sonra Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Ermənicə Darpas adlandırılmışdır. Ərəb dilində deyr "xristian monastırı" (L.Z.Bu-daqov. I. 599.) və türk dillərində vayz, bayz "sıldırım dağ" sözlərindəndir. Bax: Darabaz. XIX əsrin sonlarında Borçalı qəzasında iki Darbaz kənd Azərbaycanda Cavanşir qəzasında Darbaz kənd, xarabalığı adları ilə mənaca eynidir.

DƏRVİŞQIRAN - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində məzrə adı [170, 98]. Mənbədə məzrənin (əkin yerini) oradakı Güllücə kəndinə məxsus olması qeyd edilir (yenə orada). Əkin yerinin (məzrənin) adı isə "Dərviş düşərgəsi" mənasındadır. Ermənistanda "dərviş" sözü ilə bağlı çoxlu toponim Səfəvilər dövləti vaxtında təkyələrdə və zaviyələrdə məskunlaşmış dərvişlərə müəyyən torpaq sahələri bağışlanması ilə əlaqədardır. Orta əsrlərdə Türkiyədə də çoxlu dərviş ordeni vardı. Başlarına yaşıl rəngli əmmamə qoyan bu dərvişlər özlərilə bəzən uzunluğu 20 metrə çatan kağızda seyid nəslindən olduqlarını göstərən şəcərə gəzdirirdilər (Bax: Qordlevskiy V.A.Soç., tom. III, M-L, 1973, s. 205).

DƏRVİŞ ƏZİZ - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı (23, 113). "Saqmosavəng kəndinin yaxınlığında yerləşir" (yenə orada).

DƏRVİŞ ƏLİ - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində (Şörəyəldə) kənd adı [170, 122]. Mənbədə bu kəndin həm də Sorkuli adlandığı qeyd olunur (yenə orada).

DƏRDCAN - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı (bax: 159). 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər

yerləşdirilmişdir [159]. Yerli tələffüz forması Dərcan. Orta əsr mənbələrində həm də Saru=Tərcan kimidir [16, 15]. İlk dəfə XI əsrə aid ermənicə mənbələrdə Dərdcan [142, 99, 110, 96], XVII əsrə aid mənbədə Dərcan [57, 35] formalarında qeyd olunmuşdur. Əhalinin hərəkəti ilə əlaqədar olaraq gətirilmə addır. Anadoluda Ərzrum əyalətinin cənub=qərbində, Fərat çayının vadisində Tərcan şəhərindən və mahalından (1450-ci ilə aid mənbədə Tərcan kimidir,- 115, 148) gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Azərbaycanda Tircan (Şamaxı r-nu) kənd adı ilə eynidir.

DƏRƏ - İrəvan quberniyasının Novobayazid qəzasında (133, 26) Basarkeçər rayonunda kənd adı. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Digər adı "Babacan dərəsi" [20, 285]. 1921-ci ildə Pəmbək kəndindən ermənilər tərəfindən qovulmuş azərbaycanlılar salmışlar. Ermənistan ərazisində "dərə" sözündən düzəlmiş çoxlu kənd adında bu sözün dəqiq mənasını ayırd etmək çətindir. Ona görə ki, onların bəzisi erkən orta əsrlərdə Suriya dilində daira (ərəbcə deyr) "monastır" sözündən də ibarət ola bilər. Məsələn, XI əsrə aid ermənicə mənbədə Şərqi Anadoluda Derenik monastırının adı çəkilir [110, 110].

DƏRƏBASİ-TALA - İrəvan quberniyasının İrəvan qəzasında təpə adı (133, 75). Ərəb dilində deyr “xristian monastrı”, türk dillərində “baz” (Bax: Boz Abdal) və tala sözlərindən ibarətdir.

DƏRƏBƏYKƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı (23, 46). "Əhalisi Dümbili əşirətindəndir" (yenə orada).

DƏRƏQIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində qışlaq adı (23, 118). Qurdçulu və Şahməmməd qışlağı da adlanır (yenə orada). Bax: Qurdçulu.

DƏRƏDAŞI - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 193].

DƏRƏ-YURT - İrəvan quberniyası Novobayazid qəzasında Toxluca kəndinə məxsus yaylağın adı [136, 32].

DƏRƏYURT-ÇAY - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında çay adı (133, 75).

DƏRƏKƏM - İrəvan quberniyası qəzasında Toxluca kəndinə məxsus qışlaqlardan birinin adı [136, 34]. Azərbaycan dilində dərə və türk dillərində kəm "vadi", (qədim türk dillərində kəm "çay") sözlərindən ibarətdir. Qax rayonunda Quru-Kam, Şimali Qafqazda Ulu-Kam çay adları ilə mənaca eynidir.

DƏRƏKƏND - İrəvan quberniyasının Eçmiadzin qəzasında xaraba kənd adı [133, 75]. 1728-ci ilə aid mənbədə Karbi nahiyəsində məzrə kimi qeyd olunur və həm də Gül kəndi adlandığı göstərilir [170, 63]. Bax: Gülkənd.

DƏRƏKƏND - Tiflis quberniyasının Borçalı qəzasında (indi Quqar rayonunda) kənd adı [133, 75]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Dzoraqyuq adlandırılmışdır.

DƏRƏKƏND - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan mahalında) kənd adı [133, 75]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. XIX əsrin əvvəllərində VaqUdi (bax) kəndindən yaranmışdır.

DƏRƏKƏND - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 75). Dərəköy də adlanmışdır.1728-ci ilə aid mənbədə Şirakel nahiyəsində kənd adı [23, 135]. 18281832-ci illərdə Azərbaycan türkləri qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. (159) Sonra əhalinin bir hissəsi geri qayıtmışdır.1947-ci ildə kənd ermənicə Baqravan adlandırılmışdır. 1948-ci ildə azərbaycanlı əhalisi Azərbaycana köçürülmüşdür.

DƏRƏKƏNDİ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. 1728-ci ildən məlumdur [170, 17]. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

DƏRƏKƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 145]. Mənbədə kəndin həm də Zarçi adlandığı qeyd olunur (yenə orada).

DƏRƏLƏYƏZ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında dağ adı (133, 75). Azərbaycan dilində dərə (vadi mənasında) və Alagöz tayfasının adından ibarətdir. Bax: Alagöz.

DƏRƏKÖY - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 75]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Saraqyuq adlandırılmışdır.

DƏRƏGÖZ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı (133, 75).

DƏRƏÇAY - Mənbəini Ağlağan dağından götürür. Pəmbək çayı ilə birləşərək Debet çayına tökülür. Uz. 67 km. Ermənicə Dzoraqet adlandırıl-mışdır.

DƏRƏÇİÇƏK - İrəvan xanlığının mahallarından birinin adı [159]. Əlibəy dağının ətəyində qədim məntəqədir. 1728-ci ildən məlumdur [169, 11]. Kənd Dərəçiçək dərəsinin adı ilə adlanmışdır. 1946-cı ildə ermənicə Tsakadzor adlandırılmışdır. 1959-cu ildə Dərəçiçək rayonu Hrazdan rayonu adlandırılmışdır. 1930-cu ilə qədər Aşağı Axta kəndinin adı ilə Axta rayonu idi.

DƏRƏÇİÇƏK - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 75). 1728-ci ildən məlumdur (23, 53). İrəvan quberniyası Rusiyaya birləşdirildikdən sonra Konstantinovskoe adlandırılmışdır (136, 64). XIX əsrin 70-ci illərində azərbaycanlı əhalisi qovulmuş və Türkiyədən gəlmiş yezid kürdləri

yerləşdirilmişdir. Sonra az miqdar azərbaycanlı ailə qayıtmış, 1918-ci ildə yenidən Azərbaycana qovulmuşlar.

DƏRƏÇİÇƏK - Novobayazid qəzasında dağ adı [133, 75]. "Çiçəkli dərəli dağ" mənasındadır.

DƏRZİLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı {133, 75]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. 1728-ci ilə aid mənbədə Tərzili kimidir [170, 20]. XIX əsrdə qışı Qarabağ düzündə, yayı Zəngəzurda keçirən bir maldar elin adıdır. Aşağıdakı qışlaqları vardı: Bəy Əli, Qomaran, Gün, Çəmbər, Qaragöl, Bərkin, Pir Veysli, Razgah və Şərəkən [103, 152].

DƏRZİLİ - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı (23, 70).

DƏRMƏZUR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında kənd adı. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd dağılmışdır.

DƏSTƏKERD - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Sisyan nahiyəsində Dəstəgird kimi qeyd olunur (23, 150]. Həmin mənbədə deyilir ki, kənddə təkcə bir xristyan ailəsi yaşayır (32, 241). 1918-ci ildə kənddə ermənilər yerləşmiş və əhali qarışıq yaşamışdır. 1988-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuşdur. Fars dilində dəstəgerd “(hökmdara, feodala məxsus) "malikanə" sözündəndir. Sasanlar dövlətində dəstəgerd nəsli torpaq sahəsi idi.

DƏHNƏ - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133]. Naxçıvanda Dəhnədağ, Şərur-Dərələyəz qəzasında Dəhnədağ adları ilə mənaca eynidir. Azərbaycan dilində (əsli fars dilində) dəhnə-"ağız", "keçid" sözündəndir.

DƏHNƏZ - İrəvan quberniyasının İrəvan qəzasında (Sonra Vedi rayonunda) [133, 76] kənd adı.1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir. Yerli tələffüz forması Daynaz.

DƏHNƏKƏND - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı. Digər adı Dəmirçiqışlaq [159].

DƏŞT - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 59]. Farsca dəşt "çöl", "səhra" sözündəndir.

DƏŞTƏK - 1590-cı ildə Rəvan əyalətinin Zar nahiyəsində kənd adı [169, 327]. XVIII əsrə aid ermənicə mənbədə Daştak kimidir (150, 360). Türk dillərində daş və yataq (maldar elin qışlaqda hər 50 qoyun üçün tikdiyi tövlə) sözlərindən, ya da daş və otaq "xan alaçığı" sözlərindən ibarət adın danışıqda təhrif olunmuş formasıdır.

DİADİN - 1728-ci ildə İrəvan quberniyasının Qırxbulaq nahiyəsində [170, 5] kənd adı. Şərqi Türkiyənin Diadin mahalından [150, 116] gəlmə ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

DİAN - İrəvan xanlığının Seyidli Axsaqlı mahalında kənd adı [159]. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Mənası məlum deyil.

DİBƏKLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. XVIII əsrin əvvəllərinə aid ermənicə mənbədə Tipaklu kimidir [91, 213]. Kənd ermənicə Sant adlanmışdır. 1664-cü ildən məlumdur [135, 87], [habelə bax: 15, 339]. Nadir şahın Eçmiadzin kilsəsinə bağışladığı azərbaycanlı kəndlərindəndir [150, 178]. Azərbaycan dilinin dialektlərində dibək "yumşaq daş" (bu daşdan keçmişdə həvəngdəstə və it üçün yalaq qabı düzəldilirdi) sözündəndir. "Dibək daşı olan yer" mənasındadır. Cənubi Azərbaycanda Dibəkli (145, 65), Culfa rayonunda Dibəkli dağı, Kəlbəcər

rayonunda Dibəkdağ ("Koldağ" da adlanır) oronimləri ilə mənaca eynidir. Korcalallı tayfasının Zəngəzurda bir qışlağı da Dibəkli adlanırdı [103, 158].

DİBƏKLİ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 85). Mənbədə Dibaklu kimidir (yenə orada).

DİBİ - 1727-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (32, 286). "Alban tarixi"ndə V əsr hadisələri ilə əlaqədar məlumatda Divtakan (əsli Dib-Toqan) kənd adı çəkilir ("Alban tarixi", I kitab, 28-ci fəsil).

DİBSİZ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 85]. XIX əsrin sonlarından sonra adı çəkilmir. Azərbaycan dilində dib (dağın dibi, ətəyi) və Sis toponimindən ibarətdir. Anadolunun Sis əyalətindən gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Bax: Başsız.

DİVANŞAHKƏRƏM - 1728-ci ildə İrəvan əyalətinin Şiranel nahiyəsində kənd adı (23, 126). "Hərəmdəyirmanlı da adlanır" (yenə orada). Bax: Hərəm dəyirmanı k.

DİQİR - İrəvan xanlığının Seyidli Axsaqlı=mahalında kənd adı [159]. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. 1728-ci ilə aid mənbədə "Qışlaqi=Digirli" kənd [160, 18] adı ilə mənaca eynidir.

DİQOR - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 194]. Şərqi Türkiyədə Diqor mahal adındandır. XX əsrin əvvəllərinə aid mənbədə Qars əyalətinin Kaqızman dairəsində Diqor, Diqor-Xaraba, Diqor çay (133, 85), Şimali Qafqazda Diqor toponimləri ilə mənşəcə eynidir. Diqor bir qədim türk mənşəli tayfanın adıdır.

DİQORKİLİSƏ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 70].

DİDVAR - 1728-ci ildə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [170, 162]. Qədim farsca didə "qala" və var "yer" sözlərindən ibarətdir. Naxçıvan bölgəsində Didəvar, Azərbaycanda Dizəvar (Xızı k. yaxınlığında) və Didvan (Qazax şəhərinin kənarında) toponimləri ilə mənaca eynidir.

DİZƏ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Qədim fars dilində didə, orta fars dilində dizək (müasir farsca dej) "qala" sözündəndir. Albaniyanın Artsak (Dağlıq Qarabağ) əyalətində Dizəbad (ermənicə yazılışda Dizapayt) dağ adı "Alban tarixi"ndə çəkilir. ("Alban tarixi", I kitab, 34-cü fəsil).

DİZƏK - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Orta fars dilində dizək-"qala" sözündəndir. Dağlıq Qarabağın orta əsrlərdə Dizak mahalının (indiki Cəbrayıl rayonunun ərazisi) adı ilə mənaca eynidir.

DİK - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 40] "əhalisi Dümbili camaatındandır" (yenə orada).

DİKBAŞ - 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində yaylaq adı [169, 334].

DİKBURUN - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı (23, 110). Başqa adı Tüllütəpəsi (yenə orada).

DİKLİ - 1728 -ci ildə İrəvan nahiyəsinin Qırxbulaq nahiyəsində kənd adı (23, 78).

DİKMƏ - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 41).

DİKMƏDAŞ - 1590-cı ildə Rəvan əyalətində, Ələyəz dağında yaylaq adı. "Alpout camaatı yaylayır" [169, 94]. Əsli Tikmədaş. Sıldırım qayaların bir-birinə birləşməsi

hörgüyə oxşayır (6, 95). XIX əsrdə Tiflis quberniyasının Axalkalak qəzasında Tikmədaş kənd adı (133, 243) ilə eynidir.

DİKMƏDAŞ - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində məzrə adı [169, 223].

DİGƏR AĞ KİLSƏ - 1728-ci ildə İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı (23, 55).

DİİRKİLSƏ - 1728-ci ildə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [170, 70].

DİGƏR RÜSTƏM KƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 40). Nahiyədə Rüstəm adlı kənddən (23, 40) fərqləndirilməsi üçün adın əvvəlinə "digər" sözü əlavə olunmuşdur.

DİLƏNÇİ - 1728-ci ildə İrəvan əyalətinin Köycə nahiyəsində kənd adı [170, 12]. XVIII əsrə aid ermənicə mənbədə kəndin Xeyrəvəng monastırına mənsub olduğu qeyd edilir [150, 361].

DİLİCAN - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Dilican rayonunda) kənd adı [133, 77]. İlk dəfə XVII əsrdə səyyah Şardenin yol qeydlərində Dilican (Qazax ölkəsində Qamçı xana mənsub mahalın adı kimi), 1728-ci ilə aid mənbədə Göycə nahiyəsində Dəlican kimidir [170, 12]. Ehtimal ki, əhalinin hərəkəti ilə gətirilmə addır. XIX əsrdə Qars əyalətində Dəlican nahiyəsi və kəndi vardı (133). Bax: Delcan.

DİNAZ - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı (23, 104).

DİR - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 43). Ərəb dilində deyr "məbəd", "monastır" sözündəndir. Culfa rayonunda Darıdağ (əsli Deyridağ) və Şamaxı rayonunda Pir Dirəkli (Dir və tatca ki "dağ" sözlərindən) dağ adı ilə mənaca eynidir.

DİRƏKLƏR - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 86). 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Kernut adlandırılmışdır. Əsli Tereklər. XII-XIII əsrlərdə Kiçik Asiyada yaşamış türk tayfalarından biri Terekli idi (bax: 96). XVII əsrin əvvəllərinə aid ermənicə mənbədə İstanbul -Tokaş karvan yolu üstünə Diraklu kəndinin adı çəkilir (46, 24).

DİRƏKLİ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 135). Mənbədə kəndin Bəkir Xəlil oğluna məxsus olduğu qeyd olunmuşdur (yenə orada). Terekli türk tayfasının adındandır. (Bax: Dirəklər). Mən-şəcə qıpçaq tayfasıdır. Qaraqalpaqlarda Tarakli, Moldaviyada qıpçaqlarda Tarakli (bax: N.A.Baskakov. Rodoplemennie nazvaniə kıpçakov v toponimi öjney Moldavii. "Toponimika Vostoka", 1964, s. 49) tayfaları məlumdur. Dirəklər kəndinin "Qıpçaq çölü" adlı düzdə yerləşməsi də bu fikri təsdiqləyir. Şimali Qafqazda Terek çayının (çay oradakı qədim Terek qalasının adı ilə adlanmışdır) adı ilə mənşəcə eynidir. Bax: həm də Əştərək.

DİRƏKÇİ - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı (23, 48). "Kəndin başqa adı Uzunqışlaqdır" (yenə orada).

DIĞIR - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı (169, 84). Bax: Diqor.

DIX-TƏPƏ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı (133, 89). XIX əsrdə Azərbaycanda Dıx-Daş, Şimali Qafqazda Dıx-Su və Dıxtau dağ adları ilə (133, 90) eynidir. Mənası məlum deyil.

DOVRUZ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında [indi Ermənistanın Qafan r-nunda] kənd adı (133, 87). 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Dovruz dağının adındandır.

DOVRUZ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistan Qafan r-nunda) kənd adı (133, 87). Yerli tələfüz forması Dəvruz.

DOVŞANQIŞLAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı. 1850-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. (6, 168). 1950-ci ildə Şirakovan adlandırılmışdır. Bu toponimin mənası barədə iki mülahizə ola bilər. 1. Kənd qışlaq əsasında yaranmışdır. Qışlaq isə həmin yerdə dovşanın bolluğu ilə əlaqədar adlanmışdır. 2. XVII əsrdə Muğanda yaşamış Ardem-Dovşanlı tayfasının adını əks etdirir.

DOVŞANLI - 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində yaylaq adı [169, 334]. Yaylağın adı həmin yerdə dovşanın bolluğu ilə bağlıdır.

DOQQUZ - İrəvan xanlığına Qarnibasar mahalında kənd adı. 1590-cı ildən məlumdur [169, 207]. XIX əsrin 50-ci illərində kənddə ermənilər də məskunlaşmışdır. 1886-cı ilə aid mənbəyə görə kəndin əhalisi ermənilər idi. 1945-ci ildə kənd ermənicə Kanaçut adlandırılmışdır. 1728-ci ilə aid mənbədə Tokuz (digər adı Kahablı) kimidir [170, 78]. Həmin mənbədə Tokuz-Bayan kəndinin də adı çəkilir [170, 3]. XVII əsrə aid ermənicə mənbədə Doxs kimidir [46, 199]. XVI əsrdə Anadolunun Maraş əyalətində yaşayan Dul-Qədirli tayfasının qollarından birinin-(Doqquz, Bişanlu, Karkın, Kürd Mahmudlu Hacılar, Doqquzqoyunlu və Avçi) [34, 184] adını əks etdirir. Ehtimal ki, mənşəcə bu el qıpçaqların Toksoba (Doqquz oba) qolu [bax: 78] ilə bağlıdır. Tokuq-oquz türk tayfa birləşməsi barədə bax: 65, 371. 1500-ci ilə aid hadisələrdə Çuxursaaddan keçərək Şah İsmayılın Doqquz-Ulama gəlməsi qeyd olunur [24, 40]. Azərbaycanda Doqquz-Ul (türk dillərində ul "yüksəklik", "dağ" -147, 1, 594) dağ (Zaqatala rayonu) adı ilə səsləşir.

DOQQUZ - İrəvan quberniyasının İrəvan qəzasında (133, 88) kənd adı. Mənbədə Doxkuz kimidir. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (11, 164). 1922-ci ildə əhalinin bir hissəsi geri qayıtmışdır, lakin XX əsrin 30-cu illərində sıxışdırılıb çıxardılmışdır. 1945-ci ildə kənd ermənicə Kanaçut adlandırılmışdır. Mənşəcə qıpçaqların Tokuzoba (rus mənbəlrində Toksobiçi-A. İ. Popov, göst. əsəri, s. 129) tayfasının adını əks etdirir. Qaraqalpaqlarda Tokuz tayfası barədə bax: N. A. Baskakov. Redoplemennie nazvaniə kıpçakov v toponimii Öjnoy Moldavii. "Toponimika Vostoka", 1964, s. 50).

DOLAYLAR - Tumanyan rayonunda kənd adı. 1919-1920-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Əsli Dalaklar yaxud Dələklər. Ehtimal ki, nəsil adıdır.

DOLANAN - İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında dağ adı [133, 87]. Dağın adı onun ətrafında yolun dolanbac olması ilə əlaqədardır.

DOLQİTAR - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133, 87]. Dağın adı monqolca tolqoy "dağın başı" [126, 555] və qədim türkcə tor "yüksək dağ örüşü" sözlərindən ibarətdir. XIX əsrdə Kuban əyalətində Uruz-Tor [133, 284], Azərbaycanda Dağlıq Qarabağda Avdur (kənd adı), Tır-Yal (dağ adı) və s. toponimləri ilə mənaca eynidir.

DOLULU - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan mahalında) kənd adı [133, 87]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Dolulu dağının adındandır.

DOLULU - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında dağ adı [133]. Ehtimal ki, dağda tez-tez dolu yağması ilə əlaqədardır.

DONQUZGÖL - İrəvan xanlığının Zəngibasar mahalında qışlaq adı. XIX əsrin ortalarından sonra adı çəkilmir. "Donquzgölü olan qışlaq" mənasındadır.

DONDARVİRANI - 1590-cı ildə Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169, 258]. Qədim türk mənşəli Dondar tayfasının adını əks etdirir [bax: 79]. Bax: Dandar.

DONUZYEYƏN - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı [159]. XX əsrin əvvəllərinə aid mənbədə Donquzyeyən kimidir (133, 88). 1935-ci ildə kənd Zəngilər adlandırılmışdır. 1590-cı ildən məlumdur [169, 62]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. 1727-ci ilə aid mənbədə Donuzyeyən qışlaq adı kimi qeyd olunmuşdur. Deməli, kənd qışlaq əsasında yaranıb. Qışlaq isə "Donuzyeyən" adlı yerdə yaranmışdır. XIII aid mənbədə Anadoluda Dunquzlu əyalət adı çəkilir [144, 230].

DONUZDAMI - İrəvan quberniyasının Dərələyəz qəzasında qışlaq adı. XX əsrin əvvəllərində kənd dağılmışdır. ”Donuz olan yerdə tövlə, dam" mənasındadır.

DONUZYATAQ - Yelizavetpol quberniyasının Qazax qəzasında (indi Ermənistanın Krasnoselo rayonunda) qışlaq adı. XX əsrin 30-cu illərində kənd dağılmışdır. "Donuz olan yerdə qışlaq" mənasındadır.

DONUZPAYAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 36).

DONUZTAM - Yelizavetpol quberniyasının Qazax qəzasında (indi Ermənistanın Krasnosel rayonunda) qışlaq adı. XX əsrin 30-cu illərində kənd dağılmışdır. "Donuz olan yerdə dam" mənasındadır.

DORDNI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan rayonunda) kənd adı [133, 88]. Qaradığa kəndindən yaranmış məntəqədir (103, 156). 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər

yerləşdirilmişdir. 1949-cu ildə kənd ermənicə Antaraşat adlandırılmışdır. Qaradağı (bax) kəndindən yaranmışdır (103, 154). Xalq içərisində tələffüz forması Dornı. Əsli Dörtlü. Kolagirən tayfasının Dörtlü tirəsinin adındandır. Bax: Kolagirən. 1588-ci ildə qışı Gəncə sancağında, yayı Zəngəzurda keçirən bir el Dördnü adlanırdı [167, 268]. Mənşəcə qıpçaqların Turut tayfasının adı ilə bağlıdır.

DOSTƏLİ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 132). "Başqa adı Qızıltəpə" (yenə orada).

DOSTƏLİBƏG - İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında kənd adı (133, 88).

DOSTƏLİBƏK DİZƏ - Yenə orada dağ adı (133, 88).

DOSTLU - Noyemberyan r-nunda kənd adı. Əsli Dostulu. Ehtimal ki, Nax-çıvan qəzasında Dostu kəndindən (133, 88) çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

DÖVLƏTLƏTABAD - İrəvan xanlığının sərdarabad mahalında kənd adı (159). 1728-ci ildən məlumdur (170, 4). Digər adı Teymurxan kəndi XIX əsrin ortalarından sonra mənbələrdə çəkilmir.

DÖVRƏDAĞ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qzasında (indi Ermənistanda) dağ adı. (133). "Dəyirmi formalı dağ" mənasındadır.

DÖVRƏXARABA - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 87). Mənbədə Dovratəpə kimidir (yenə orada). XIX əsrin ortalarında kənddə ermənilər də yerləşdirilmişdir. 1886-cı ildə kəndin əhalisi azərbaycanlılar və ermənilər idi. XIX əsrin 30-cu illərində azərbaycanlılar sıxışdırılıb çıxarılmışdır (20, 76). Kənd yaxınlıqdakı "Dövrətəpə" adlı yerdə xarabalığın adı ilə adlanmışdır.

DÖVLƏTYAR - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində Tərgül kəndinin başqa adı (23, 133).

DÖNƏNİK - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 43).

DÖYÜRƏK - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı (23, 61).

DÖŞQAYA - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı (23, 111). Mənbədə kəndin Bəkir Şahin oğluna məxsus olduğu göstərilir (yenə orada).

DUDANKİ - XVIII əsrin ortalarında Göycə mahalında kənd adı [150, 361]. Fars dilində du-"iki" və dəngə "məhəllə", "oba" sözlərindən ibarətdir.

DULUS - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) kənd adı (133). 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1590-cı ilə (169, 361) və 1728-ci ilə aid mənbələrdə (170, 160) Tulus kimidir. Qədim türk mənşəli Tulus tayfasının adını əks etdirir. V.V. Radnov qədim türk tayfalarından birininTolos adlandığını yazmışdır (143, III, 1261). Altayda yaşayanTelengit tayfasının bir qolu Tolos adlanır (67, 228). Telengitlər isə XIII əsrdə monqol yürüşlərində iştirak etmişlər. (Raşid ad-dan, I, 2 s. 77). Azərbaycanda Tulus (Cəbrayıl r-nu) kənd adı ilə mənşəcə eynidir.

DUMANDƏRƏ - Amasiya r-nunda Mağaracaq kəndi ərazisində dərə adı. Qış və payız aylarında səhərlər dərənini dumanlı olması ilə bağlıdır. (6, 200).

DUMANLI - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 9]. Türk dillərində tümən sözündəndir.

DURRƏNLİ - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170, 20].

DURNAQORUĞU - 1590-cı ildə Rəvan əyalətində yaylaq adı [169, 334].

DURMUŞQIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində qışlaq adı (23, 67). "Əhalisi Şahablı camaatındandır" (yenə orada).

DÜDƏNLƏR - Spitak rayonunda kənd adı. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

DÜZKƏND - Amasiya r-nunda kənd adı. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. 1990-cı ildə kənd ermənicə Alvar adlandırılmışdır. Arpaçayın sahilində düzənlikdə yerləşdiyinə görə Düzkənd adını almışdır.

DÜZKƏND - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 131).

DÜZKƏND - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 89]. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Şiralel nahiyəsində kənd adı kimi qeyd olunmuşdur (23, 131). 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1931-ci ildən 1950-ci ilədək Düzkənd rayonu və onun mərkəzinin adı idi. 1945-ci ildə kənd Axuryan və ona uyğun rayon da Axuryan adlandırılmışdır.

DÜZKƏND - Talin rayonunda kənd adı. 1728-ci ildən məlumdur (23, 131). 1886-cı ildə ermənilər və kürdlər yerləşdirilmiş və azərbaycanlılar qovulmuşdur. 1935-ci ildə kənd ermənicə Baroj adlandırılmışdır.

DÜZ-GÖL - İrəvan quberniyası Novobayazid qəzasında Dəvəxaraba kəndinə məxsus yaylağın adı (136, 33).

DÜZXARABA - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1945-ci ildə kənd ermənicə Artaşen adlandırılmışdır. Kənd XIX əsrin ortalarında qışlaq

əsasında yaranmışdır. Qışlaq isə yaxındaki "Düz xaraba" adlı kənd xarabalağının adındandır.

DÜYÜN - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. XIX əsrin ortalarında kənddə ermənilər də yerləşmişdir. 1886-cı ildə kəndin əhalisi azərbaycanlılar və ermənilərdən ibarət idi. XIX əsrin sonlarından sonra kəndin adı çəkilmir. 1728-ci ilə aid mənbədə Dögün-rək kimidir [170, 16].

DÜKAN - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 92]. Ehtimal ki, türkcə Tuğan şəxs adından təhrifdir.

EVLİ - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. Aşıq Novruz, Molla Əyyub və həm də Xarrat adlanmışdır. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Əsli İvəli. Yuvalı forması da vardır [bax: Yuva]. Səlcuq oğuzlarının İvə (Yivə) tayfasının [34] adını əks etdirir. 1588-ci ilə aid mənbədə Gəncə sancağında "Təmir-həsən aranı" qışlaq yerində qışlayan bir oymaq Yuvəli-Fəxrəli adlanırdı [167, 219].

EVİŞ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 52]. "Yeni Talış kimi də adlanmışdır (23, 90). Əsli İbiş.

EVÇİLƏR - İrəvan xanlığının Sürməli mahalında kəndin adı (133, 300). XIX əsrin 70-ci illərində əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ildə kəndin əhalisi erməni idi. 1947-ci ildə kənd ermənicə Arzakan adlandırılmışdır. Orta əsrlərdə Anadoluda yaşamış Dul-Qədirli tayfasının Avcı qolunun [36, 184] adını əks etdirir. 1728-ci ilə aid mənbədə kəndin adı Avçi kimidir [170, 18].

Qeyd edilməlidir ki, 1588-ci ilə aid mənbədə Qarabağın Vərəndə mahalında yaşayan bir el də Avçilu adlanırdı [169]. Bu elin adı indi Azərbaycanda bir neçə Ovçulu kəndinin

(Ağdaş və Şamaxı rayonları) adında qalmışdır. XIX əsrin II yarısında Cavad qəzasında 52 ailədən ibarət Ovçala eli yaşayırdı.

EVÇİLƏR - İrəvan xanlığının Sərdərabad mahalında kənd adı [159]. XX əsrin əvvəllərinə aid mənbədə İrəvan qəzasında çəkilir (133, 300). XIX əsrin 70-ci illərində əhalisi qovulmuş və burada ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi ermənilər idi. 1949-cu ildə kənd ermənicə Arazan adlandırılmışdır.

EVÇİLƏR - İrəvan quberniyasının İrəvan qəzasında xaraba kənd adı [133, 300].

EQVARD - İrəvan xanlığının Karbibasar mahalında kənd adı [159]. XIX əsrin əvvəllərinə aid mənbədə İrəvan qəzasında Eqvart kimidir (133, 91). 1590-cı ilə aid mənbədə Yeqvard kimidir (159, 55). 1728-ci ilə aid mənbədə isə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində Yeqavertdir (23, 36). 1711-ci ildə Eçmiadzin kilsəsinə məxsus kəndlərdən idi [150, 29]. XVIII əsrin ortalarında İrəvan xanının vəkili Murad bəyə məxsus kənd olması qeyd olunmuşdur [150, 193]. 1886-cı ilə aid mənbədə əhalisi ermənilərdən ibarət kənd kimi göstərilir. 1728-ci ilə aid mənbədə Sürməli mahalında Aqavard [170, 18], XIX əsrdə Qars əyalətinin Oltin Dairəsində Zuvart (133, 99), Qars dairəsində Abulvart (133, 2), Azərbaycanda Salvartı (dağ adı) toponimləri ilə sıra təşkil edir.

EYVANİ QIŞLAĞI - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 211].

EYİK KİLSƏ - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək kəndində kənd adı (23, 46).

EYMUR BULAĞI - 1590-cı ildə Rəvan əyalətində yaylaq adı [169, 93]. Səlcuq oğuzlarının Eymur tayfasının [bax: 34] adını əks etdirir.

ELBƏYLİ QIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (123, 122).

EYLƏQUT - 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı (23, 150).

ELVAR - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 4]. Əli şəxs adından və farsca var "möhkəmləndirilmiş yer" sözündəndir.

ELİMCAN - İrəvan xanlığının Saatlı mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra kəndin adı mənbələrdə çəkilmir.

ELİN - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı (170, 20).

ELİNCƏ - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170, 20]. Bax: Yelincə.

ELİCƏ - İrəvan quberniyası Novobayazid qəzasında kənd adı (136, 34). Bax: Yelicə.

ELLƏR - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 300). Mənbədə Eylər kimidir (yenə orada). 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində Hellar kimi məlumdur (23, 82). "Şabah kəndinin yaxınlığında yerləşir" (yenə orada). 1930-cu ildən 1961-ci ilədək Kotayk rayonunun, 1961-ci ildən Abovyan rayonunun mərkəzidir. 1961-ci ildə kəndin adı ermənicə Abovyan adlandırılmışdır. 1948-1951-ci illərdə əhalisinin bir hissəsi Azərbaycana köçürülmüş və kənddə ermənilər yerləşdirilmişdir. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Əsli: Elər. 1590-cı ilə aid mənbədə İlar [169, 56], XVII əsrin əvvəllərinə aid ermənicə mənbədə isə Elar kimidir [150, 362]. Hələ er. əv. VIII əsrə aid Urartu mənbəsində (122, 424) Elar kimi qeyd olunduğuna görə Ermənistan ərazisində ən qədim türk mənşəli toponimlərdəndir [Bu barədə bax: 14] .

ELLƏR OYUĞU - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı [159]. 1989-cu ildə əhalisi Azərbaycana köçürülmüşdür. Ellər kəndinin adından və sərhəd mənası bildirən oyuq sözündən ibarətdir (6, 169). XIX əsrdə Qars əyalətində Elləroyuğu, kənd,

Tiflis quberniyasının Siqnax qəzasında Ellər oyuğu dağ (133, 301) adları ilə mənşəcə eynidir.

ELLİCƏ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır [159].

EMİNCƏ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 301]. XIX əsrin sonlarından sonra adı mənbələrdə çəkilmir. Ehtimal ki, Emin şəxs adındandır.

EMİRKƏND - 1728-ci ildə İrəvan əyalətinin Kökcə nahiyəsində kənd adı [170, 12]. Səlcuq oğuzlarının Eymur tayfasının adını əks etdirir.

ENGURİ - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 13]. Türk dillərində in "dərə", "mağara" [126, 234] və qura "tövlə" sözlərindəndir.

ERANİS SUFLA - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən əhalisi qovulmuş və kənd dağıdılmışdır (yenə orada). Qədim türk mənşəli Aran tayfasının adını əks etdirir.

ERANİS ULYA - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır [159]. Qədim türk mənşəli Aran tayfasının adını əks etdirir.

ERANOS - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 92]. 1728-ci ilə aid mənbədə Qarni nahiyəsində kənd adı kimi göstərilmişdir (23, 102). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağıdılmışdır. Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış qədim türk mənşəli Aran tayfasının (bu barədə bax: Qeybullayev Q.Ə.Qarabaq. Bakı, 1991) adını əks etdirir. Kəndin adı Aran tayfasının adından və yunan mənşəli "os" şəkilçisindən ibarətdir. Azərbaycanın qədim tarixində üç mənada "Aran" sözü iştirak edir. 1. Eranın ilk

əsrlərindən başlayaraq türk mənşəli Aran tayfasının adı. 2. Eranın əsrinin 60-cı illərində Alban çarı Aran (yaxud Ərən-"döyüşçü", "igid" və s.). 3. Aran "qışlaq", "isti yer", (bu tayfa barədə ətraflı məlumat üçün bax: 14; 79). XII əsrdə Albaniyada Aranrot, Mets-Arank, Arandjnak, XII əsrdə Dağlıq Qarabağda Aran, Yazı-Aran, Daş Aran, XIX əsrdə Gürcüstanda Aranisi, Ermənistanda Hran (Eran adının təhrifi) toponimlərlə mənşəcə eynidir

ERANOS - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133, 302]. Qədim türk mənşəli Aran tayfasının adındandır. XVII əsrə aid ermənicə mənbədə Gorus mahalında Arans adlı toponim çəkilir [46, 264].

ERANOS - İrəvan xanlığının Karbibasar mahalında (159), sonra XIX əsrdə İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 301). XIX əsrin sonlarından sonra kəndin adı mənbələrdə çəkilmir. 1728-ci ilə aid mənbədə Ernos kimidir [170, 82]. Lakin həmin vaxta aid ermənicə mənbədə Eranos yazılmışdır [150, 117]. Qədim türk mənşəli Aran tayfasının adındandır. (Bax: 79).

ERANOS ULYA - İrəvan xanlığının Karbi-basar mahalında (159), sonra İrəvan quberniyasının İrəvan qəzasında (133, 301) kənd adı. XIX əsrin sonlarından sonra mənbələrdə çəkilmir. XVII əsrə aid ermənicə mənbədə Hrans kimidir (150, 360). Qədim türk mənşəli Aran tayfasının adından və yunan mənşəli "os" şəkilçisindən ibarətdir.

ERVİLAS - 1728-ci ildə İrəvan əyalətinin Dərələr nahiyəsində kənd adı [170, 12]. Mənbənin başqa yerində Ərdalas kimi oxunur (23, 58) ki, bu da ərəb qrafikası ilə yazılmış mənbədə "dal" və "vav" işarələrinin oxşarlığı ilə əlaqədardır.

YERİCƏ - UD -İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında kənd adı (133, 302).

ERKUŞ - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 16]. Azərbaycan dilində yer və koş "köçəbə" (Bax: Koşkutan) sözlərindəndir.

ERGÜL - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 15].

ERSİNC - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (170, 15)

ERMƏNİ PƏMBƏYİ - Ələyəz r-nunda kənd adı. 1878-ci ildə Pəmb adlanan kəndin Azərbaycanlı əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Ona görə ondan sonra kənd Erməni Pəmbəyi adlandırıl-mışdır. Ermənicə adı Pambak. Bax: Bəmbək.

ETİL - XVIII əsrin ortalarında Göyçə mahalında kənd adı [150, 360]. Qıpçaqların Et tayfasının adından (bax: İtqıran] və türk dillərində el, il "tayfa", "el" sözündən ibarətdir. XIX əsrdə Qars əyalətinin Kazıqman dairəsində Edillu (133, 300), Azərbaycanda Edilli (Dağlıq Qarabağda) kənd adı ilə mənşəcə eynidir.

ECANAN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) orta əsrlərdə mahal adı [150]. Sonra bu mahal Balk kəndinin adı ilə Balk adlanmışdır. Mahal Ecanan (Oxdar) çayı boyunca yerləşən kəndlərin ümumi adı idi.

ECANAN ÇAYI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) çay adı. Xələc çayı və Oxdar çayı da adlanır. Bərgüşad dağlarından başlayır və Baydal kəndi yaxınlığında Oxçu çayı ilə birləşir. Uz. 29 km. (20, 143). XX əsrin əvvəllərinə aid mənbədə Qecanan kimidir (133, 58).

EŞNƏK - İrəvan quberniyasının Ermiadzin qəzasında kənd adı (133, 303). 1728-ci ildən məlumdur (170, 45). 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Eşnək dağının adındandır. Bax: Eşnək dağ adı.

EŞNƏK - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133, 303]. Digər adı Qaraburun (yenə orada). Türk dillərində asna "alınmaz qayalı dağ" [126, 58] sözündəndir. Bax: Aşnak.

EŞNƏK SİNOR - İrəvan quberinyasının Eçmiadzin qəzasında dağ adı (133). Eşnək və Sinor (bax: Sinordağ) sözlərindən ibarətdir.

EŞŞƏKQUDURAN - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159] 1728-ci liə aid mənbədə İrəvan əyaltinin Abaran mahalında qeyd olunmuşdur (170, 194). 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır (yenə orada). XVII əsrə aid mənbəyə görə oradaki Keçaris monastırına (995-ci ildə tikilmişdir) mənsub kənd idi [150, 360]. Eşşəkquduran dağının adındandır. Bax: Əşşək quduran.

EŞŞƏKQUDURAN - İrəvan əyalətində Pəmbək dağ silsiləsinin zirvələrindən birinin adı.Buryat-monqol dillərində oşiq "külək tərfindən çox aşınmış dağ süxuru" (126, 433) və türk dillərində kudur "dalğavari dağ silsiləsi" sözlərindən ibarət adın təhrif formasıdır. XIX əsrdə Şimali Qafqazda Dağıstan əyalətinin Teymurxanşura dairəsində Eşək-alqan-tübə (təpə adı) və Eşak-tau, Qars əyalətinin Oltin dairəsində Eşəkmeydan, Cavad qəzasında Eşəktəpə, Zəngəzur qəzasında Eşakmeydan, Tiflis quberniyasında Eşaktəpə (133, 93 və 303) toponimləri ilə mənaca eynidir.

EŞŞƏKMEYDAN - İrəvan əyalətində Pəmbək dağ silsiləsinin zirvələrindən birinin adı [159].

ƏBDİOĞLU - 1590-cı ildə Rəvan əyalətinin Şərabxana nahiyəsində kənd adı [169, 241].

ƏBDÜLƏLİLƏR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) qışlaq adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra qışlaq dağılmışdır.

ƏBDÜL MUSA - 1590-cı ildə Rəvan əyalətinin Qarni nahiyəsində kənd adı (169, 208).

ƏBDÜL HACI - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində Buzavənd kəndinin başqa adı (23, 49).

ƏBDÜRRƏHMAN - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133,1]. XIX əsrin yarısında kənddə Azərbaycanlılar və kürdlər yaşayırdı. 1918-ci ildə kəndin azərbaycanlılardan ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1945-ci ildə kənd ermənicə Avrahman adlandırılmışdır. Bax: Abdurrəhman.

ƏBD CAHALLI ATLICA - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [23, 64].

ƏBİLKƏND - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı [159]. 1918-ci ildə əhalisi qovulmuşdur. 1922-ci ildə əhali qayıdaraq yenidən məskunlaşmışdır. 1948-1951-ci illərdə əhali Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir. Həbibkəndi də adlanmışdır. Əbil (Həbil) şəxs adından və kənd sözündən ibarətdir.

ƏBUDƏRDƏ - 1590-cı ildə Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [169, 270].

ƏBU ŞEYX - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 191].

ƏBU ÇİXAN - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [170, 17].

ƏBÜL GÜNEY - Ermənistanın Sisyan r-nunda dağ zirvəsinin adı (60, 61). Ermənicə Arevabul (ermənicə arev “yamac”, “güney” və Əbul şəxs adından) adlanır.

ƏVƏZQIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd [170, 17].

ƏQDİS - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı (23, 63).

ƏDƏVAZ - 1590-cı ildə Rəvan əyalətində Ələyəz dağında yaylaq adı. "Alpout camaatı yaylayır" [169, 94]. Türk dillərində ada (bax: Adatəpə) və bayz (sıldırım) (bax: Boz Abdal) sözlərindəndir.

ƏDİS - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 77]. Türk dillərində "atız" sözündəndir.

ƏZDƏK - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [70, 14].

ƏZƏBANQUL - 1590-cı ildə Rəvan əyalətinin Talin mahalında kənd adı [169, 249].

ƏZİZKƏND - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1949-cu ildə əhali Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir.

ƏZİZLİ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. Kəndin əsasını qoymuş nəsil adıdır.

ƏZİZPƏYƏSİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı [133, 8]. XIX əsrdə Zəngəzur bölgəsində yaşamış Qara Bayramlı tayfasının qışlaqlarından (Əzizpəyəsi, Daşlı, Zor Keşiş, İsgəndərpəyəsi, Qovuşuq və Aşağı Uluxan) birinin adıdır (103, 156). Əziz şəxs adından və pəyə-(qışda mal-qaranın saxlandığı tövlə) sözündən ibarətdir. Əziz qışlaqda yaşayan obanın başçısı olmuşdur.

ƏYAR - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı (bax: 159). XIX əsrin sonlarına aid mənbədə Ayar (133, 26), 1727-ci ilə aid mənbədə Əyər kimidir [32, 267].

Mənbədə kənddə cəmi 3 azərbaycanlı ailəsinin yaşadığı qeyd olunmuşdur (yenə orada). 1829-cu ildə kənddə ermənilər də yerləşmişdir [159]. 1918-ci ildə azərbaycanlı əhali qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Aqarakadzor adlandırılmışdır. Yerli tələffüz forması Ayar. Ehtimal ki, Ayar (Əyyar) şəxs (mülkədar) adındandır. Bax: Ayarlı.

ƏYƏNZİR - İrəvan quberniyasının Dərələyəz qəzasında kənd adı [133]. 1727-ci ilə aid mənbədə Aynazor kimidir (32, 274). Mənbəyə görə kəndin əhalisi 22 erməni ailəsindən ibarət idi. 1918-ci ildə kənddə xaricdəngəlmə ermənilər də yerləşmişlər. 1946-cı ildə kənd ermənicə Aqavnadzor adlandırılmışdır. Bax: Eynəzir.

ƏYLƏNLİ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 8). Mənbədə Aylanlı kimidir (yenə orada) 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində Əgənli kənd adı [23, 92]. "Kəndin başqa adı Yasaqlıdır" (yenə orada). Mənbədə Əglənli kimidir. Digər adı Axsaqlı-Əglənli idi (170, 58). "Axsaq (kəndi) yaxınlığında Əglənli "mənasındadır. XX əsrin əvvəllərinə aid mənbədə Aylanlı-Yasaqlı kimidir (133, 8). 1828-1832-ci illərdə kənd dağılmışdır (159). XIX əsrin 80-cı illərində Yuxarı Əylənli Əbdürrəhmanlı və Aşağı Əylənli Yasaqlı kəndləri vardı. Kəndin əsasını qoymuş tayfa adıdır. 1593-cü ilə aid mənbədə Gəncə və Bərdə nahiyələrində Əglənlu elinin yaşadığı qeyd olunur (167, 206).

ƏYNƏZİR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Meğri rayonunda) kənd adı [133, 301]. Mənbədə həm də Arnazir kimidir (133, 93). XX əsrin 30-cu illərində kənd fərmanla ləğv edilmiş, azərbaycanlı əhali qonşu kəndlərə (ən çoxu Nüvədi kəndinə) köçürülmüşdür. Qaraqoyunların qollarından (Bayramlu, Ayinlu, Əynəzir, Hacılu və Duxanlu) Əynəzir (bax: 34) tayfasının məskunlaşması nəticəsində yaranmışdır.

ƏYLƏGÜD - 1727-ci ildə Naxçıvan sancağının Sisyan nahiyəsində kənd adı (32, 249). Mənbədə kənddə 6 xristian ailənin yaşadığı qeyd olunur (yenə orada). Naməlum "əylə" və türkcə qut "qışlaqda düşərgə", "qutan" sözlərindən ibarətdir.

ƏYRƏK - 1728-ci ildə İrəvan əyalətinin Sürməli qəzasında kənd adı (23, 63).

ƏYRİDƏRƏ - 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində yaylaq adı [169, 334]. Yaylağın adı oradakı "Əyridərə"nin adındandır.

ƏYRİBULAQ - İrəvan xanlığının Abaran mahalında kənd adı. 1828-1829-cu illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. Kənd oradakı "Əyribulağ"ın adı ilə adlanmışdır.

ƏYRİBULAĞ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 129). "Kəndin başqa adı Quzeykənddir" (yenə orada).

ƏYRİBUCAQ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 129). "Kəndin başqa adı Quzeykənddir" (yenə orada).

ƏYRİVƏNG - İrəvan xanlığının Göycə mahalında [159]. XIX əsrdə İrəvan quberniyasının Novobayazid qəzasında (136, 32) kənd adı. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Kənd oradakı "Əyrivəng" monastırının adındandır. Ermənicə ayr "mağara" və vəng "kilsə" sözlərindəndir. Vəngin digər adı Qeqard (ermənicə "tir", ":cida", "mizraq" deməkdir). XVII əsrə aid ermənicə bir mənbədə digər Əyrivəng (Ayrvanq) Qarni yaxınlığında idi [150, 349].

ƏYRİLİ - 1727-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [32, 278].

ƏYRIDAĞ - Dilican kurortundan şimal-qərbdə dağın adı. XX əsrin 30-cu illərində Ayrisar adlandırılmışdır. Azərbaycan dilində əyri (dağın başının əyriliyini əks etdirir) və dağ sözlərindən ibarətdir.

ƏYRİCƏ -1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [23, 62]. Əsli Ayrıca. Bax: Ayrıca.

ƏYRİCƏBİÇƏNƏK - İrəvan quberniyası Novobayazid qəzasında Toxluca kəndinə məxsus qışlaqlarından birinin adı (136, 34).

ƏYRİMƏZRƏ - 1590-cı ildə Rəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [169, 362]. Əsli Əkərə-Məzrə. Bax: Əkərək.

ƏYRİ ÇİVAN - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı (23, 48).

ƏKƏRƏK - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 9]. 1918-ci ilin əvvəllərində əhalisi qovulduqdan sonra Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. XIX əsrdə Cənubi Qafqazda, İranda və Türkiyədə çoxlu miqdarda Aqara, Akarak (bəzi hallarda ermənicə əvvəlinə "h" səsinin əlavəsilə - Hakara), Əkərək toponimi vardı. Mənşəcə Altay-türk mənşəli Şumer dilinə mənsub olan akar (Azərbaycan dilində "əkin", "əkmək" sözlərinin kökü olan "ək" sözü ilə eynidir) "əkilən sahə", "əkin yeri" və bunun əsasında "malikanə" (feodalizm dövründə mülkədarların kənd təsərrüfatı malikanələri) sözündəndir. Qədim yunan və latın dillərinə keçmiş bu söz yunanca aqros-"tarla", latınca "aqer"-əkin sahəsi" və bu dillərdən rus dilinə keçmiş akr"-torpaq sahəsi" və nəhayət, "aqronomiya" ifadələrində əksini tapmışdır. Əkərə, Əkərək, Akarak adlı kəndlər məhz qədimdə quldarlara, sonra feodallara, yəni mülkədarlara (o sıradan hökmdarlara) məxsus əkin sahələri (məzrələr) əsasında yaranmışdır. Odur ki, hələ e.ə. I minillikdə indiki Ermənistan ərazisində yaşamış türk mənşəli etnoslara keçmiş bu söz kənd

adlarında əksini tapmışdır. Albaniya ərazisində erkən orta əsrlərdə Kolt-Əkərək (yəni "Kolt kəndi yaxınlığında Əkərək kəndi") kəndinin adı Musa Kalankatlının "Alban tarixi" əsərində çəkilir ("Alban tarixi", II kitab, 14-cü fəsil). Aqara formasında bir neçə kənd adı 1214-cü ilə aid mənbədə Gürcüstanda da məlumdur (Qruzinskie dokumentı IX-XV vv. Perevod i kommentarii S.S. Kakabadze. M. 1982, s. 68).

ƏKƏRƏK - Əştərək rayonunda kənd adı (133, 9). 1918-ci ildə əhalisi qovulduqdan sonra Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir.

ƏKƏRƏK - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

ƏKƏRƏK - İrəvan quberniyasının Eçmiadzin qəzasında (sonra Talin r-nunda) kənd adı (133, 9). Digər adı Xaraba Əkərək. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

ƏKƏRƏK - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 9]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

ƏKƏRƏK - İrəvan quberniyasının Sürməli qəzasında çay adı (133, 9). Oradakı Əkərək kəndinin adındandır.

ƏKƏRƏK TALIŞ - Talin rayonunda kənd adı. "Talış (XVI əsrdə Qızılbaş tayfalarından biri olmuş Talış tayfasının adını əks etdirir) kəndi yaxınlığındakı Əkərək (kəndi)" mənasındadır.

ƏKƏRƏLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) kənd adı [133]. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir.

ƏKƏRİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı. XX əsrin əvvəllərində kənd dağılmışdır.

ƏKİZLƏR - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133, 301]. Qoşa ikizirvəli dağ mənasındadır. Lakin dağın keçmişdə yaylaq yeri olmasına görə, onun adının Türk dillərində eqiz, ekiz, "hündür yer", "yüksək dağ örüşü" [126, 197] sözündən ibarət olması da ehtimal edilə bilər. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Əkizlər dağ adı (133, 301) ilə mənaca eynidir.

ƏKİCƏ - Elizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında kənd adı (133, 300).

ƏKİCƏLƏR - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 301]. XIX əsrdə Qazax qəzasında İkicələr dağ adı (133, 101) ilə eynidir. Bəlkə də qədim türk dillərində aqinçi "hücumçu əsgər", "xüsusi hazırlıq keçmiş atlı dəstəsi" [147, 123] sözünün ("Kitab Dədə Qorqud"da: "Ağınçılar kafirin elin-günün urub, qızın, gəlinin əsir etdilər") təhrifidir.

ƏLƏYƏZ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Meğri rayonunda) kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Əsli: Bax: Alagöz.

ƏLƏKLİ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 3]. XX əsrin əvvəllərinə aid mənbədə Şərur-Dərələyəz qəzasında Alaklu kimidir (133, 11).1828-ci ildən sonra Urmiyaətrafı ərazidən gəlmiş xristian aysorların (kəldanilərin, yaxud nəsranilərin) məskunlaşdığı kənddir.

ƏLƏKLİ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 121). XIX əsrdə Dağıstan əyalətinin Andi dairəsində Alak kənd və Alak dağ adları ilə (133, 11) mənaca eynidir.

ƏLƏKÇİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) kənd adı [133]. Zəngəzur qəzasında yaşamış kürd mənşəli Qasımuşağı (başqa adı Kürd Hacı) tayfasının qışlaqlarından (Ərikli, Ələkçi və Şam) birinin adıdır (103, 158). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

ƏLƏTLİ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 12). Mənbədə Aletlu kimidir (yenə orada). XIX əsrin 70-ci illərində kəndin əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumat görə kəndin əhalisi ermənilər idi. XVIII əsrin əvvəllərindən məlumdur [150, 117]. XIII əsrdə monqolların tərkibində gəlmiş türk mənşəli Oyrat tayfasının Olet qolunun [77, 86] adını əks etdirir. Azərbaycanda Ələt (Qaradağ rayonu), Ələtli (Sabirabad rayonu), Gürcüstanda XIX əsrdə Siqnax qəzasında Alet-Kari (133, 12).Türkmənistanda Alat (S. Ataniyazov, göst. lüğəti, s. 35), Dağıstanda Ələtlər [133, 117], XVIII əsrdə Türkiyənin şərqində Aletlu [150, 117] kənd adları ilə mənşəcə eynidir (Volqa boyunda Ələt tayfası barədə bax: Alişev S.X.Tatarı Srednoqo Povoljğə v Puqaçovskom vosstanii. Kazanğ, 1972, s. 201).

ƏLİABAD - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuşdur [159]. Sonra əhalinin bir hissəsi geri qayıdaraq yenidən məskunlaşmışdır. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Əli şəxs adından və abad "kənd" sözlərindən ibarətdir.

ƏLİBABAT - XVIII əsrin ortalarında İrəvan əyalətində kənd adı [150, 198].

ƏLİBƏYAYAĞI - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133].

ƏLİBƏYLİ - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [170, 7].

ƏLİBƏYLİ - İrəvan xanlığının Karbibasar mahalında kənd adı [159]. XX əsrin əvvəllərinə aid mənbədə Eçmiadzin qəzasında Alibeklu kimidir (133, 12).1590-cı ildən məlumdur [169, 93]. XIX əsrin 70-ci illərində kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid mənbəyə görə kəndin əhalisi ermənilər idi. 1946-cı ildə kənd ermənicə Atabekyan adlandırılmışdır. Ermənicə mənbədə 1441-ci ildən məlumdur [150, 172]. Eçmiadzin kilsəsinə məxsus kəndlərdən olmuşdur. XIII-XIV əsrdlərdə Anadolunun Maraş bölgəsində yaşamış Ulu Yörük tayfa birləşməsinin Əlibəyli qolunun [34, 186] adındandır.

ƏLIBƏK - İrəvan quberniyasının Novobayazid qəzasında (133, 12), Pəmbək dağ belinin ortasından cənub-şərqə budaqlanan dağ zirvəsinin adı (60, 107). XX əsrin 30-cu illərində ermənicə Texenis adlandırılmışdır.

ƏLİ BİSTAM - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 65].

ƏLİVƏLİ - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kəndin adı [170, 19]. Əli Vəli (oğlu) adındandır.

ƏLİVERDİ XARABA - İrəvan xanlığının Dərəkənd Parçenis mahalında kənd adı [133]. XIX əsrin ortalarından sonra mənbələrdə çəkilmir. "Xaraba adlı yer yaxınlığında Əliverdi kəndi" mənasındadır. Əliverdi şəxs (mülkədar) adındandır.

ƏLİQAYA - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 128). "Başqa adı Sərdanəsə" (yenə orada). Bax: Sərdanəsə kəndi. Əsli "El-Kayı (Qayı); yəni "Kayı (Qadı eli").

ƏLİQARA - 1590-cı ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 225]. Əsli: "El Qara (lar)", yəni "Qaralar eli (tayfası)".

ƏLİ QƏMƏRLİ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 12). 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [23, 70]. Əsli Eli-Qəmərli, yəni "Qəmərli eli". Bax: Əli Kəmərli.

ƏLİQIZIL - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1590-cı ildən məlumdur [169, 299]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid mənbəyə görə kəndin əhalisi erməni idi. Əsli "El-Qızıllı", yəni "Qızıllı eli". Kəngərlərin Qızıllı tayfasının məskunlaşması nəticəsində yaranmışdır. Bax: Gənkərli.

ƏLİQIZIL - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində məzrə adı [23, 71]. Əsli Eli-Qızıl, yəni "Qızıllı eli".

ƏLİQIRIQ - İrəvan xanlığının Vedibasar mahalında (indi Martuni rayonu) kənd adı [159]. Mənbədə Novobayazid və Eçmiadzin qəzalarında Alikrıx kimidir (133, 12).1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır (11, 164). 1590-cı ildən məlumdur [169, 208]. 1935-ci ildə kənd ermənicə Astxadzor adlandırılmışdır. 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüşdür. Əsli: "El-Qırıq", yəni "Qırıq eli (tayfası)". Qədim türk tayfalarından biri Krık idi (T.İ. Sultanov. Opıt analiza tradiüionnıx spiskov 9 plemen "İlatiya". Sb. Srednəə Aziə v drevnosti Srednekove. M. 1977, s. 116). Orta Asiyada qaraqalpaqların içərisində bir tayfa Kırk adlanır (Jdanko. T.A. Oçerk istoriçeskoy gtnoqrafii karakalpakov. M. 1950, s. 165). Orta əsrlərdə Əfşarların bir qolu Qırıqlı adlanırdı. İ.P. Petruşevskiyə görə, Qızılbaşların Zülqədər tayfasının bir qolu da Qırxlı idi (138, 94). Azərbaycandakı Qırıqlı (Tərtər və Xanlar rayonlarında) kənd adları ilə mənşəcə eynidir.

ƏLİQIRIQ - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 102]. Əsli El-i Qırıq, yəni “Qırıq eli”.

ƏLİQIRIQ - İrəvan xanlığının Vedibasar mahalında (indi Ararat rayonu) kənd adı [159]. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd dağılmışdır. Ermənilər yerləşdirildikdən sonra kənd Blraşen adlandırılmışdır (60, 64).Əsli "Eli-Qırıq", yəni "Qırıq-eli" (tayfası)".

ƏLIQIRIQ - Martuni r-nunda cənub tərəfdən Göycə gölünə tökülən çayın adı (60, 67).

ƏLİQIŞLAQ - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı. XIX əsrin ortalarından sonra adı çəkilmir. "Əliyə məxsus qışlaq" mənasındadır.

ƏLİQIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 123].

ƏLİQIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində digər bir kənd adı [23, 121].

ƏLİQULU - 1718-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 135]. Mənbədə kəndin həm də Qalqalı qışlaq adlandığı qeyd olunur [yenə orada]. Əliqulu şəxs adındandır. Bax: Qalqalı.

ƏLİQULU - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 40].

ƏLİQULUKƏND - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) kənd adı [133, 12]. 1918-ci ildə əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. Kənd ermənicə Azadşen adlandırılmışdır.

ƏLİQULU UŞAĞI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) kənd adı [133, 12]. "Əliqulu nəsli (övladı)" mənasındadır.

ƏLİDƏRƏ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Meğri rayonunda) kənd adı [133, 12]. Digər adı Əlidamı. 1918-ci ildə əhalisi qovulmuş, lakin 1926-cı ildə qayıtmışdır. 1988-ci ildə kəndin əhalisi yenidən Azərbaycana qovulmuşdur [20, 172]. Kənd "Əli dərədə" yarandığına görə həmin dərənin adını

qəbul etmişdir. Həmin dərədə yerləşən və Əlidərə adlanan göl isə XX əsrin 30-cu illərində Alidzor adlandırılmışdır (60, 64).

ƏLİDƏRƏSİ - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1918-1920-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Kənd "Əli dərəsi"ndə yarandığına görə həmin dərənin adını qəbul etmişdir.

ƏLİYAR KÜS - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 93]. Əliyar şəxs adından və küz -"qoyun üçün payız otlağı" sözündən ibarətdir.

ƏLİKƏND - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. Alıkənd də adlanmışdır. 1728-ci ilə aidə mənbədə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı kimi qeyd olunmuşdur [23, 94]. 1915-1916-cı illərdə əhalisi qovulmuş, kənd dağılmışdır (6, 170) Əli şəxs adındandır.

ƏLİKƏND QIŞLAĞI - İrəvan xanlığının mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra mənbələrdə adı çəkilmir. "Əlikəndə məxsus qışlaq" mənasındadır.

ƏLİKƏMƏRLİ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 12]. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir. 1728-ci ilə aid mənbədə Əli-Kamerlu kimidir [170, 20]. Əsli: "El-Kəmərli", yəni "Kəmərli eli". Er. əv. VIII əsrdə şimaldan cənubi Qafqaza gəlmiş qədim türk mənşəli Kəmər, yaxud Qəmər (antik mənbələrdə kimmer) tayfasının [bax: 14] adını əks etdirir. (Bax: Əli Qəmərli)

ƏLİKUÇƏK - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 12]. Mənbədə Əli-Koçak kimidir (yenə orada)1918-ci ilin əvvəllərində əhalisi qovulduqdan sonra kənd dağılmışdır. XVII əsrdən məlumdur [150, 305]. XIX əsrin sonlarına aid mənbədə "Əli Qoçak" kimidir. Əsli: "El-i-köçək", yəni "Köçək eli". Orta əsrlərdə

Anadoluda yaşamış Boz Ulu tayfa birləşməsinin Köçəkli qolunun [34, 198] adını əks etdirir.

ƏLİKUÇƏK - İrəvan quberniyasının İrəvan qəzasında (indi Abaran rayonunda) kənd adı [133, 12]. 1590-cı ilə aid mənbədə Əli Kiçək kimidir [169, 236]. 1728-ci ilə aid mənbədə Abaran nahiyəsində qeyd olunur (23, 110). 1935-ci ildə Kuçək adlandırılmışdır. Bax: Əli Kuçək (Sürməli qəzası).

ƏLİKOSA - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [170, 17]. Əsli El-i- Kosa, yəni "Kosa eli".

ƏLİLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı [133, 12]. 1590-cı ildən məlumdur [169, 360]. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Sisyan nahiyəsində qeyd olunmuşdur [23, 150]. Həmin mənbədə deyilir ki, kənddə 3 müsəlman kişi və 1 subay oğlan yaşayır (32, 230). 1918-ci ildə azərbaycanlı əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1922-ci ildə az hissəsi geri qayıdaraq yenidən məskunlaşmışdır. Bundan sonra kəndin əhalisi qarışıq olmuşdur. 1935-ci ildə kənd Salvard adlandırılmışdır. Ehtimal ki, Əlili kəndin əsasını qoymuş nəsil adıdır.

ƏLİMANIX - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Əsli: "Eli Manıx", yəni "Manıx eli".

ƏLİMƏMMƏD - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. Tam adı Əliməmməd qışlağı. 1949-cu ildə kəndin əhalisi Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. Əli Məmməd (oğlu) şəxs adındandır.

ƏLİMİRAN SUFLA - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı (170, 12). Əli Miran şəxs adındandır. Ərəbcə sufla "aşağı" mənasındadır.

ƏLİMƏRDAN - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə kəndə xaricdən gəlmə ermənilər də yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Karadzor adlandırılmışdır. 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir. Əsli "El Mərdin", yəni "Mərdin eli". Anadolunun "Kitabi Dədə Qorqud" eposunda çəkilən Mərdin qalasından [144, 216] gələnlər tərəfindən yaradılmışdır.

ƏLİNCƏ - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [23, 70]. Əsli Eli -İncə, yəni "İncə eli,  tayfası". Qıpçaqların Əncə tayfasının adını əks etdirir. Naxçıvan MR-da Əlincə (Culfa r-nu) qalasının adı ilə əlaqəsi yoxdur. Əncə tayfası barədə bax: s. 77.

ƏLİNCƏ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 125]. "Kəndin başqa adı Qatarkənddir" (yenə orada). Əsli El-i Əncə, yəni "Əncə eli  (tayfası)"

ƏLİNCƏ - 1590-cı ildə Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [109, 269]. Əsli El-i Əncə, yəni "Əncə eli (tayfası)".

ƏLİRZALI - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 204].

ƏLİSƏRGİ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra mənbələrdə bu kəndin adı çəkilmir. Əli şəxs adından və türkcə soruq "şoran" [126, 517] sözündəndir.

ƏLİXAN - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 13).

ƏLİXAN - Amasiya (indi Qukasyan) r-nunda kənd adı. XX əsrin 30-cu illərində kənd ermənicə Qetik adlandırılmışdır (60, 73).

ƏLİXANLI - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 13).

ƏLİXAN PƏYƏSİ - Şərur-Dərələyəz qəzasında kənd adı (133, 13).

ƏLİXAN HACILI - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [170, 19].

ƏLİCAN - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 12]. 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [23, 63]. "Kəndin başqa adı Xəlifə kənddir" (yenə orada). XIX əsrin 70-ci illərində əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid mənbəyə görə kəndin əhalisi ermənilər idi.

ƏLİŞALI - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. XX əsrin sonlarından sonra bu kənd barədə mənbələrdə məlumat yoxdur. Əli nəsili mənasındadır.

ƏLİŞAR - Yelizavetpol (Gəncəç) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı [133]. 1918-ci ildə əhalisi qovulmuşdur. 1922-ci ildə bir hissəsi geri qayıdıb yenidən məskunlaşmışdır. XIX əsrin 30-cu illərində kənd ləğv edilmiş, əhalisi qonşu Sofulu və Qızıl Şərq kəndlərinə köçürülmüşdür.

ƏLKOVAS - 1728-ci ildə İrəvan əyalətinin Göyçə nahiyəsində kənd adı [23, 55]. Türk dillərində alqa "dağın cənub yamacı", "dağın gündüşən hissəsi" (126, 47) və bays, vays sıldırım qaya", "ətəyindən çay axan dağ" (126, 65) sözlərindən ibarətdir.

ƏL MURAD - İrəvan quberniyasının Eçmiadzin qəzasında göl adı (133, 13).

ƏLPİN - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133, 301]. XIX əsrin ortalarından sonra mənbələrdə adı çəkilmir. Bu ad Alpan (Alban) etnoniminin

təhrifə uğramış şəkli olmaq etibarilə Azərbaycan xalqının mənşəyi ilə bağlı çox qiymətli toponimdir. Azərbaycanda Alpan (Quba rayonu), Türkmənistanda Alpan (2 kənd) adları ilə eynidir.

ƏLPİNÇAY - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında çay adı.(133, 301). Alpançay mənasındadır. Alban tayfa adını əks etdirir.

ƏMARAT - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 14). Mənbədə Amarat kimidir (133, 14). 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı (23, 66). Ərəb dilindəki əm "icma, "camaat" və Azərbaycan dilindəki arat -"əkin yeri" sözlərindəndir.

ƏMİZLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı [133, 92]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Əsli Yeməzlidir. (Bax: Yeməzli)

ƏMİNƏLİQIŞLAĞI - İrəvan əyalətinin İqdır nahiyəsində Baxış qışlağı kəndinin başqa adı (23, 68).

ƏMİNCAN - Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169, 257]. XIX əsrdə Əmican kimidir (133, 12). (Bax: Əlican)

ƏMİR - İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı. O vaxt kənddə cəmi 1 xristian ailəsi yaşayırdı (32, 311).

ƏMİRBULAQ - İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [170, 102]. Mənbədə kəndin Mustafa Əli oğluna məxsus olması göstərilir (23, 111).

ƏMİRYAR - İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [170, 12].

ƏMİRYARLI - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 94).

ƏMİRƏQAR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan mahalında) kənd adı. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. Əmir şəxs adından və monqol dilindəki qər -"yurd", "düşərgə" sözündən ibarətdir.

ƏMİRKƏND - İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı (23, 55).

ƏMİRGAN - İrəvan əyalətinin Abaran nahiyəsində Yolçular kəndinə məxsus məzrənin adı (23, 110).

ƏMİROVDANI - İrəvan quberniyasının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. Kənd "Əmirovdanı" adlı yerin adını qəbul etmişdir.

ƏMİROCAQ - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı. XIX əsrin ortalarından sonra kəndin adı mənbələrdə çəkilmir. Kəndin adı "Əmir piri (ocağı)" mənasındadır. Xalq içərisində rəvayətə görə ziyarətgah Ərəb əmirinin dəfn olunduğu yerdir.

ƏMİRXEYİR - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Kəndin adı Əmir şəxs adından və türk dillərində kairki "vadinin suvarılan hissəsi" [126, 241] sözlərindən ibarətdir. XIX əsrin II yarısında Qayax qəzasında Amirxeyir kənd adı (133, 15) ilə eynidir. (Bax: Əbulxeyir)

ƏNDƏLİB - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41].

ƏNDİZAR - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41].

ƏNKƏLƏKOT - 1510-cu ildə Qapan vilayətinin Sisəcan nahiyəsində Tatev monastırına mənsub kənd adı [134, 177]. Türk - monqol dillərində anqara "dərə", "vadi" (126, 50) və türkcə qut "qutan" (Bax: Koş-Kutan) sözlərindən ibarətdir.

ƏNQURİK - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 92].

ƏNKURİ - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [23, 58].

ƏNİLƏR - Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 191].

ƏNKUS - Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 211].

ƏNGİZ - Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 224].

ƏNGLƏBERD - Rəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [169, 362]. Bax: Əngələ-kot.

ƏNGÜZÜ - Naxçıvan sancağının Dərələyəz nahiyəsində kənd adı [32, 279]. Mənbədə deyilir ki, kənddə adam yaşamır, şiə olduqlarına görə köçmüşlər (yenə orada).

ƏRQOV - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 302]. 1728-ci ilə aid mənbədə Karbi nahiyəsində kənd kimi qeyd olunmuşdur (23, 89). 1918-ci ildə kəndin əhalisi qovulmuş və 1922-ci ildə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. XIX əsrə aid ədəbiyyatda Erqov və Orqov formasında yazılışı da vardır. Bax: Orqov. Mənşəcə qədim türk mənşəli qıpçaqların Qov tayfasının məskunlaşması nəticəsində yaranmaq etibarilə "Qov ərləri (adamları, kişiləri)" mənasındadır.

ƏRQOV - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 302]. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159].

ƏRQUVƏNG - İrəvan əyalətinin Abaran nahiyəsində Savmosavəng kəndinə məxsus məzrənin adı (23, 102). Türk dillərindəki arku "dağlar-arası vadi", ya da arqu "dərələrlə şaxələnmiş yer" (126, 58) və vəng sözlərindən ibarətdir.

ƏRDANUC - İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı (23, 62).

ƏRDƏVUZ - Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 189].

ƏRDƏNƏ - İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 140]. Mənbədə kəndin həm də Üçtəpə adlandığı qeyd olunur (yenə orada).

ƏRDƏLİ - Abovyan rayonunda kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

ƏRDƏPİN - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 302). 1727-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [32, 289] kimi göstərilir. Mənbədə kənddə cəmi 2 erməni ailəsinin yaşadığı qeyd olunur (yenə orada).

ƏRDƏŞ - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 14]. 1727-ci ilə aid mənbədə Ərdiş kimidir (32, 290). Mənbədə kənddə cəmi 3 erməni ailəsinin yaşadığı qeyd olunur (yenə orada).Türk dillərində artaş "gəzdək", "dağ çökəyi" (70, 10) sözündəndir.

ƏRDƏŞİRKƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 49).

ƏRƏBGİR - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 64]. Gətirilmə addır. Ərəbgir Kiçik Asiyada orta əsrlərdə Fərat çayının sağ sahilində Malatiyadan şimalda yerləşən mahal və şəhərin adıdır.

ƏRƏBGİRLİ - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. 1728-ci ildən məlumdur [170, 15]. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. XVI əsrdə Qızılbaşların Ərəbgirli tayfasının [16, 14] məskunlaşması nəticəsində yaranmışdır. Mənşəcə bu tayfa XII əsrdə gəlmiş Səlcuq oğuzlarının Ərəbgir əyalətinin (Anadoluda, Fərat çayının sağ sahilində, Malatiyadan şimalda) Çimiş-Kəzək mahalında məskunlaşmış hissəsindən ibarətdir.

ƏRƏBGİRLİ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 85]. "Kələkarxı kimi də tanınır" (yenə orada).

ƏRƏBLİ - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 42).

ƏRƏBOĞLU - 1590-cı ildə Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [169, 268].

ƏRƏBXANA - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Ərəb etnonimindən və farsca xana-"ev", "tikinti" sözündən ibarətdir. XIII-XI-əsrlərdə Azərbaycana köçürülmüş və sonralar azərbaycanlaşmış ərəb tayfalarının məskunlaşması nəticəsində yaranmışdır.

ƏRƏBXƏNCƏRİ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133]. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Kəndin adı "Ərəb (kəndi) yaxınlığındakı Xəncərli (kəndi)" mənasındadır. Bax: Xançallı və Xəncərli.

ƏRƏKU - 1590-cı ildə Rəvan əyalətinin Ərmus nahiyəsində kənd adı [169, 250]. Orta əsrlərdə Gəncə yaxınlığında Hərək qalası (bu adı ilk dəfə XIV əsr müəllifi Əbdürrəşid Bakuvi qeyd etmişdir) və Bərdə yaxınlığında Hərək (Bərdəlilərin yaylaq yerinin adı, bu adı XIX əsr müəllifi Həmdullah Qəzvini də qeyd etmişdir) yaylaq adları ilə mənaca eynidir. XIX əsrdə Dağıstan əyalətində Araktau dağ adı ilə [133, 17] mənaca eynidir. Monqolca areq -sıldırım sahil, "yarğan", "dərə" [126, 638] sözü ilə əlaqələndirmək olar. 1470-ci ilə aid hadisələrdə Türkiyənin Asiya hissəsində Ərəqli şəhərinin adı çəkilir [160, 133].

ƏRƏMƏS - İrəvan quberniyasının Zəngəzur qəzasında çay adı (133, 302). Bax: Armaz.

ƏRƏMUS - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 133]. Aramaz (Ahuramazda Allah adının fonetik forması) adındandır. Bax: Armaz və Ərəməs.

ƏRƏS - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 85).

ƏRƏFSƏ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı [133]. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Sisyan nahiyəsində Ərəfsa kimi qeyd olunmuşdur [23, 150]. Həmin mənbədə deyilir ki, kənddə cəmi 2 müsəlman (azərbaycanlı) və 2 xristiyan ailəsi yaşayır [32, 236]. 1918-1919-cu illərdə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1968-ci ildə kənd ermənicə Aravis adlandırılmışdır. Ərəfsə Azərbaycan ərazisində ən qədim kənd adıdır. İlk dəfə olaraq eradan əvvəl XIV əsrdə Kiçik Asiyada Xet (het) dövlətinin hökmdarı II Murşilin bir qayaüstü yazısında Aripsa adlı bir kiçik "ölkə" və qala adı çəkilir və tədqiqatçılar onu Şərqi Anadoluda indiki Ərzrumdan şimal-şərqdə lokalizə edirlər. Ona görə ki, eranın VI əsrdə orada Bizans mənbələrində Arabis kimi yazılan məntəqə vardı [106, 54]. Xet mənbələrində Aripsa, Bizans mənbələrində Arabis kimi qeyd olunan bu məntəqənin əhalisinin etnik mənsubiyyəti məlum deyil. Lakin Şərqi Anadoluda hələ eradan əvvəl I minillikdə Altay-türk mənşəli etnosların yaşaması artıq şübhə doğurmur (bax: Q.Ə.Qeybullayev, Azərbaycanların etnik tarixinə dair. Bakı, 1995). Aripsa xet dilində yazılış formasıdır. Əslində yerli əhalinin bu adı necə tələffüz etdiyi bilinmir. Ona görə ehtimal ki, Aripsa adının yerli forması məhz Ərəfsə (orta əsr erməni mənbələrində Arevis) adı Naxçıvan bölgəsinə gətirilmişdir. Culfa rayonunda indi də Ərəfsə kəndi vardır. Bu hadisə hər halda ərəb işğalından (VII-VIII əsrlərdən) əvvəl baş vermişdir. Ona görə ki, birincisi, Ərəfsənin əhalisi islam dininə yalnız burada-Naxçıvanda keçə bilərdi, xristian dininə itaət edən Bizans dövlətində, o sıradan Ərzrum əyalətində islam dininə keçmək mümkün olmazdı; ikincisi, Naxçıvan bölgəsində eramızın əvvəllərində Türk mənşəli kəngərlər məskunlaşdıqda Ərəfsə (Culfa rayonu) məntəqəsi mövcud idi, çünki orta əsrlərdə kəngərlərin bir qolu həmin kəndin adı ilə Ərəfsə (yaxud Ərəfsəli) adlanırdı. (bax: 153). Həmin qolun əsl adı Sofulu idi.

Zəngəzurun Sisyan mahalındakı Ərəfsə də məhz kəngərlərin Sofulu qoluna mənsub ailələrin məskunlaşması nəticəsində yaranmışdır, çünki bura həmin tayfanın yaylaq yeri idi. Ona görə də 1590-cı ilə aid mənbədə kənd Ərəfsəcik, yəni "Kiçik Ərəfsə" kimi qeyd olunur [169, 363]. Lakin 1728-ci ilə aid mənbədə kəndin adı Ərəfsə kimi göstərilmişdir [170, 161].

ƏRƏFŞAN - 1590-cı ildə Rəvan əyalətində yaylaq adı. "Vedi camaatı yaylayır" [169, 66].

ƏRƏXUS - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 62]. Türk dillərində ora- "çökəklik", "çuxur yer" [126, 415] və küz-"payız otlağı", "küzlək" sözlərindən ibarətdir. Bax: Araxus.

ƏRZAP - İrəvan xanlığının Karbibasar mahalında kənd adı. XIX əsrin ortalarından sonra mənbələrdə kəndin adı çəkilmir. Ehtimal ki, XI əsrdə Şərqi Anadoluda Erez kəndinin [142, 110] adı ilə bağlıdır (bu kənd barədə bax: 46, 15-46).

ƏRZƏKƏND - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. 1728-ci ilə aid mənbədə Ərzəkan kimidir (23, 113). "Başqa adı Südlübulaqdır" (yenə orada). 1828-1832-ci illərdə kənddə İrandan və Türkiyədən gəlmə ermənilər yerləşdikdən sonra əhali qarışıq yaşamışdır. 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuşdur. Ehtimal ki, Şərqi Anadolunun Erez mahalından gəlmiş ailələrin özləri ilə gətirdiyi addır . Habelə bax: Arzni.

ƏRZKAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 36). Sonrakı mənbələrdə Axta r-nunda Ərzakan kimidir (60, 66). Digər adı Ərzəkənd (yenə orada). XIX əsrin əvvəllərində kənddə ermənilər yerləşdirilmişdir.

ƏRZİN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 36).

ƏRZİNCAN MƏZRƏSİ - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 91]. "Ərzincandan gəlmiş adama məxsus əkin yeri" mənasın-dadır.

ƏRİNC - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 36). Naxçıvanda Arınc kənd adı ilə eynidir.

ƏRK - XVIII əsrin əvvəllərində Göyçə mahalında kənd adı [150, 360]. Fars dilində ərk-"qala" sözündəndir.

ƏRKƏVİL - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı (23, 116).

ƏRKƏZ - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı (159). 1728-ci ildən məlumdur (32, 298). Bu mənbədə kənddə 4 xristian ailəsinin yaşadığı qeyd olunur (yenə orada). Sonra kənddə azərbaycanlılar da məskunlaşmışlar. 1919-1929-ci illərdə azərbaycanlılar qovulmuşdur. “Kitabi-Dədə Qorqud” eposunda çəkilir. Mənası məlum deyil.

ƏRKƏZAN - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. 688-735-ci illərlə əlaqədar hadisələrdə Sünikdə (sonraki Zəngəzurda) Ərkəzan kəndinin adı çəkilir ("Alban tarixi", III kitab, 14-cü fəsil). Ehtimal ki, mənşəcə Dərələyəzdəki Ərkəz kəndinin adı ilə bağlıdır. Maraqlıdır ki, bu kənd həm də Ərəkələz adlanmışdır ki, bu da Ərk-Ələyəz, yəni "Ələyəzdəki Ərk" mənasın-dadır.

ƏRKƏCİ - XVIII əsrin ortalarına aid ermənicə mənbədə Göycə mahalında kənd adı [150, 361]. İrəvan xanlığının Sürməli mahalındakı Ər-Hacı (bax: Birinci Ər-Hacı) kənd adı ilə mənaca eynidir. Türk dillərində arkac (azərbaycanca arxac) "dağın gün düşməyən tərəfi, qüzey" sözündəndir (Türkmənis-tanda Arkaç toponimi barədə

bax: S.Atanıyazov. Türkmənistanın qeoqrafik adlarının düşündirişli sözlüqi, Aşqapad, 1980, s. 43).

ƏRKİL - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 19). Mənbədə Arkel kimidir (yenə orada). 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 159], 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 79). "Qara Abdal kəndinin yaxınlığında yerləşir" (yenə orada).Ərk adından və qədim türkcə il (azərbaycanca el-"tayfa") cözündən ibarətdir. Erkən orta əsrlərdə Van gölündən şimal-qərbdə Tavrubəran əyalətində (Araz çayının yuxarı axını ilə Murad-Su və Bingöl-Su, yəni Mingəl-Su çayları arasında) Ark (Ərk) mahalından [142, 57] çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır. XX əsrin 30-cu illərində kəndin əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir.

ƏRKLİ - 1590-cı ildə Zebil nahiyəsində kənd adı [169, 33]. Anadolunun şərqində Ərk mahalından çıxmış ailələrin məskunlaşması nəticəsində yaranmışdır.

ƏRGÜŞ - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [23, 61]. Türk dillərində ər "kişi", "döyüşçü" və koş "köçəbə" (Bax: Koşkotan) sözlərindən ibarətdir.

ƏRİCƏUD - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 302).

ƏRMİK - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 19]. 1949-cu ildə kəndin əhalisi Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. 1590-cı ilə aid mənbədə kəndin adı Ərmuk kimidir [169, 226]. 1728-ci ilə aid mənbədə Vedi nahiyəsində Ərmuk kimidir [23, 105]. Türk dillərində arım-"çuxur", "çəkək" [126, 58] və ik "küləksiz, sakit, gizli yer", "sığınacaq", "çayın aşağı axarı" [bax: 147, I] cözlərindən ibarətdir. Azərbaycanda Sumik (Gədəbəy rayonu) dağ adı (naməlum mənşəli Cum və ik sözlərindən) ilə quruluşca eynidir.

ƏRMİK - İrəvan quberniyasının İrəvan qəzasında xaraba kənd adı [133].

ƏRMUS - 1590-cı ildə Rəvan əyalətinin bir mahalının adı [169, 250]. Bax: Aramus, Armaz və Ərəmis.

ƏRSAQ - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində məzrə adı [23, 64].

ƏRTƏNİ KÖVŞƏNİ - İrəvan xanlığının Saatlı mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra mənbələrdə bu kəndin adı çəkilmir. Ərtəni şəxs adından və kövşən sözündəndir.

ƏRTİC - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133, 302]. 1590-cı ilə aid türkcə mənbədə Ərdic kimidir [169, 92]. Yerli tələffüz forması Yertic. 1928-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Ərtic dağının adındandır.

ƏRTİCDAĞ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında dağ adı [133, 302]. Türk dillərində ardıc (ağac növü) sözündəndir.

ƏR HACI - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [23, 66].

ƏSAYİŞLİ - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 193]. Kənd qızılbaşların Asayiş oğlu tayfasının [24, 192] məskunlaşması nəticəsində yaranmışdır. Bax: Asayişarxı.

ƏSAXAN - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək mahalında kənd adı [23, 46]. "Əhalisi Dümbüli camaatındandır" (yenə orada).

ƏSDÜK - 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində kənd adı [169, 331].

ƏSƏDQALA - İrəvan quberniyasının Şirakel qəzasında kənd adı. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 170). 1946-cı ildə kənd ermənicə Vaqramaberd adlandırılmışdır. Kənd yaxınlıqdakı Əsədqala qalasının adı ilə adlanmışdır.

ƏSƏDLİ - 1590-cı ildə Rəvan əyalətinin Ərmus nahiyəsində kənd adı [169, 252].

ƏSGƏMOR - 1727-ci ildə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [32, 33]. Həmin mənbədə cəmi 2 Azərbaycanlı ailənin (Cəlil Sevdiməli oğlu və Xanməhəmməd Bayraməli oğlu) yaşadığı qeyd olunur [32, 245]. Türk dillərində aska "qayalı dağ" [126, 58] və ermənicə mor "bataqlıq" sözlərindən ibarətdir. Kutais quberniyasının Senak qəzasında Asxi və Leçkum qəzasında Asxi dağ adları (133, 22) ilə mənaca eynidir.

ƏSGƏRKƏND - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı. XIX əsrin sonlarında kənd dağılmışdır.

ƏSGƏRLƏR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı [133]. XIX əsrin sonlarında kənd dağılmışdır.

ƏSNİ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Türk dillərində aska-"alınmaz qayalı dağ" [126, 58] sözündəndir.

ƏSKİPARA - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Noyemberyan rayonunda) kənd adı [133]. 1950-ci ildə kənd ermənicə Voskepar adlandırılmışdır. Kənd Qazax rayonundakı Əskipara kəndinin adı ilə adlanmışdır. Əskipara toponimi əski və iran dillərində para-"kənd", "məskən" [43, 1, 418], para-"kənddən aralı əkin", "bostan əkilən sahə" [145, 168] sözlərindən ibarət

olmaq etibarilə Albaniyanın Xalxal şəhərinin yerləşdiyi yerin adıdır. VI əsrdə tikilmiş qala divarı və onun 9 bürcü qalmışdır.

ƏSGİ CANQUR - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində Canqur kəndinə məxsus məzrənin adı [23, 61].

ƏSKÜLÜM - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanda) kənd adı [133, 21]. XIX əsrin sonlarında kənd dağılmışdır. Kəndin adı Azərbaycan dilində əski "köhnə", "qədim" və türk dillərində olum-(olom)"keçid" [126, 412] sözlərindən ibarətdir.

ƏSRİK - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 121]. XIX əsrdə Qazax qəzasında Əsrikçay və Cavanşir qəzasında Əsrik kənd adları (133, 21) ilə mənaca eynidir.

ƏSTİ - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 217]. XIX əsrdə Şamaxı qəzasında Asti Bozdaq dağ adı (133, 21) ilə mənaca eynidir.

ƏFƏNDİ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1938-ci ildə kənd ermənicə Noraşen adlandırılmışdır.

ƏFƏNDİKƏND - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133]. Rəhmankənd də adlanmışdır (133, 302). Tam adı Rəhman Əfəndi. 1880-cı illərdə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Karadzor adlandırılmışdır. Rəhman əfəndi adlı ruhaninin adındandır.

ƏFSƏRLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı. 1960-cı ildə kəndin əhalisi Müsəlləm kəndinə köçürülmüş və kənd ləğv edilmişdir [20, 143].

ƏFŞAN - 1727-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 138]. "Kəndin başqa adı Susanburundur" (yenə orada) bax: Susanburun.

ƏFŞAR YERLİ - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı [23, 51]. Səlcuq oğuzlarının Avşar tayfasının adını əks etdirir. Bax: Avşar.

ƏFŞAR GELƏVAN - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 103].

ƏXİ VEYS KƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [23, 66]. Orta əsrlərdə Sufi ordeninə məxsus adamlar bir-birinə əxi (ərəbcə "qardaş") deyirdilər. Hökmdarlar abdal və dərvişlərlə yanaşı əxilərə də torpaq sahəsi və ya rəiyyət bağışlayırdılar. Ona görə də yaşayış məntəqələri həmin əxilərin adları ilə adlanırdı. "Veys adlı əxiyə mənsub kənd" mənasındadır. Bax: Ağveys və Əxikənd.

ƏXİLİ - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [32, 306]. Mənbədə kənddə cəmi bir evli kişinin və bir subay oğlanın yaşadığı qeyd olunur (yenə orada). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Sufi ordeninə mənsub adamların bir-birinə verdikləri əxi "qardaş" sözündəndir.

ƏXİ MƏHƏMMƏD KƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [23, 66]. "Əhalisi Kürdlər camaatıdır" (yenə orada).

ƏXİNƏKİQ - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı [169, 237]. Əxi və ermənicə küq "kənd" sözlərindən ibarətdir.

ƏHMƏDAĞA - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) xaraba kənd adı [133].

ƏHMƏDAĞA - YURD - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 24). Başqa adı Daşkəsən (yenə orada).

ƏHMƏDQULU QIŞLAĞI - 1590-cı ildə Rəvan əyalətinin Qarni nahiyəsində kənd adı [169, 211].

ƏHMƏDLİ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 122].

ƏHMƏDLİ - 1590-cı ildə Rəvan əyalətinin Abnin (Avnik) nahiyəsində kənd adı [169, 256].

ƏCİLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı [133]. XIX əsrdə Müsəlləm, Tünüs və Şotalı obalarından ibarət [103, 146] idi. 1969-cu ildə kənd ləğv edilmişdir.

ƏŞTƏRƏK - İrəvan xanlığının Karpibasar nahiyəsində (bax: 159), sonra İrəvan quberniyasının Eçmiadzin qəzasında (133, 26) kənd adı. 1930-cu ildən inzibati rayonun və onun mərkəzinin adıdır. Azərbaycan türklərinin yaşadığı qədim kəndlərdən biri olmuşdur. 1828-1832-ci illərdə kəndin əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. Ermənicə Aştarak kimi yazılır. İlk dəfə XV əsrdən məlumdur [116, 143]. 1590-cı ilə aid türkcə mənbədə Əştərək kimidir [169, 77]. 1728 - ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində Aştarak yazılmışdır (23, 75) 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Şirakel nahiyəsində Haşterek kənd adı qeyd olunur (23, 134). 1441-ci ildə İrəvan əyalətinin türk hakimləri tərəfindən bu kənd Eçmiadzin kilsəsinə bağışlanmışdır [150, 172].

XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Xaş-Terek kəndi və Xaş-Tarak qışlağı, Qazax qəzasında Həştərək kəndi [133], Albaniyada erkən orta əsrlərdə (Artsakda) Aq-Terek (ermənicə təhrifi Haterk) toponimləri ilə mənşəcə eynidir. Buradan belə nəticəyə gəlmək olar ki, toponimin ilk forması məhz Xaş-Terek (dəqiqi Xaç-Terek) olmuş, sonralar hər halda XV əsrdən gec olmayaraq Əştərək formasını

kəsb etmişdir. Kəndin adı xaç (burada xaçdaş mənasında) və qədim türkcə terek- "şam ağacı [93, 553] sözlərindən ibarətdir. Lakin Q.F.Sattarov (Sattarov Q.F.Bulqarskiy plast qeoqrafiçeskiy terminoloqii i toponimı Tatarii. "Onomastika Uzbekistana". Taşkent. 1989, s. 73). Şimali Qafqazda Terek çayını misal gətirərək qədim türk dillərində terek sözünün həm də "çay" mənasında olduğunu qeyd edir və bu sözü hun-bulqar termini sayır. XIX əsrdə şimali Qafqazda Ter əyalətinin Qızıl-Yar dairəsində Bucur-Terek, Stavropol əyalətinin Açi-Kulak dairəsində Terek-Bay və Terek-İsimbay qışlağı, Ter əyalətinin Kara-noqay dairəsində Aq-Terek, 6 Terek kəndi [133] Qırğızıs-tanda 30 Terek (dağ, çay və kənd adları). (Bax: Slovarğ qeoqrafiçeskix nazvaniy Kirqizskiy SSR. Frunze. 1988, s.147, 153) toponimləri ilə mənaca eynidir. Ona görə də erməni tədqiqatçılarının bu toponimi erməni mənşəli saymaları səhvdir.

ZABA - Talin rayonunda kənd adı. 1935-ci ildə kənd ermənicə Sorik adlandırılmışdır. XIX əsrdə Zəngəzur qəzasında Zabazadur kənd adı (133, 94) ilə sıra təşkil etsə də mənası məlum deyil.

ZAQ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 77]. XIX əsrdə Tiflis quberniyasının Axalkalak qəzasında Zak kənd adı (133, 95) ilə eynidir. Mənası məlum deyil. Qars əyalətinni Kaqızman dairəsində Zak kənd adı (133, 100) ilə bağlı ola bilər.

ZAQ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 97]. "Kəndin başqa adı Qoyunqışlaqdır" (yenə orada).

ZAQ - 1728-ci ildə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [170, 61]. Mənbədə kəndin həm də Qoyunqışlaq adlandığı göstərilir (yenə orada).

ZAĞA - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 94]. Kəndin ərazisindəki qayada "Zağa" mağarasının adındandır. 1590-cı ilə aid mənbədə [169, 46] və 1728-ci ilə aid mənbədə [170, 31] İrəvan əyalətinin Qırxbulaq nahiyəsində Zaq kəndi qeyd olunur və həm də Qoyunquşlaq adlandığı göstərilir [170, 70]. Zağa kəndinin adı XVIII əsrə aid ermənicə mənbədə Dzaq kimidir [150, 358]. Onun Qatar-Göl monastırına mənsub olması qeyd edilir (yenə orada).

ZAĞA - Eçmiadzin qəzasında mağara adı (133, 94).

ZAĞABAŞI - İrəvan quberniyasının İrəvan qəzasında kiçik kənd adı [133]. XX əsrin əvvəllərində kənd dağılmışdır.

ZAĞAQIŞLAQ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində Güllübulaq kəndinin başqa adı [23, 129]. Bax: Güllübulaq.

ZAĞALI - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 94]. Həmin qəzada Qayabaşı kəndinin maldarları üçün Keyti dağında yurd yeri olmuşdur [136, 34]. XIX əsrin sonlarından sonra bu kəndin adı mənbələrdə çəkilmir. Göycə yaxınlığında olan Zağalı kəndinin ərazisindəki Urartu dilində kitabədə bu kəndin ərazisi Arkukuni kimi qeyd olunmuşdur (141, 31). Bu adın "Kitabi Dədə Qorqud" eposunda Arqubeli toponimi ilə eyniliyi ola bilər. Türk dillərində arqu "dərələrlə doğranmış" (93, 51), "dərələrlə şaxələnmiş" (126, 58) mənasındadır. Musa Kalankatlı Sünikdə (Zəngəzurda) indiki Həkəri çayını Arquçay (ermənicə yazılışda Arqunaqet) kimi qeyd etmişdir ("Alban tarixi", III kitab, 87-ci fəsil). Həqiqətdə də çayın yuxarı axını indi də Arqu adlanır.

ZAĞALI - İrəvan quberniyasının Aleksandropol qəzasında xaraba kənd adı [133, 94].

ZAĞATƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 95]. "Təpəsində zağa olan dağ" mənasındadır.

ZAZANÇI - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 93]. Kürd dilində zözən “yaylaq” (145, 92) sözündəndir.

ZALIMLI - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 188].

ZAMANQIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 132]. "Başqa adı Kəklikik Gödəkarx" (yenə orada). Ya türk dillərində saman "sərhəd", "hüdud" (126, 499) sözündən, ya da Zaman şəxs adındandır.

ZAMANQIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 123].

ZAMANLI - Bazum dağ belindən şimal-şərqdə dağ belinin adı (60, 78). XX əsrin 30-cu illərində dağ ermənicə Vaaqnasar adlandırılmışdır.

ZAMANLI - Aleksandropol qəzasında Pəmbək çayının sol qolunun adı (60, 71). Ermənicə çay Vaaqni adlandırılmışdır.

ZAMLAR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan mahalında) kənd adı. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır.

ZAKEVƏNG - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 44]. Əsli Zaqavəng. Azərbaycan dilində zağa (süni maqara) və vəng (kilsə) sözlərindəndir.

ZAR - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 96). 1918-ci ildə əhalisi Azərbaycana qovulduqdan sonra kənd dağılmışdır (11, 164). İlk dəfə XIX əsrdən məlumdur [107, 34]. 1590-cı ildən mənbədə adı çəkilir [169, 58]. 1728-ci ilə aid mənbədə Göyçə nahiyəsində kənd kimi qeyd olunur (23, 55). Həmin əsrə aid ermənicə mənbədə isə Ulu Zar (ermənicə Uritsar) adlandırılır [150, 360]. XIV əsrin

axırlarında İrəvan qəzasında Zar, Yelizavetpol quberniyasının Cavanşir qəzasında (indi Kəlbəcər rayonunda) Zar, İrəvan quberniyasının Aleksandropol qəzasında Zar-İncə, Tiflis quberniyasının Qori qəzasında Zar kənd adları [133, 96] ilə mənşəcə eynidir. Ermənistan ərazisində Zarişat və Zarevand toponimləri V əsrdən məlumdur. 1728-ci ilə aid mənbədə kəndin həm də Karaqala Sufla adlandığı göstərilir [170, 38]. "Əhmədxan və Səlbinaz xanım" dastanında Zar şəhərinin adı çəkilir. Bir fikrə görə tayfa adıdır [bax; 25]. Bax: Zər-Zibil, Zərincə.

ZAR - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 80]. "Qaraqala kəndinin yaxınlığında yerləşir" (yenə orada).

ZAR - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində (sonrakı Kəlbəcər r-nu) kənd adı (23, 120).

ZARVANCIQ - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı [23, 107]. "Kiçik Sarvan kəndi" mənasındadır.

ZARZƏMİN - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [170, 118].

ZARZƏMİN - 1728-ci ildə İrəvan əyalətinin nahiyələrindən birinin adı [23, 120]. Oradakı Zar kəndinin adından və farsca zəmin "yer", "ərazi" sözündən ibarətdir.

ZARİNCƏ TƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında təpə (133, 96) Bax: Zərincə.

ZARÇA - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində Dərəkənd kəndinə məxsus məzrə adı [23, 135].

ZEBİL - 1590-cı ildə Rəvan əyalətində bir mahalın adı [169, 330]. Görünür, o vaxt orada Zebil adlı iki kənd olduğuna görə bir-birindən fərqləndirilməsi üçün biri Zar  Zebil, yəni

"Zar nahiyəsindəki Zebil" adlanırdı. Bax: Zər-Zebil. Zebil nahiyəsi isə Baş Zebil kəndinin adı ilə [169, 330] adlanırdı. XIX əsrdə Azərbaycanın Cavanşir qəzasında bir xaraba kənd Zebil adı ilə məlumdur (133, 97). Bax: Baş Zebil.

ZEYVƏ - İrəvan xanlığının Karbibasar mahalında kənd adı [159]. 1590-cı ilə aid mənbədə Zaviyyə kimidir [169, 87]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd kiçilmiş, 50-ci illərdə Kığı kənd istehsal cəmiyyətinin bazasına çevrilmişdir. Ərəb dilində zaviyə "künc", "bucaq" (cəmiyyətdən kənar mənada), "hücrə", "ibadətgah" mənasında olmaq etibarilə fars dilində xanəgah (dərviş malikanəsi) sözünün sinonimidir (L.Z.Budaqov, I, 603). Orta əsrlərdə zaviyə "şeyxlərin və dərvişlərin ibadətgahlarının yerləşdiyi malikanə" mənasını kəsb edirdi. Səfəvilər dövründə imtiyazlı zümrə içərisində feodallardan sonra ikinci yeri ruhani zümrəsi tuturdu. Bu zümrəyə hər vilayətdə olan şeyxlər, nahiyələrdə qazilər, məscidlərdə imamlar, vaizlər, dərviş malikanələrindəki şeyxlər daxil idi. XIX əsrdə Azərbaycanda və Ermənistanda Zeyvə adlı 10 kənd vardı [133, 96]. Azərbaycanda hazırda mövcud olan 5 Zeyvə kənd adı ilə mənşəcə eynidir.

ZEYNALAĞA - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Kəndin əsasını qoymuş şəxsin (mülkədarın) adıdır.

ZEYNALAĞALI - İrəvan xanlığının Göycə mahalında kiçik kənd adı [159]. XIX əsrin ortalarında ruslar da yerləşdikdən sonra Aleksandrovka adlandırılmışdır. Sonra azərbaycanlılar qovulmuş və yerini gəlmə ermənilər tutmuşdur. Zeynalağa adlı şəxsin (mülkədarın) adındandır.

ZEYNALBULAQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 97]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. "Zeynal-bulağ"ın adındandır.

ZEYNARI - ATOM - İrəvan quberniyası Novobayazid qəzasında dağın adı (133, 97).

ZEYNƏ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan rayonunda) kənd adı. 1949-cu ildə kənd Davidbek (Qafan qalasının digər adı Davudbəydir) adlandırılmışdır. 1988-ci ildə əhalisi qovulmuşdur.

ZEYTƏ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133, 97]. 1727-ci ildən məlumdur [23, 59]. Həmin mənbədə kənddə cəmi 3 xristian ailəsinin yaşadığı qeyd olunmuşdur (32, 306). Mənbədə Zeytə Çopma Çomax kimidir (133, 97). 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

ZƏVAZƏDUR - 1728-ci ildə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [170, 161]. 1590-cı ildən məlumdur [169, 361]. 1728-ci ildə kənddə 3 azərbaycanlı ailə yaşayırdı [32, 229]. Saybastor adından təhriflər. Türk dillərində say "quru çay yatağı", bas "baş hissəsi", "yuxarısı" və tor "yüksək dağ örüşü" [126,] sözlərindən ibarətdir. Qazaxıstanda Sarıtor toponimində tor sözü üçün bax: 108, 193.

ZƏKKƏN - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. XIX əsrdə Şimali Qafqazda Ter əyalətinin Kızılyar dairəsində Zakanyurt, Kuban əyalətinin Maykop dairəsində Zakandağ və çay adları (133, 95), Zaqatala r-nunda Zəkəntala toponimləri ilə eynidir.

ZƏNBİ - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 193].

ZƏNGƏZUR - Albaniyanın tarixi Sisakan əyalətinin sonrakı adı. XIV əsrdən məlumdur (107). Mənşəcə Zəngə Anadoluda yaşamış nüfuzlu kürd tayfasıdır [90]. XVI əsrin əvvəllərində Qızılbaşlara qoşulmuş, kürd mənşəli türkləşmiş Zəngi tayfasının [15] adındandır. Dağlıq Şirvanda Zəngi yurdu və Zəngi dağı toponimləri var.

Zəngə kürd tayfasının adından və ermənicə zur (dzor) "dərə", "vadi" sözündən ibarətdir. Dərələyəzdə 4 km. uzunluğunda Zəngəzur dərəsinin (Amaqu k.) adı ilə mənaca eynidir.

ZƏNGƏNƏ - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [170, 15]. XIX əsrin sonlarından sonra kəndin adı çəkilmir. İlk dəfə 1590-cı ilə aid mənbədə təsadüf edilir. Qızılbaşların Zəngənə tayfasının adındandır (160, 80).

ZƏNGİYAN - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. 1918-ci ildə kənd dağılmışdır. Cənubi Azərbaycanda Zəngiyan kənd adı ilə mənşəcə eynidir. Zəngilər mənasındadır (bax: 145).

ZƏNGİ - İrəvan quberniyasının Eçmiadzin, Novobayazid və İrəvan qəzalarında çay adı [133, 95]. "Zəngiçay" formasında 1728-ci ilə aid türkcə arxiv sənədində [23, 82] və XVII əsrə aid erməni mənbələrində çəkilir [57, 184]. Göycədən axaraq Araza tökülür. Çayın digər adı - Razdandır. Hrazdan formasında V əsrdən məlumdur (Moisey Xorenasi, II kitab, 11-ci fəsil). XVIII əsrdə yaşamış Arakel Davrijetsi Eçmiadzin katalikosu Davidin şah I Abbasa dediklərini belə vermişdir: "Padşahum, Zanki çayında mana bir içum su vermadilar" [57, 18]. Azərbaycanda İsmayıllı rayonunda Zəngiçay adı ilə eynidir. Qobustanın Cəmcəmli kəndinin cənub qərbində Zəngidərə (Qaradərə) və Dağlıq Şirvanda Zən-gidərə vardır. Bu toponimdə zəngi "qara", "həbəş" mənasındadır, çünki çay Zəngidərədən (Qaradərədən) axır.

ZƏNGİLƏR - Masis rayonunda kənd adı. Məscidli və Donuzkənd də adlanmışdır. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Türkləşmiş zəngi kürd tayfasının adındandır. Bax: Zəngə.

ZƏNGİSƏNG - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 88].

ZƏNƏNADİR - 1590-cı ildə Rəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [169, 367].

ZƏNCAN - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 40). "Əhalisi Dümbüli əşirətindəndir" (yenə orada).

ZƏNCİRLİ - İrəvan quberniasının İrəvan qəzasında kənd adı. 1590-cı ilə və 1728-ci ilə aid mənbədə Zincirli kimidir [169, 222]. Başqa mənbədə Zincirlu kimidir (133, 98). 1828-ci ilə aid mənbədə kəndin Abdulla Musa oğluna mənsub olması göstərilir (23, 98). 1828-1832-ci illərdə əhalisi qovulmuşdur. Sonra bir hissəsi geri qayıtmışdır. 1948-ci ildə kəndin azərbaycanlı əhalisi Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. Zəncirli dağının adındandır. Bax: Zəncirli dağı.

ZƏNCİRLİ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 98]. Dağın adı silsiləsinin zəncirvarı görünüşü ilə əlaqədardır. Zəncirli Karvansaray kəndinin yaylaq idi.

ZƏRDALU - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 42).

ZƏRZİBİL - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [136, 60]. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı kimi qeyd olunmuşdur (23, 123). 1919-cu ildə Türkiyədən gəlmə ermənilər də yerləşdirilmişdir. 1935-ci ildə kənd Zarkənd adlandırılmışdır. 1988-ci ildə kəndin azərbaycanlı hissəsi Azərbaycana qovulmuşdur. Əsli Zar Zivir, yəni "Zarzəmin nahiyəsində Zivir kəndi". "Qoyun xaraba"da adlanmışdır [20, 286]. XIX əsrdə Şimali Qafqazda Vladiqafqaz dairəsində Zivir-Xi və Siveraut dağ adı, Ter əyalətinin Qroznı dairəsində Ziber-Yurt, Kuban əyalətinin Eysk dairəsində Siverka [133], Azərbaycanda Lənkəran qəzasında Zivirs kənd adı, Kəlbəcər rayonunda 2200m yüksəklikdə Zivəl qalasının adı və b. toponimlərlə mənaca eynidir. Daşkəsən rayonunda Zin-Zahal dağ adı (qədim türkcə sin "dağ beli" və Zivir) da bu sıraya aid edilə bilər. Mənası məlum deyil.

ZƏRİNQULU - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 122].

ZƏRİNCƏ - İrəvan xanlığının Talin mahalında kənd adı (159). XIX əsrə aid məlumatda Zar İncə kimidir (133, 96) 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Əsli Zar İncə, yəni "İncə (kəndi yaxınlığında (Zar (kəndi))" mənasındadır. Bax: Zar k.

ZƏRİFXANA - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 96).

ZƏRNƏTUN - 1728-ci ildə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı (170, 162). Fars dilində zərnə "əkin yeri" və türkcə ton "təpə" sözlərindən ibarətdir. Zarnatun adlı bir kənd XIX əsrin II yarısında Naxçıvan qəzasında vardı (133, 96). Zəngəzur qəzasında Zərnəli kənd adı da məlumdur (yenə orada).

ZƏRPUŞT KİLSƏ - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı [169, 235].

ZİQDƏMAL -Spitak rayonunda kənd adı. 1828-1832-ci illərdə kənddə Türkiyədən gəlmə ermənilər yerləşdikdən sonra əhali qarışıq yaşamışdır. XX əsrin əvvəllərində azərbaycanlılar sıxışdırılıb çıxarılmışdır. Kənd ermənicəZmişavan adlandırılmışdır. Fars dilində zeh "bulaq", "mənbə", "su mənbəyi" (145, 89), azərbaycanca -dı(lı) şəkilçisindən və ərəbcə mal "malikanə", "mal-mülk" (145, 139) sözlərindəndir.

ZİYARƏT - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı (133, 98).

ZİYARƏT - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı (133, 98).

ZİYARƏT - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 98).

ZİYARƏTİ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 88).

ZİYARƏTTƏPƏ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı (133, 98).

ZİMMİ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 98). 1828-1832-ci illərdə kənddə xaricdən gəlmə ermənilər yerləşmişlər [159]. 1949-cu ildə azərbaycanlılar köçürülmüşdür. 1728-ci ilə aid mənbədə "Vadi-Zimmi" kimi qeyd olunmuşdur [170, 10]. Həmin mənbədə "Zimmi dər nəzdi kariye-i Menquk" ifadəsi də vardır [170, 92]. Ona görə XVII əsrə aid mənbədə həm də "Xristian Vedisi" adlanmışdır. Ərəbcə zimmi ("əhl əz zimma") "Müsəlman dövlətinin himayəsi altında olan adamlar (xristianlar)" mənasındadır.

ZİMMİ - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı [23, 106]. "Xristianlar" mənasındadır.

ZİMMİ VEDİSİ - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı [23, 51]. "Xristianlardan (burada şübhəsiz ermənilər nəzərdə tutulur) yaşadıqları Vedi kəndi" mənasındadır.

ZİMMİQIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 123].

ZİRAK - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. XX əsrin əvvəllərinə aid mənbədə də çəkilir (133, 98). Əsli: Sirak. Qədim türk mənşəli Sirak tayfasının adındandır.

ZİCİ - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. XX əsrin 30-cu illərində kənd ləğv edilmişdir.

ZOĞALLI - Basarkeçər rayonunda kənd adı. Zoğal meyvəsinin bol olduğu yer mənasındadır. Ola bilər Qızılbaşların Zolaqlı tayfasının (24, 193) adındandır.

ZOD - İrəvan xanlığının Göycə mahalında [159], sonra İrəvan quberniyasının Novobayazid qəzasında [136, 60] kənd adı. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

1590-cı ilə [169, 326] və 1728-ci ilə aid mənbələrdə İrəvan əyalətində Zod kəndinin adı çəkilir (170, 16). Azərbaycan xalqının qədim etnik tarixi ilə bağlı türk mənşəli adlardandır. İlk dəfə I əsrin 60-cı illəri ilə əlaqədar hadisələrdə mənbələrdə qədim ermənicə yazılışda Sodk, Sode formalarına qeyd olunur. (bax: "Alban tarixi, II kitab, 48-ci fəsil). XVIII əsrin ortalarına aid ermənicə mənbədə də kəndin adı Sot kimidir [150, 360]. Qeyd edilməlidir ki, qədim erməni dilində adın sonunda "k" səsi bir qayda olaraq tayfa adlarına əlavə olunur. Ona görə ermənicə Sodk "Sodlar" mənasını verir. Ptolemeyin (II əsr) bu tayfanın məskunlaşdığı ərazini Sodukene kimi qeyd etməsindən (Ptolemey, V, 12, 9) belə nəticəyə gəlmək olar ki, bu elin əsl adı məhz "Sod"dur, onun "Zod" kimi yazılışı sonrakı fonetik hadisədir. Alban tarixçisi Musa Kalankatlı yazır ki, Sodlar (onun məlumatında Sadvey kimidir, lakin V əsrə aid ermənicə mənbədə "Sod" formasındadır) Alban çarı Aranın nəslindəndir. Eranın I əsrin ortalarında çarlıq etmiş Aran (əsli Ərən) isə qədim türk mənşəli addır [bax: 14, 178]. XIX əsrdə Kutaisi quberniyasının Şaropan qəzasında Zod kəndinin adı ilə [133, 99] mənşəcə eynidir. Həmin kəndin adı 1407-ci ildən məlumdur - bax: Qruizinskie dokumentı IX-XV vv. M. 1982, s. 125). XIX əsrin ortalarına aid məlumata görə Zod kəndinin Azərbaycanlı əhalisi maldar həyat keçirirdi. Onun yaylaqlarda yurdları Qızılqaya, Qatarqaya, I Taxta, II Taxta, III Taxta adlanırdı [136, 34]. Azərbaycanda Kəlbəcər rayonunda "Zod aşırımı" toponimi ilə mənaca eynidir. Türk mənşəli sat tayfasının adını əks etdirir. (Bax: 79, 123-124).

ZOD - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [23, 116]. Mənbədə kəndin Əhməd Osman oğluna məxsus olduğu qeyd olunur. (yenə orada).

ZOLAXAÇ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 99). 1935-ci ildə kənd ermənicə Zolokar adlandırılmışdır. 1948-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür.

ZONANUS - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 70].

ZOR - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. 1828-1832-ci illərdə Azəbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır [159]. Digər adı "Zor dərəsi". Fars dilindəki zur "qala" sözündəndir.

ZOR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan mahalında) kənd adı [133, 99]. XX əsrin sonlarından kəndin adı mənbələrdə çəkilmir. Orta əsr erməni mənbələrində bu kəndin adı ilə orada bir nahiyə də Dzork adlandırılır. Buna əsasən erməni tarixçiləri toponimi erməni mənşəli sayır və dzor-"dərə" sözü ilə bağlayırlar. Lakin bu səhv fikirdir, ona görə ki, mənfi relyef formasını bildirən dzor sözü ayrılıqda nə yaşayış məntəqəsi, nə də inzibati-ərazi vahidi (nahiyə) adına çevrilə bilməz. Azərbaycan dilində "zor" sözü bulaq suyunun gurluğunu bildirmək məqsədilə əsasən bulaq adlarında işlənir (məsələn: Naxçıvanın 16 km-də Köhnə Vayxır kənd xarabalığı yaxınlığında "Yel suyu" adlandırılan "Zorbulaq" bulağı və s; Vayxır toponiminin özü də qədim farsca "xeyirli, yaxşı yer" mənasında farsca bah və xar yer" sözlərindən ibarətdir). Ehtimal ki, Zor toponimi fars dilində zor, zur "qala" sözündən ibarətdir. XIV əsrdən sonra adı Zor Zəngəzur adı ilə əvəz olunur ki, bu da Zəngi (əslən kürd mənşəli) tayfasının adından və Zor toponimindən ibarətdir.

ZOR - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 99).

ZORDƏRƏSİ - İrəvan quberniyasının Sürməli qəzasında dərə adı (133, 99).

ZORBA - İrəvan əquberniyasının İrəvan qəzasında kənd adı [133]. 1928-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd ermənicə Tsork adlandırılmışdır. "Zor oba" yəni "Böyük oba" adından təhrifdir.

ZÖHRABLI - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı. 1728-ci ildən məlumdur [23, 75]. 1828-1832-ci illərdə kəndin əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir [159]. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi. 1945-ci ildə kənd ermənicə Mrqanut adlandırılmışdır. Kəndin adı ilk dəfə 1728-ci ildən məlumdur [170, 21]. Zöhrablı kəndinin əsasını qoymuş nəslin adıdır.

ZUYRƏK - 1727-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [32, 291]. Mənbədə kənddə cəmi 2 erməni ailəsinin yaşadığı qeyd olunur (yenə orada).

ZUKRUK - XVIII əsrin ortalarında Göyçə mahalında kənd adı [150, 360]. Mənbədə ermənicə yazılışı Tsuxruk kimidir [150, 360].

ZÜLFÜQAR QIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [23, 37]. "Əhalisi Sayat əşirətindəndir" (yenə orada).

İBİŞ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 100]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Digər adı Ayıçınqılı. Ayıçınqılı kəndi İbiş adlı şəxsə (mülkədara) məxsus olduğuna görə kənd onun adını daşıyır. XIX əsrdə Qars əyalətində İbiş kənd adı (133, 100) ilə eynidir.

İBRAHİMABAD - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. İrəvan əyaləti vaxtında Sürməli mahalı İqdır adlanırdı [170, 18]. Ona görə ki, bu kənd 1782-ci ilə aid mənbədə "İqdır=Maqa" kimi də qeyd olunur. İbrahim adlı şəxs (mülkədar) İqdır=Maqa kəndinin yiyəsi olduğuna görə kənd də onun adını daşıyır.

İBRAHİMKƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 40).

İBRAHİMSULTAN QIŞLAĞI - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169,64].

İBRAHİMHACILI - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [170, 19].

İQDIR - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 100). 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [23, 66]. Səlcuq oğuzlarının İqdır tayfasının adındandır. Türkiyədə İqdır adlı 42 kənd vardır (34, 423).

İQDIR - MOVA - İrəvan qubernyasının Sürməli qəzasında kənd adı (133, 100).

İYDƏLİ - İrəvan xanlığının Sərdarabad mahalında kənd adı [159]. Mənbədə İqdalu kimidir. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1947-ci ildə kənd ermənicə Pşatavan adlandırılmışdır. 1728-ci ilə aid mənbədə İgidli kimi [170, 7] göstərilir və onun Reyhanlu tayfasına mənsub olması qeyd edilir [170, 7].

İYDƏLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 100). Mənbədə İqdalu kimidir (yenə orada). XIX əsrin sonlarından sonra mənbələrdə kəndin adı çəkilmir. İydəli dağının adı ilə adlanmışdır.

İYDƏLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı (133, 100).

İYDƏLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında qışlaq adı (133, 100). Qeyd edilməlidir ki, XIX əsrin 80-cı illərində Zəngəzur qəzasında Birinci İydəli (başqa adı Fərəcbəyli) və İkinci İydəli (başqa adı Şamovlu) kəndləri də vardı (103, 154). XIX əsrin sonlarından sonra qışlağın adı mənbələrdə çəkilmir. XIX əsrin 80-ci illərinə aid məlumata görə Gilataq kəndindən yaranmış obalardan (Kiçik Gilətaq,

İgid Əli, Qarabaş və Qovuşuq) biridir (103, 152). Qışlaq "İydəlik" adlı yerin adındandır.

İYNƏDİZ - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [23, 57]. Mənbənin başqa yerində İynəviz kimidir (yenə orada). XIX əsrdə Qars əyalətində İqnazor kənd adı (133, 100) ilə sıra təşkil edir. Türk dillərində əqin “təpə” (126, 637) və farsca diz “qala” sözlərindən ibarətdir.

İYNƏDİR - 1728-ci ildə İrəvan əyalətinin Göyçə nahiyəsində kənd adı (23, 56). Türk dillərində əqin “təpə” və tör “dağ örüşü” sözlərindəndir.

İYNƏLİ - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (23, 58).

İYNƏLİ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 85). "Quzuçular kəndinin yaxınlığında yerləşir (yenə orada) əhalisi Quzugüdənli əşirətindəndir" (yenə orada).

İYNƏDUS - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı. 1728-ci ilə aid türkcə mənbədə İynəduz kimidir (23, 80). "Güllücə kəndinin yaxınlığında yerləşir" (yenə orada). 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. 1728-ci ilə aid mənbədə Egnəduz kimidir [170, 32].

İYLİ QARAKİLSƏ - Amasiya rayonunda kənda adı. 1935-ci ildə İlli, 1978-ci ildə isə ermənicə Hoqmik adlandırılmışdır.

İKİNCİ AYLANLI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Bax: Aylanlı.

İKİNCİ ARIQLI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

İKİNCİ BAYANDUR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) kənd adı [133]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Kənd ermənicə Vaqatur adlandırılmışdır.

İKİNCİ BƏHLUL - Talin rayonunda kənd adı. 1897-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır (6, 171). Əsl adı İkinci Bəhlulkənd.

İKİNCİ QARAKİLSƏ - Amasiya (Qızılqoç) rayonunda kənd adı. 1878-ci ildə əhalisi qovulmuş və ermənilər məskunlaşmışlar(6, 171). 1935-ci ildə ermənicə Dzoraşen adlandırılmışdır.

İKİNCİ QULUBƏK - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1919-cu ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır.

İKİNCİ GƏKƏLİ - Zəngəzur qəzasının Sisyan mahalında kənd adı. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır.

İKİNCİ ƏRHACI - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

İKİNCİ ÇATQIRAN - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. XIX əsrin ortalarında Çatqıran (bax) kəndindən yaranmış məntəqədir. XIX əsrin 70-ci illərində kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər və yezid kürdləri yerləşdirilmişdir.

İGİDLİ - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [23, 47]. "Əhalisi Reyhanlı camaatındandır" (yenə orada).

İGNƏLƏR - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 128]. Mənbədə kəndin həm də Güləcik adlandığı qeyd olunur (yenə orada). Bax: İynəli.

İLANDAQ - İrəvan əyalətinin Aleksandropol qəzasında dağ adı (133, 101). XIX əsrdə Tiflis quberniyasının Axalkalak qəzasında İlandaq, Bakı quberniyasınnı Cavad qəzasında İlandaq, Naxçıvan qəzasında İlanludaq (133, 101) dağ adları ilə mənaca eynidir.

İLANLI - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. 1728-ci ildən məlumdur [170, 16]. Azərbaycanda və Ermənistanda "ilan" komponentli çoxlu coğrafi adlar vardır. Azərbaycanda İlanlıdağ (Füzuli r-nu), İlanlı Güney (Kəlbəcər r-nu), İlanlı təpə (Ağdam r-nu, Aşağı Qərvənd k.), İlanlı dərə (Babək, Qazax, Gədəbəy, Masallı r-nları), İlanlı Qobu (İmişli r-nu), İlandağ (Naxçıvan), İlanqaya (Laçın r-nu) və b. Bu toponimlərdə "ilan" sözünün konkret mənalarını ayırd etmək çətindir. XIX əsrdə Qars əyalətinin Qars mahalında üç İlanlı kənd adı [133, 101] ilə mənşəcə eynidir. İlanlı kəndin əsasını qoymuş tayfa adıdır. Bu tayfa qədim türk mənşəli Alan tayfasına bağlıdır. Şimali Qafqazda yaşayan qaraçayların və balqarların özünüadlandırmaları "Alan"dır. Ehtimal ki, alanlar eranın əvvəllərində hunların, ya da balqarların tərkibində gəlmişlər. Türkmənistanda Ersari tayfasının bir qolu İlanlar adlanır (orada Yılanlı və İlan dağ adı barədə bax: S.Atanıyazov. Göst. lüğəti. S. 173. Azərbaycanda İlanlı (Şamaxı r-nu) kənd və İlandağ (Culfa r-nu) dağ adı ilə mənşəcə eynidir.

İLANLI - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 134]. Mənbədə kəndin həm də Ağbulaq adlandığı qeyd olunur (yenə orada).

İLANLI - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [23, 61].

İLANLI - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 89]. "Təkavert kəndinin yaxınlığında yerləşir" (yenə orada).

İLANLI - XIX əsrdə Qars əyalətinni Qars dairəsində (sonra Amasiya r-nunda) kənd adı (133, 101). 1946-cı ildə kənd Çaybasar adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. XVII əsrdən məlumdur [150, 190]. 1991-ci ildə kənd ermənicə Arevşat adlandırılmışdır.

İLANQIŞLAQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. Ehtimal ki, "ilan olan yerdə qışlaq" mənasındadır.

İLANÇALAN - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir [159]. XIX əsrin II yarısında Eçmiadzin qəzasında kənd kimi qeyd olunur (133, 101). 1935-ci ildə kənd ermənicə Ardaşavan adlandırılmışdır. Yaxınlıqdakı "İlan piri" ziyarətgahının adındandır.

İLDIRIMTUTAN - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı (133, 101).

İLƏNÇİ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 130]. Əsli İlançı.

İLİCƏK - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 134].

İLGƏVƏNG - XVIII əsrin ortalarında İrəvan əyalətinin ermənicə Qeqarkuni adlanan mahalında (XIX əsrdə Novobayazid qəzasında) kənd adı [150, 361]. Türk dillərində alqa

“dağın gündüşən tərəfi” (126, 47) və vəng “kilsə”, “monastır” sözlərindən ibarətdir.

İLKƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 127].

İLLİ - Amasiya rayonunda kənd adı. 1878-1880-cı illərdə kəndin azərbay-canlı əhalisi çıxarılmış və Türkiyədən gəlmə ermənilər yerləşdiril-mişdir. Başqa adı Elli-Qarakilsə (6, 169). 1978-ci ildə kənd ermənicə Hoqmik adlandırılmışdır. "Ellidərə" dərəsinin adındandır.

İLMƏZLİ - Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Taşir rayonunda) kənd adı [133, 102]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Mənası məlum deyil.

İLXIQORUĞU - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 102]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Kənd "İlxı qoruğu" yerinin adı ilə adlanmışdır. İlxı qoruğu isə İrəvan xanlarının at ilxılarının saxlandığı yerin adıdır.

İLXIYABA - İrəvan quberniyasının Aleksandropol qəzasında (sonra Axuryan r-nunda) kənd adı (133, 102). 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 171). 1946-cı ildə kənd ermənicə Haykabats adlandırılmışdır. XIX əsrə aid ədəbiyyatda kəndin adı (133, 102) "İlxı Abi" kimidir. "İlxı Abi", yəni Abı adlı şəxsə məxsus at ilxısının saxlandığı yerin adını əks etdirir.

İLXIÇI - XVIII əsrdə İrəvan əyalətində kənd adı. Həmin əsrə aid ermənicə mənbədə qeyd olunur ki, kənd İrəvan xanlarının at ilxılarının saxlandığı yerdə yaranmışdır {150, 106].

İMAMARX - 1769-cu ildə İrəvan əyalətində kənd adı [150, 183]. İrəvan xanı Səfixanın Qarasudan çəkdiyi arxın adıdır [150, 227]. Bax: Xatunarx.

İMAMVERDİ QALASI - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı (bax: 159). 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır [159]. Kənd yaxındakı "İmamverdi qalası" qala xarabalığının adındandır.

İMANŞALU - İrəvan xanlığının Qarnibasar mahalında kənda adı [159]. 1590-cı ildən məlumdur [169, 206]. 1728-ci ilə aid mənbədəİmanşalı kimidir [23, 49]. 1828-1832-ci illərdə kənddə xaricdən gəlmə ermənilər də yerləşmişlər. 1886-cı ildə kəndin əhalisi azərbaycanlılardan və ermənilərdən ibarət idi. 1918-ci ildə azərbaycanlılar qovulmuşdur [11, 164]. 1935-ci ildə kənd ermənicə Mıxçyan adlandırılmışdır. İmanşalı "İman nəsli (tirəsi)" mənasındadır.

İMİRLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 102]. 1878-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə yezid kürdləri yerləşdirilmişdir (6, 171). 1950-ci ildə kənd ermənicə Tutucur adlandırılmışdır. Orta əsrlərdə Anadolunun qərbində yaşamış yeryüklərin Əmirli tayfasının [95, 11] məskunlaşması nəticəsində yaranmışdır. Ondan əvvəl Əmirlu tayfası Ağqoyunlulara mənsubdur (34, 160). Mənşəcə Səlcuq oğuzlarının Eymur tayfasının adını əks etdirir. XIX əsrin əvvəllərində Qarabağda yaşamış İmirli (əsli Eymurlu) tayfasının adı ilə mənşəcə eynidir. XIX əsrdə Şimali Qafqazda İnaldaq (133, 102) və Azərbaycanda Hinaldaq adları ilə əlaqəsi məlum deyil. Bax: Genəli.

İMİRXAN - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 102]. 1728-ci ilə aid mənbədə Şirakel nahiyəsində kənd adı [23, 129]. 1878-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir (6, 172). 1940-cı ildə kənd ermənicə Saratak adlandırılmışdır.

İNALLI - Nairi r-nunda kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır (6, 172). XIII əsrdə Suriyada (Şamda) yaşayan və ona görə Şamlu adlanan türk tayfalarının bir qolu İnallı idi (34, 175).

İNQALA - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir. Digər adı Kiçik Haxis [20, 227]. Kənd yaxınlığındakı "İnqala" qalasının adı ilə adlanmışdır. Qalanın adı türk dillərindəki in-"mağara" [126, 134] və qala sözlərindən ibarətdir. Azərbaycanda Enlidağ (Goranboy rayonu) dağ və İncədağ (Şəki rayonu) dağ adları ilə mənaca eynidir.

İNQALA - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 128].

İNƏKBULAQ - 1590-cı ildə Rəvan əyalətinin Abnik nahiyəsində yaylaq adı [169, 258]. Əsli İn-Aqbulaq. Qədim türk dillərində in "mağara", "heyvan yaşayan mağara" (bax: 93) və Aqbulaq sözlərindən ibarətdir. Mağara yaxınlığında aqbulaq mənasındadır.

İNƏKDAĞ -İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 102]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Digər adı Yenikənd [20, 287].

İNƏKDAĞ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133]. XIX əsrdə Qafqazda (Borçalı, Cavad, Yelizavetpol və Novobayazid qəzala-rında) 4 İnəkdağ vardı (133, 102). Qədim türk dillərində in "mağara" və -nək (lək) şəkilçisindən ibarətdir. İnləkdağ, ”Mağaralı dağ” mənasındadır.

İNƏKDAĞ - İrəvan quberniyasının Novobayazid qəzasında iki dağın adı (133, 102).

İNƏKLİ - İrəvan xanlığının Karbibasar mahalında kənd adı [159]. 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir. Ehtimal ki, gətirilmə addır. XVII əsrin I yarısında Şərqi Anadoluda İnak kəndinin adı məlumdur [91, 19].

İNƏKLİ - İrəvan xanlığının Sərdarabad mahalında kənd adı [159]. XIX əsrə aid ədəbiyyatda İnəklu kimidir (133, 102). 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Ehtimal ki, əhalinin hərəkəti ilə Şərqi Anadoludan gətirilmə addır.

İNƏKLİ - İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23, 101].

İNCƏ - İrəvan xanlığının Dərəkənd Parçenis mahalında kənd adı [159]. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. 1728-ci ilə aid mənbədə Quzugüdənli elinə məxsus məzrənin (əkin yerinin) adı kimi qeyd olunmuşdur [170, 17]. Məzrə isə ehtimal ki, Qıpçaqların Əncə tayfasının adındandır. Bax: Karança, Əlincə, Zərincə.

İNCƏ - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 41].

İNCƏ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 106).

İNCƏ - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [170, 7].

İNCƏVAR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı (103, 154). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. 1922-ci ildə geri qayıtmış əhali qonşu Xələc kəndində yerləşdirilmişdir [20, 144].

İNCƏDƏRƏ - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı. Digər adı Gəncəli [169, 222]. Qıpçaqların Əncə tayfasının adından və XIX əsrdə Azərbaycan dilində var "yer", "yaylaqda və qışlaqda bir elə mənsub ərazi" sözlərindən ibarətdir.

İPƏKLİ - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 207]. İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 103).1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır [11, 164].

İRABAD - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra kəndin adı mənbələrdə çəkilmir. Türk dillərində ir "dağın gündüşən tərəfi" [126, 335], "dalğavarı dağ zirvəsi" və bət "yamac", "aşırım", "üz" (143, IV, 2, 1617) sözlərindən ibarətdir. "İr" sözü Azərbaycanda Kox-İr (Qasım İsmayılov rayonu), Qara-İr (Quba rayonu), təhrif olunmuş şəkildə Sarı-Yer (Kəlbəcər rayonu) və s. dağ adlarında da əksini tapmışdır. Toponimin "bət" hissəsi isə, VII əsrdə Albaniyanın Artsak əyalətində Aqbed ("Alban tarixi", kitab, fəsil), 1283-cü ilə aid ermənicə Xotavəng kitabəsində, Haqbat [82], (XVII əsrə aid erməni mənbəyində - Axpat kimidir - 57), indi Azərbaycanda Ağbatxeyir (bu barədə bax: Bulxeyir), Girdəbad (Ağsu rayonu), Aqnabat (Qazax rayonunda dağ adı, türk dillərində əqin "təpə", "yüksəklik" - [126, 637] və bət sözlərindən), Şahnabat (Quba rayonunda, Şahdağın ətəyində düzənlik, farsca şax, şəx, “dağ beli” və bət sözlərindən), Salavat (Qəbələ və Quba r-nın arasında aşırım adı), Dağlıq Qarabağda Kasabet kənd adı, Baran-Bet dağ adı, Xoşabet (İsmayıllı r-nu) və Çarçenbet (Laçın r-nu) dağ adlarında əksini tapmışdır.

İRAQANNI - İrəvan quberniyasının İrəvan qəzasında qışlaq adı [133, 103]. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir. Türk dillərində ir (bax: İr-Abad) sözündən və Aqanni (əsli Aqinli) (bax: Aqin) elinin adından ibarətdir.

İRANİ QARA - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 43]. Əsli "Arani Qara", yəni "Qara aranı (qışlağı)".

İRƏVAN - Ermənistanın indi paytaxtının adı. VI-VII əsrlərdən məlumdur. Onun guya Urartu mənbələrində adı çəkilən Yerebuni qalasının adından ibarət olması fikri uydurmadır. Toponim türk dillərində ir "dağın gündüşən tərəfi", "dalğavarı dağ zirvəsi" və farsca van “yer” sözlərindən ibarətdir. Adın "Yerevan" forması İrəvan adının ermənicə yazılışıdır. İrəvan adı ermənicə Erivan kimi tələffüz olunduğuna və qədim erməni dilində “e” səsindən əvvəl “y” səsinin əlavəsi və bu səsin “ye” kimi oxunması qaydasına görə (Bax: G. Tumanən. Drevne armənskiy əzık, s. 24) toponim Yerevan formasındadır.. XIX əsrin əvvəllərində İrəvan Təpəbaşı və Dəmirbulaq hissələrindən ibarət idi. Şəhərin ətrafındakı yer adları bunlar idi: Abbasdərə, Keşaqlı, Abaqayat, Qızılqaya, Dərəbağ, Dərəkənd, Dalma, Noraqeq, Xosrovabad, Səbzik yeri (159, 463).

İRƏKƏND - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [23, 61].

İRİND - İrəvan xanlığının Talin mahalında kənd adı [159]. 1590-cı ilə aid mənbədə İrəvan əyalətinin Şərabxana (sonrakı Dərələyəz) nahiyəsində Rind kimidir [169, 27]. 1727-ci ilə aid mənbədə İrəvan əyalətinin Dərələyəz nahiyəsində Rənd kimidir [170, 15]. XIX əsrin axırlarında Şərur-Dərələyəz qəzasında Rind həm kənd, həm köç, həm də xaraba kənd adları məlumdur (133, 212). Əsli: Rəndi. Türk dillərində ran "otlaq" (bax: 108, 186) və -di (-li) şəkilçisindən ibarətdir. Sonralar danışıqda adın əvvəlinə "i" səsi artırılmışdır. Qazaxstanda Randı toponimi ilə (108, 186) mənaca eynidir. 1912-ci ildə əhalisi Türkiyəyə köçmüşdür. Sonra kənddə İrandan gəlmə ermənilər yerləşdirilmişdir (6, 172). Danışıqda əvvəlinə "i" səsi əlavə olunduğuna görə əsli Rənd. Bax: Rəndəmal.

İRİMLİ - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək mahalında kənd adı [170, 7]. Mənbədə kəndin həm də Uzenli adlandığı və onu Şaktabad camaatına məxsus olması göstərilir [170, 7]. Türk dillərində urema "çay sahili meşəlik (kolluq)" sözündəndir.

İRMİS - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı [133, 104]. Mənbədə İrimis kimidir (133, 104). 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Artaşat adlandırılmışdır. Əsli Urumis. Urumis isə Rum (Bizans) toponimindən və qədim türk dillərində "s" cəm şəkilçisindən ibarətdir. Bax: Hərom və Xurma. Ola bilər topnim Ahuramazda adının təhrifidir. Bax:Aramaz, Armaz, Armus və Ərəmis.

İRXANLI - İrəvan quberniyasının Aleksandropol qəzasında qışlaq adı (133, 104).

İSAXANLI - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 145]. Mənbədə kəndin həm də İsxaklı adlandığı qeyd olunur (yenə orada).

İSKƏNDƏRABAD - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı. 1918-ci ildə əhalisi daşnaklar tərəfindən qovulduqdan sonra kənd dağılmışdır. İskəndər şəxs adından və abad "kənd" sözündən ibarətdir.

İSMAYILBƏYLİ - 1590-cı ildə Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [169, 270].

İSMAYILLI - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [170, 19].

İSTEFA - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində (XIX əsrdə Sürməli qəzasında) kənd adı [170, 17]. Mənası məlum deyil.

İSTİ - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [170, 7].

İSTİNAX ÇIRAQLI - İrəvan xanlığının Sürməli mahalında kənd adı (159). 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Qədim türk mənşəli Çiraqlu (bax) tayfasının adını əks etdirir. Bax Çiraqlı.

İSTİSU - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 105). XIX əsrin ortalarında kənddə ermənilər yerləşdikdən sonra Cermuk ( "İstisu") adlandırılmışdır. 1988-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuşdur.

İTQIRAN - İrəvan quberniyasının Dərələyəz qəzasında kənd adı. 1590-cı ilə aid mənbədə Rəvan əyalətinin Məvaziyi-Xatun nahiyəsində İtqıran kimi qeyd olunmuşdur [169, 133]. 1728-ci ilə aid mənbədə Hüseyn vələdi Mövlud adlı şəxsə ( mülkədara) aid kənd olduğu göstərilir(170,165). 1935-ci ildə kənd guya pis səsləndiyinə görə "Gülüstan" adlandırılmışdır.1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Toponimin birinci komponenti qıpçaqların Et tayfasının adından ibarətdir. 1185-ci ilə aid bir rus salnaməsində Cənub-Şərqi Avropa çöllərində poloveslərin (qıpçaqların) bir tayfasının adı Etebiçi ("Et etnonimindən, obasözündən və rus dilində əlavə olünmuş içi pat-ronimik şəkilçisindən) kimi qeyd olunmuşdur(A.İ.Popov. Nazvaniə narodov SSSR, L., 1973, s.130). Bu tayfanın adı Etil (Et eli, yəni tayfası) kəndinin adında da (bax) əksini tapmışdır. 1588-ci ilə aid mənbədə Gəncə qəzasının Kürək aranı (yəni Kürəkçay sahilində qışlaq) adlı yerdə İdlu (Etlu etnoniminin təhrif forması) adlı bir elin qışlaması qeyd olunur (167,216). Mahmud Qaşqari oğuz tayfalarından danışdıqda İt-Peçeneq tayfasının da adını çəkmişdir. Toponimin qırankomponenti isə türk dillərində kuren, kuran, hərbi düşərgə, maldar elin müvəqqəti dayanacaq yeri(126,117) sözündən ibarətdir. (Bu söz barədə bax: Budaqov L.Z. II, 152; Radlov V.V. II, 2, 1455). XIII əsr müəllifi Rəşidəddin yazır ki, hər hansı bir maldar el bir yerdə dayandıqda ortada başçının (xanın) çadırı yerləşmək etibarilə alaçıqlardan dairəvi formada yaradılan dayanacaq kuran adlanır. Bir qayda olaraq hər kuran 1000 alaçıqdan ibarət olurdu ( Raşidad Din. Sbornik letopisey. Tom I, kn. I, M., L.,1952, s. 18). Kuren, bir qayda olaraq qohum ailələr qrupunu birləşdirirdi və başında xan dururdu (bax: S. P. Pletneva. Polovüı. M-1990, s.

45). XII əsrə aid rus mənbəyində qıpçaqlarda İtoqlı xan adı da qeyd olunmuşdur (yenə də orada, 147). XIX əsrdə Şimali Qafqazda Ter əyalətinin Nalçik dairəsində İt- Sırtı dağı, İtkolu çay adı, həmin əyalətin Qroznı dairəsində Et-Kala (133, 303), Azərbaycanda Yelizavetpol quberniyasında İt-yan dağ adı (133, 105), Tiflis quberniyasının Qori qəzasında İdleti (İdli və gürcücə eti "yer" sözlərindən) (133, 101), bəzi rayonlarımızdakı Ətcələr (əsli Etcələr, yəni Et tayfasından olanlar) kənd adları və XIX əsrdə Quba qəzasında Etilər dağı (133, 303), oronimi bu etnonimlə bağlıdır. Kəndin adı Et tayfasının düşərgəsi mənasını verir. Bax: Etil və İt-Köy.

İTKÖY - İrəvan xanlığının Sərdarabad mahalında kənd adı (bax: 159). 1828-1832-ci illərdə əhalisi qovulmuş və kənd dağıdılmışdır [159]. Qıpçaqların Et tayfasının adından və Türkiyə türkcəsində köy-kənd sözündən ibarətdir.

İTLİCƏ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 125]. Qıpçaqların Et (İt) tayfasının adını əks etdirir. "Kiçik İtli" mənasındadır. Bax: Etil və İtqıran.

İŞXAVƏNG - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 36).

YAVƏRKƏNDİ - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1920-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]..

YAQDAN - Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Stepanavan rayonunda) kənd adı [133, 304]. İstəxri (X əsr) Bərdə yaxınlığında Yəqtan toponimini qeyd edir [13, 88]. Altay dillərində yaq "şamlıq", "şam ağacları" (bax: Yaqlı) və mənası məlum olmayan "tan" sözlərindən ibarətdir. Toponimin "tan" hissəsi Albaniyada Tancik (yəni "Kiçik Tan"), 1727-ci ildə Dağlıq Qarabağda Müsəlman-Tan Xırxatan (əsli Xırxa-Tan, türk dillərində kırka "şaxələnmiş dağ beli", "bərk süxurlu təpə" sözündən, məsələn, Şəki-Zaqatala bölgəsində Xırxa-

Tala kənd adı və s.) və Bulu-Tan (ermənilər 1828-ci ildə orada yerləşdikdən sonra kənd ermənicə Plıtan adlandırılmışdır), erkən orta əsrlərdə Artsakda Koş-Tan (Alban tarixi"ndə ermənicə yazılışda Kost kimidir) adlarının da tərkib hissəsidir. Toponimin ikinci komponenti bəlkə də qədim türk mənşəli ton (q) "təpə" [126, 557] sözünün fonetik şəklidir. Bax: Aqdan.

YAĞAR - SADIQ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında dağ adı (133, 304).

YAQLI - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında, sonra İrəvan quberniyasının Sürməli qəzasında (133, 304) kənd adı. XIX əsrin sonlarındansonra kəndin adı mənbələrdə çəkilmir.

YAQLI - Qars əyalətinin Ərdahan dairəsində dağ (133, 304). XIX əsrdə Şimali Qafqazda Dağıstan əyalətinin Samur dairəsində Yaqli-Güney (dağ adı), Şamaxı qəzasında Yaqlı-Təpə (dağ adı), Kutaisi quberniyasının Şaporan qəzasında Yaqlı-Təpə (dağ adı), Zəngəzur qəzasında (133, 304) Yağlıdərə (çay adı), Qazax qəzasında Yağlıçay, Qarabağda Yaqlavənd (kənd adı) [133], Ordubad rayonunda Yaqlıdərə, XIX əsrdə Türkiyədə Yağlıdərə [93, 331], Türkmənistanda Yaqlı olum (olum "keçid") (bax: M. Qeldixanov. Qeoqrafiçeskaə realiə v toponimin Turkmenistana. "Toponimika v reqionalğnıx qeoqrafiçeskix issledovaniəx". M. 1984, s. 19) toponimləri ilə mənaca eynidir. XVII əsrə aid ermənicə mənbədə Şərqi Anadoluda Yağlı-Boğaz yer adı qeyd olunur [90, 19]. Orta əsrlərdə Anadoluda Yağlı-Bayat kənd adı da məlumdur [36, 404]. Bu toponimlərin bəziləri monqol dilində yağ "şibyə ilə örtülmüş şam ağaclığı", "şamlıq" [126, 646] sözündəndir. Azərbaycanda İsmayıllı rayonu Köhnə-Dahar kəndində Yağlıbulaq hidronimindəki "yaq" sözü ilə mənaca eynidir. Ehtimal etmək olar ki, bəzi toponimlərdə isə"yaq" sözü həm də qaramalın südünün çox yağlı olmasını təmin edən otlaq mənasındadır.

YAQLI DAŞ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 223]. Digər adı Seyitlər. Bax: Yaqlıdağ.

YAQLICA YAYLAĞI - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 194]. "Yağlı otlu yaylaq" mənasındadır.

YAQMURLU - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı [23, 43]. XIX əsrdə Qars əyalətinin Ərdahan dairəsində Yaqmuroğlu kənd adı (133, 304) ilə eynidir. Ehtimal ki, tayfa adıdır.

YAQUBİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

YAQUBLU - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 305]. 1878-ci ildə kənddə Türkiyədən gəlmə ermənilər də yerləşdirilmişdir. 1945-ci ildə kənd Quqark adlandırılmışdır. 1980-cı ildən Quqark rayonunun mərkəzidir. 1988-ci ildə azərbaycanlı əhalisi qovulmuşdur. XIX əsrdə Borçalı qəzasında Yaqublu və Nuxa qəzasında Yaqublu kənd adları (133, 305) ilə eynidir.

YAQUBLU - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 305]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Digər adı Təzə Kələş.

YAQUBLU - Quqar r-nunda kənd adı. 1918-ci ildə əhalisi müxtəlif yerlərə köçmüşdür. Yerində ermənilər oturmuşlar. 1946-cı ildə kənd ermənicə Meğrut adlandırılmışdır (6, 172).

YAQUT DƏRVİŞ - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı. Digər adı Çəmən-Göy [169, 236].

YAQUT DƏRVİŞ - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı. Digər adı Bazarcıq [169, 237].

YAYLAXLI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı (133). Digər adı Mehdikənd. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

YAYCI - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (23, 57). Türk mənşəli Yaycı tayfasının adını əks etdirir. XIX əsrdə Cənubi Qafqazda mövcud olmuş 8 Yaycı kənd adından (133, 305) biridir.

YAYCI - İrəvan xanlığının Sürməli mahalında kənd adı (159). 1728-ci ildən məlumdur (170, 15). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Oğuzların Yaycı tayfasının adındandır.

YAYCI - İrəvan xanlığının Qırxbulaq mahalında sonra İrəvan quberniyasınnı İrəvan qəzasında (133, 305) kənd adı. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd kimi qeyd olunur (23, 80). "Kamal kəndinin yaxınlığında yerləşir" (yenə orada). 1828-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır (159). Mənbələrdə 1660-cı ildən məlumdur [135, 87].

YAYCI - İrəvan xanlığının Dərəçiçək mahalında [159], sonra İrəvan əyalətinin Novobayazid qəzasında (136, 64) kənd adı (133, 305). XIX əsrin 70-ci illərində kəndin əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi ermənilər idi (136, 64). 1978-ci ildə kənd erməncə Tsovabert adlandırılmışdır. XVII əsrə aid erməni mənbəyinə görə adı Yaycılar idi [150, 362].

YAYCI - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində (170, 305), sonra İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında (133, 305) kənd adı.

YAYCI - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [23, 66].

YAYCI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) kənd adı [133, 305]. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1968-ci ildə kənd ermənicə Qarcis adlandırılmışdır.

YAYCI MƏZRƏSİ - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 195].

YALAQLI - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı (23, 61).

YAMAQLI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Monqol dilində yam-"poçta məntəqəsi" və Azərbaycanca "ağıl" (qoyun ağılları) sözlərindən ibarətdir.

YAMANCALI - İrəvan xanlığının Qarnibasar mahalında (bax: 159), sonra İrəvapn quberniyasının İrəvan qəzasında (133, 305) kənd adı. 1728-ci ilə aid mənbədə Yamançalı kimidir [170, 82]. 1818-ci ildə kəndin əhalisi qovulmuş (11, 164) və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ildə azərbaycanlıların bir qismi qayıdıb. 1967-ci ildə kənd ermənicə Dextsut adlandırılmışdır. Mənası məlum deyil.

YANIQ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 306]. Mənbədə Yanıx kimidir (yenə orada). 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. XX əsrin 30-cu illərində kənd ləğv edilmişdir. Yaxınlığındakı "Yanıq qalanın" ("Yandırılmış qala" mənasında) adı ilə adlandırılmışdır.

YANIQ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 306]. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir.

YANIQPƏYƏ - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Krasnoselsk rayonunda) kənd adı [133]. 1978-ci ildə Meşəkənd adlandırılmışdır. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Kənd XIX əsrin ortalarında qışlaq əsasında yaranmışdır. Qışlaq isə "Yanıq pəyə" ("yandırılmış pəyə") yerinin adını əks etdirir.

YANTƏPƏ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan mahalında) dağ adı [133, 306].

YANŞAQ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı [23, 120].

YAPALAQLI - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Krasnoselo rayonunda) qışlaq adı. XX əsrin 30-cu illərində kənd dağılmışdır.

YAPPA - İrəvan xanlığının Vedibasar mahalında, sonra İrəvan quberniyasının İrəvan qəzasında (133, 306) kənd adı. 1918-ci ildə əhalisi qovulmuşdu (11, 164). Sonra az hissəsi geri qayıtmışdı. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir.

YAPPA - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. XX əsrin 30-cu illərində kənd dağılmışdır.

YARAQLI BUCAQ - 1590-cı ildə Rəvan əyalətinin Vedibasar nahiyəsində kənd adı [169, 226].

YARALIQULU - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində Damcılı kəndinə məxsus əkin yerinin adı (23, 110).

YARASIZ - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində Şirvancıq kəndinə məxsus məzrənin adı (23, 113). Türk dillərində yar "çay sahili qaya" və saz "qamışlıq" sözlərindən ibarət adın təhrif formasıdır.

YARBAŞI - İrəvan xanlığının Abaran mahalında kənd adı [159]. 1590-cı ilə aid mənbədə [169, 236] və 1728-ci ilə aid mənbədə (23, 111) Yarbaş kimidir. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Türk dillərində yar-"yarğan", "çay sahili qaya" və başı (üstü) sözlərindəndir. 1728-ci ilə aid mənbəyə görə Abaran kəndindən bir qrup ailənin "Yarbaş" ("Yarğan başı") adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır [170, 101].

YARDƏSTİ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində Şahab kəndinə məxsus məzrənin adı (23, 77). Bəkir İbrahim oğluna məxsus idi (yenə orada). Türk dillərində yar "çay kənarı qaya", "yarğan" və farsca dəstə "tərəf" sözlərindən ibarətdir.

YARDMAZ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 306]. Əsli Yardımez. Türk dillərində yar-"sıldırım", "yarğan",-dı (lı) şəkilçi-sindən və mes, mez "dağın gündüşən tərəfi" (bax: Qorxmaz) sözlərindən ibarətdir. XIX əsrdə Azərbaycanda Cavanşir qəzasında Yartmaz dağ adı [133] ilə mənaca eynidir.

YARƏLİ DƏRVİŞ - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı [169, 234].

YARIMCA - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı [169, 234]. Orta əsrlərdə yarımca dedikdə müəyyən bir kəndin əhalisinin müəyyən hissəsinin kənarda məskunlaşması nəticəsində məntəqə nəzərdə tutulurdu. Yarımca vergini ana kəndlə birgə ödəyirdi.

YARIMCA - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində məzrə adı [170, 99]. Günbədli (bax) kəndinə məxsus məzrə yerinin [170, 99] adıdır.

YARPIZLI - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 306]. Mənbədə Yarpuzlu kimidir (yenə orada). 1948-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüş və ermənilər yerləşdirilmişdir. 1967-ci ildə kənd erməncə Lçavan adlandırılmışdır. XIX əsrin ortalarında qışlaq əsasında yaranmışdır. Qışlaq isə " Yarpızlı" adlı yerin adı ilə adlanmışdır.

YARTƏPƏ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında dağ adı (133, 306). Türk dillərində yar (yarğan) "çay sahili sıldırım" və azərbaycanca təpə sözlərindən ibarətdir.

YARXARAB - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170, 42]. Üstü xarabalıq yar (çay sahili qaya) mənasındadır.

YARXARAB - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [23, 84]. Digər adı Qarnıyırıq (bax: Qarnıyarıq) və Yolkeçən (yenə orada).

YASAQLI - İrəvan xanlığının Karbibasar mahalında kənd adı [133]. 1590-cı ilə aid mənbədə adı çəkilmir [169, 92]. XIX əsrin ortalarından sonra mənbələrdə qeyd olunmur. 1727-ci ilə aid mənbədə Yazaqlı kimidir [170]. Türk dillərində yazı-"çaykənarı düzən" və ağıl (qoyun ağılı) sözlərindən ibarətdir. Qışlaq əsasında yaranmışdır.

YASAVUL - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 93]. 1728-ci ilə aid mənbədə Şirakel nahiyəsində kənd adıdır [23, 132]. "Başqa adı Ağkilsə-Qədim" (yenə orada). 1878-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 172). 1945-ci ildə kənd erməncə Hovunk adlandırılmışdır. 1588-ci ilə aid mənbədə Qarabağ sancağının "İncərud aranında" (yəni "İncərud qışlağında") Yasaul adlı tayfanın yaşaması qeyd olunur [167, 214]. Səfəvilər

dövründə fərmanı yaxud qanunu həyata keçirən şəxs yasavul adlanırdı. Yasavul (əsli monqolca yasaul) həm də məclis və mərasimlərin rəisi idi.

YASAUL - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133, 93]. Türk dillərində yas (yastan) "dağ döşündə yastı yer" və ul "yüksəklik", "dağ" (147, I, 594) sözlərindən ibarətdir. Azərbaycanda Yasamal-"dağ döşündə yerləşən, çox geniş olmayan az mailli sahə" [9, 158] toponimi ilə mənaca eynidir.

YASAUL - İrəvan quberniyasının Aleksandropol qəzasında xaraba kənd adı (133, 93).

YASAULLU - 1590-cı ildə İrəvan əyalətinin İrəvan qəzasında kənd adı (169, 64).

YASTIYOLUM - XVIII əsrin əvvəllərinə aid ermənicə mənbədə Göycə mahalında kənd adı [150, 361]. Azərbaycan dilində yastı (yastan) [bax: 8] və türk dillərində olum-"keçid" sözlərindən ibarətdir. Bax: Əskülüm.

YATDIŞ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. 1919-cu ildə əhalisi qovulmuş, sonra kənd dağıdılmışdır. Mənası məlum deyil.

YAXAÇUXURU MƏZRƏSİ - 1590-cı ildə Rəvan əyalətinin Qarni nahiyəsində kənd adı [169, 196]. "Çayın yaxasındakı çüxurda əkin sahəsi" mənasın-dadır.

YAXŞICAN - 1590-cı ildə Rəvan əyalətinin Qarni nahiyəsində kənd adı [169, 204]. Mənbədə kəndin həm də Tağıbəyli adlandığı qeyd olunur (23, 100).

YAŞIL - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 307]. 1728-ci ilə aid mənbədə Karbi nahiyəsində kənd adı kimi qeyd olunmuşdur (23, 90). Həmin mənbədə Yeşil kimidir (170, 52). 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə yezid kürdləri yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Kakavadzor adlandırılmışdır.

YAŞILLAR - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 94].

YEQANLAR - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 91]. Yerli tələffüz forması Əkənlər. 1878-ci ildə kəndin əhalisi qovul-duqdan sonra 1880-cı illərdə Türkiyədən gəlmə ermənilər də yerləşdiril-mişdir (6, 170). 1946-cı ildə kənd ermənicə Arevşat adlandırılmışdır. 1949-cu ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür. Kəndin əsasını qoymuş nəslin adıdır. "Kitabi-Dədə Qorqud"da Qazılıq Qoca oğlu Yekən eponimi ilə səslənir. Qızılbaşların Ustaclı tayfasının Yeqan qolunun adındandır. XIX əsrdə Lənkəran qəzasında Yeqənkənd kənd adı (133, 91) ilə mənşəcə eynidir.

YEQUNYAĞIŞ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı [133, 91]. Oronimdəki "yağış" sözü "Yeğişe" şəxs adındandır.

YEDDİGÖL - Ələyəz dağ zirvələrindən birində yeddi kiçik gölün adı. Ermənicə Yotcur adlandırılmışdır (6, 126).

YEKDANKİ - XVIII əsrin ortalarında Göycə mahalında kənd adı [150, 361]. Fars dilində yek-"bir" və dəngə-"məhəllə", "oba" sözlərindən ibarətdir. Bax: Dudəngi və Sedəngi.

YEKNƏR - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 129).

YEKCUQ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 120).

YELQOVAN - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı. 1590-cı ildən məlumdur [169, 56]. 1829-cu ildə kənddə Türkiyədən gəlmə ermənilər yerləşmişlər. 1948-ci ildə kəndin Azərbaycanlı əhalisi Azərbaycana köçürül-müşdür. 1965-ci ildə kənd ermənicə Kotayk adlandırılmışdır.

YELDAĞI - Noyemberyan rayonunda qışlaq adı. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq ləğv edilmiş və qonşu Lənbəli kəndinə birləşdirilmişdir. Qışlaq ətəyində yerləşdiyi Yeldağının adını əks etdirir.

YELDOĞMAZ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 92]. XIX əsrin sonlarında kənd dağılmışdır. Yal (dağ yalı) və naməlum "Doqmaz" toponimindən ibarətdir.

YELLİDƏRƏ - 1590-cı ildə Rəvan əyalətinin Zar nahiyəsində kənd adı [169, 326].

YELLİDƏRƏ - Qukasyan r-nundan axaraq Arpaçaya tökülən çayın adı. Uz. 22 km. Axdığı "Yellidərə"nin adındandır (6, 119).

YELGİRMƏZ - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı (23, 69).

YELİNCƏ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 92).

YELİCƏ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Zəngəzurun Ermənistana mənsub hissəsində) dağ adı (133, 92).

YELLİDƏRƏ GÖYCƏ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 127).

YELLİCƏ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. Yerli əhali içərisində tələffüz forması İllicə. 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüş və kənd ləğv edilmişdir (133, 92).

YELLİCƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 92]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. XIX əsrdə İrəvan quberniyasında Yellicə adlı 5 kənd vardı (133).

YELLİCƏ QARAQOYUNLU - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 92).

YEMƏZLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan rayonunda) kənd adı [133, 92]. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmiş, əhalisi Xələc və Oxdar kəndlərinə köçürülmüşdür [20, 144]. Bax: Aşağı Yeməzli. "Amasiyalı" adının təhrifidir. Amasiyadan gəlmə ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Bax: Amasiya.

YENƏCƏK - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində [170, 89] kənd adı.

YENGİCƏ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında iki kəndin adı [133, 92]. 1946-cı ildə kənd Qanzak adlandırılmışdır. 1950-ci ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır. İlk dəfə 1728-ci ildə adı çəkilir [170, 14]. Keçmişdə Yengicə (türk dillərində yengi təzə, yeni) və Yenicə dedikdə oturaq kənddən bir qrup ailənin (yaxud bir nəsilin) həmin kəndə məxsus icma torpağında yaratdığı məntəqə nəzərdə tutulurdu. Yengicə (və Yenicə) adlandırılan belə məntəqə ana kəndin tərkib hissəsi olaraq qalırdı və vergini də birlikdə verirdi.

YENGİCƏ - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüş və ermənilər yerləşdirilmişdir. 1991-ci ildə kənd ermənicə Sisavan adlandırılmışdır.

YENGİCƏ - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı [159]. 1946-cı ildə kənd ermənicə Norabats adlandırılmışdır. 1950-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüş və ermənilər yerləşdirilmişdir.

YENİ DEHKƏDƏ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 83).

YENİ ARTİK - Talin rayonunda kənd adı. Qızılca-Yataq da adlanmışdır. 1878-ci ildə Artik kəndi ermənilər tərəfindən dağıdıldıqdan sonra Azərbaycanlı əhalinin saldığı yeni

kənddir (6, 172). 1946-cı ildə kənd ermənicə Nor Artik adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Bax: Artik.

YENİ BAŞKƏND - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Taşir rayonunda) kənd adı [133]. 1946-cı ildə kənd ermənicə Nor Başqyux adlandırılmışdır. 1949-1950-ci illərdə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir.

YENİ QIŞLAQ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3]. Mənbədə kəndin həm də Əxi Ağtəpəsi adlandığı qeyd olunmuşdur (yenə orada).

YENİ KARYER - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 101). "Başqa adı Məhəmmədabad" (yenə orada).

YENİ KEYTİ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (136, 60). Bax: Keyti.

YENİKƏND - Vedi rayonunda kənd adı. 1918-ci ildə kənddə ermənilər də yerləşmiş və bundan sonra əhali qarışıq yaşamışdır. 1946-cı ildə kənd ermənicə Qorovan adlandırılmışdır. 1949-cu ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür.

YENİ KİLSƏ - Quqar rayonunda kənd adı. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

YENİKÖY - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 92]. 1878-ci ildə kəndin Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və 1886-cı ildə orada ruslar yerləşdirilmişdir. 1946-cı ildə kənd Xarkov adlandırılmışdır.

YENİ TALIŞ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 90). Bax: Qədim Talış.

YENİCƏ - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı [159]. İlk dəfə 1590-cı ildən [169, 37], sonra 1728-ci ildən məlumdur [170, 19]. 1948-1949-cu illərdə əhalisi

Azərbaycana köçürülmüş və ermənilər yerləşdirilmişdir. 1978-ci ildə kənd ermənicə Norabats adlandırılmışdır. Yenicə sözünün mənası barədə bax: Yenicə.

YENİCƏ - 1590-cı ildə Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169, 257].

YENİCƏ - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 189].

YENİCƏ - 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində kənd adı [168, 330].

YENİCƏ - 1590-cı ildə Rəvan əyalətinin Aralıq nahiyəsində məzrə adı [169, 268]. 1728-ci ilə aid mənbədə "Araz çayının yaxınlığında Yenicə kəndi" (23, 70).

YENİCƏ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 9].

YENİCƏ - 1728-ci ildə İrəvan quberniyasının İqdır nahiyəsində [170, 20] kənd adı.

YENİCƏ -1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 50).

YENİCƏ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 120).

YENİCƏ - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (23, 59). Mənbədə kənddə cəmi 2 erməni ailəsinin yaşadığı qeyd olunmuşdur (32, 296).

YENİCƏ - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı (23, 115).

YENİCƏ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 75).

YENİCƏK - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı (23, 105).

YENİCEYİ İSLAMİYYƏ - Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [169, 268].

YENİCEYİ İSA ÇƏLƏBİ - 1590-cı ildə Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [169, 266].

YENİCEYİ POLAD - 1590-cı ildə Rəvan əyalətinin Zar nahiyəsində kənd adı [167, 328].

YENİCEYİ RUMLU - 1590-cı ildə Rəvan əyalətinin Ərmus nahiyəsində kənd adı. Digər adı Çobanlar [169, 251].

YERAMŞİLİ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 93).

YERANOS - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 92). 1949-cu ildə əhalisi Azərbaycana köçürülmüşdür. Qədim türk mənşəli Aran tayfasının adının ermənicə tələffüz formasıdır. Bax: Eranos.

YERİTSATUMB - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus rayonunda) kənd adı [133, 93]. 1949-cu ildə kənd ermənicə Bartsravan adlandırılmışdır. Ehtimal ki, qədim fars dilində eriza "sıldırım qaya" və türk dillərində tumb "qabarıq", "yumru" (bax: "Gtimoloqiə, 1965, s. 335) sözlərindən ibarətdir. Azərbaycanda Dombabinə (Zaqatala rayonu) kənd adı ilə mənaca eynidir.

YƏHƏR-SADIX -İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında dağ adı (133, 304).

YIĞRIQ - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində yaylaq adı. Mənbədə deyilir: "Zaviyyə kəndinin camaatı yaylayır" [169, 94]. Qədim türk mənşəli Uqrak tayfasının [bax: 78] adındandır. Quba r-nunda İqrıq kənd adı ilə mənşəcə eynidir.

YOLAYRICI - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Krasnoselo r-da) qışlaq adı. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq qışlaq ləğv edilmişdir.

YOLAGƏLDİ - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 41).

YOLKƏSƏN - 1590-cı ildə Rəvan əyalətini Karbi nahiyəsində kənd adı [169, 211]. Mənbədə göstərilir ki, Yolkəsən kanal adıdır və bu ad ona yolu (tranzit yolunu) kəsdiyi üçün verilmişdir [170, 75].

YOLKEÇƏN - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 134]. Mənbədə kəndin həm də Uluklu adlandığı qeyd olunur [yenə orada].

YOLÇUVİRANƏ - 1590-cı ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı (169, 220). Xaraba (viranə) yaxınlığında Yolçular kəndi mənasındadır.

YOLÇULAR - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [170, 99]. Yolçular tayfasının adındandır.

YONCALI - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 83]. Əsli Oncalı. Mənşəcə qıpçaqların anca tayfasının adını əks etdirir. Azərbaycanda Oncallı (Zaqatala r-nu) kənd adı ilə mənşəcə eynidir.

YUVA - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. XX əsrin əvvəllərinə aid mənbədə İrəvan qəzasında çəkilir (133, 303). 1728-ci ildən məlumdur (23, 49). 1950-ci ildə kənd Şaumyan adlandırılmışdır. Səlcuq Oğuzlarının Yivə (İvə) tayfasının [34, 334-340] adını əks etdirir. Azərbaycanda Evoğlu (Ağdam r-nu) (yəni “Yivə oğlu”) kənd adı ilə mənşəcə eynidir. 1588-ci ilə aid mənbədə şimali Azərbaycanda Zəyəm nahiyəsində Yuvalı-Fəxralı (Temur Hasan da adlanırdı) elinin yaşadığı qeyd olunmuşdur [167, 219].

YUVA - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 75).

YUMRUDAŞ - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 40).

YUMRUTƏPƏ - İrəvan quberniyasının İrəvan qəzasında təpə adı (133, 304). Mənbədə Yumurtəpə kimidir (yenə orada).

YURDƏK - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [170, 74]. Mənbədə kəndin İsmayıl Mahmud adlı şəxsə məxsus olduğu qeyd olunur (23, 98). Ehtimal ki, türk dillərində yurt (yurd) sözündəndir.

YURAGİR - 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində yaylaq adı [169, 334]. Səlcuq oğuzlarının Yuraqir tayfasının adını əks etdirir. 1588-ci ilə aid mənbədə Azərbaycanda Zəyəm nahiyəsində Ureqir elinin yaşadığı qeyd olunmuşdur (167, 219). Türkiyədə Ürəgir (Yürəgir) adlı 44 kənd vardır (34, 422).

YUSİF KƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 40).

YUSİFLİ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 125). "Vələd qışlağı da adlanır" (yenə orada).

YUSİFLİ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 121).

YUXARI ABDALLAR - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 103). Qədim türk mənşəli Abdal tayfasının adını əks etdirir. Bax: Abdallar.

YUXARI AVDALI - XVIII əsrin əvvəllərində ermənicə mənbədə İrəvan əyalətində kənd adı [150, 350]. "Yuxarı Abdallı" adının təhrifidir. Bax: Abdallı.

YUXARI AĞBAŞ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 3). 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ildə əhali geri qayıtmışdır. XX əsrin II yarısında azərbaycanlılar sıxışdırılmışdır. 1946-cı ildə kənd ermənicə Abovyan adlandırılmışdır. Bax: Aşağı Ağbaş.

YUXARI AĞDAM - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın İcevan rayonunda) kənd adı [133, 4] Bax: Ağdam.

YUXARI AQTALA - Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Tumanyan r-da) kənd adı (133, 24). 1918-1920-ci illərdə kənddə xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1949-cu ildə Şınıx sovxozuna birləşdirilmişdir. 1988-ci ildə kəndin əhalisinin azərbaycanlı hissəsi qovulmuşdur. Əsli Yuxarı Axtalı. Axta (bax) kəndindən yaranmış məntəqədir.

YUXARI AĞCAQALA - İrəvan quberniyasının İrəvan qəzasında (Tallin r-nunda) kənd adı (133, 4). 1918-1919-cu illərdə kənddə ermənilər yerləşmişdir. 1946-cı ildə kənd ermənicə Verin Bazmaberd adlandırılmışdır. Yaxınlıq-dakı Ağcaqala qalasının adındandır. Bax: Ağcaqala və Aşağı Ağcaqala.

YUXARI AĞKÖRPÜ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Eermənistanın Sisyan r-da) kənd adı [133, 5]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

YUXARI ADYAMAN - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 7). 1945-ci ildə kənd ermənicə Verin Qetaşen adlandırılmışdır. 1948-1951-ci illərdə kəndin əhalisi Azərbaycana köçürülmüş və orada ermənilər yerləşdirilmişdir. Bax Adyaman.

YUXARI ALAGÖZ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. Bax: Alagöz.

YUXARI ALTUNTAXT - İrəvan xanlığının Göycə mahalında (indi Ermənistanın Martuni r-da) kənd adı [159]. Bax: Altuntaxt.

YUXARI ALÇALI - İrəvan quberniyasının Novobayazid qəzasında (sonra Martuni r-nunda) kənd adı (133, 14). Digər adı Qarsaqqal Mollalı [20, 303]. 1728-ci ilə aid mənbədə

Alçalı [170], sonralar ondan Aşağı Alçalı məntəqəsi yarandıqdan sonra Yuxarı Alçalı adlandırılmışdır. Kənd öz adını oradan axan Alçalı çayından almışdır. 1918-ci ildə kənddə Türkiyədən gəlmə ermənilər də yerləşdirilmişdir. XX əsrin 30-cu illərində Azərbaycanlı əhali sıxışdırılıb çıxarılmışdır. 1968-ci ildə kənd Atsvanist adlandırılmışdır. Bax: Alçalı.

YUXARI ANDI - Qafan r-nunda kənd adı (60, 64). XX əsrin 30-cu illərində kənd ermənicə And Verik adlandırılmışdır. Bax: Andi.

YUXARI AXTA - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. XIX əsrin 70-ci illərində azərbaycanlılar qovulmuş və ermənilər yerləşmişlər. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi (136, 60). 1940-cı ildə kənd ermənicə Tsaxnapuyr, 1970-ci ildə Lernanis adlandırılmışdır. Bax: Axta.

YUXARI BAŞİKİ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 33]. Bax: Başiki.

YUXARI BƏYDİLİ - Talin r-da kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Səlcuq oğuzlarının Bəydili tayfsının adındandır. Bax: Bəydili.

YUXARI BƏNDOVAN - Amasiya r-nunda kənd adı. 1951-ci ildə Aşağı Bəndəvan (bax) kəndindən 6 km. aralıda ermənilər üçün yaranmış məntəqədir. Aşağı Bəndovan kəndinin adındandır.

YUXARI BÖYÜKBIĞI - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 190]. Bax: Bıx.

YUXARI VANDUMARAK - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Əsli Vanlı Mərək. Türkiyənin Van əyalətindən gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Türk dillərində marak "gözətçi məntəqəsi" [143, IV, II, 2124] sözündəndir.

YUXARI QALAQUZ - İrəvan quberniyasının Eçmiadzin qəzasında adı [133, 110]. Mənbədə Kalakuz kimidir (yenə orada). XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir. Qalaquz etnonimini əks etdirir. Bax: Aşağı Qalaquz.

YUXARI QALAQUT - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Bax: Aşağı Qalaqut.

YUXARI QANLICA - Axuryan r-da kənd adı. XIX əsrin 70-ci illərində əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid mənbəyə görə kəndin əhalisi ermənilər idi. 1946-cı ildə kənd ermənicə Marmaşen adlandırılmışdır. Qanlıca kəndindən başa məntəqə (Aşağı Qanlıca k.) yarandıqdan sonra Yuxarı Qanlıca adlanmışdır. Qədim türk mənşəli Kanqlı (Qanlı) tayfasının adını əks etdirir. Bax: Qanlıca.

YUXARI QARABAĞLAR - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 286). Digər adı Çimənkənd. Kəngərlərin Qarabağ tayfasının məskunlaşması nəticəsində yaranmışdır. Bax: Qarabağlar.

YUXARI QARABAQ - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 221].

YUXARI QARAQOYMAZ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 117]. 1590-cı ildən məlumdur [169, 269]. 1920-ci ildə əhalisi qovulmuş, 1922-ci ildə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 173). 1946-cı ildə kənd ermənicə Verin Sasunaşen adlandırılmışdır. Bax: Qaraqoymaz.

YUXARI QARAKİLSƏ - Quqar r-da kənd adı. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Bax: Qarakilsə.

YUXARI QARANLUQ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 118]. Bax: Aşağı Qaranlıq.

YUXARI QARANLUQ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 118).

YUXARI QARANLIQ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 118).

YUXARI QARXUN - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 123]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Djararat adlandırılmışdır. Səlcuq oğuzların Karkın tayfasının [34, 300] məskunlaşması nəticəsində yaranmışdır. Bax: Aşağı Qarxun.

YUXARI QATIRLI - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 124). Mənbədə Katerlu kimidir (yenə orada) 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Əsli Yuxarı Qatarlı. Türk mənşəli Katar tayfasının adındandır.

YUXARI QIZILVİRAN - 1590-cı ildə Rəvan əyalətinin Talin nahiyəsində kənd adı [169, 249].

YUXARI QRAMPA - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 166). Digər adı Allahverdi olmuşdur. Bu kənddə Aşağı Qrampa adlı məntəqə yarandıqdan sonra Yuxarı Qrampa adlanmışdır. Bax: Qrampa.

YUXARI QILICAN - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı (23, 64).

YUXARI QUZUQULU - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 92).

YUXARI QUYLASAR - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 138]. 1728-ci ilə aid mənbədə Quyuli Hasar kimidir (23, 49) 1988-ci ilə kimi Artaşat r-da Güləsər adlanırdı. Bu kənddən XIX əsrin I yarısında Aşağı Quylasar kəndi yarandıqdan sonra Yuxarı Quylasar adlanmışdır. XIX əsrin 70-ci illərində kənddə xaricdən gəlmə ermənilər də yerləşdirildikdən sonra əhali qarışıq yaşamışdır. 1886-cı ildə kəndin əhalisi azərbaycanlılardan və ermənilərdən ibarət idi. 1945-ci ildə kənd ermənicə Pambakovan, 1978-ci ildə Byuravan adlandırılmışdır. 1590-cı ilə aid

mənbədə kəndin adı Qoyluhasar kimidir [169, 206]. Mənbədə kəndin həm də Bicəv adlandığı qeyd olunur (yenə orada). Qızılbaşlara qoşulmuş Rumlu tayfasına (bax: 15 və 24) mənsub ailələrin Anadoludan gətirdikləri addır. Bu tayfa orta əsrlərdə Anadoluda Koyul-hisar, Çorum, Tokat, Amasiya, Bayburt və İspir əyalətlərində yaşayırdı [34, 163]. Onun Koyul-hisar mahalında yaşayan hissəsi İrəvan əyalətinə gələrək məskunlaşmış və yaratdıqları kəndə ana kəndin adını vermişlər. Anadoludakı Koyul-hisar toponimi isə ehtimal ki, əsli farsca kevil, kevul, köyül, "süni surətdə yer altında düzəldilmiş sığınacaq", "yeraltı ev" (bax: Gülüstan) və ərəbcə hisar "hasar", "qalaça", "tsiklopik tikinti" sözlərindən ibarətdir.

YUXARI QULUBƏYLİ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 147]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə yezid kürdləri (balbaslar) yerləşdirilmişdir. Qulubəy şəxs (mülkədar) adındandır.

YUXARI QURBAĞALU - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 101). Bax: Qurbağalu.

YUXARI DAŞDIQBABA - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 196].

YUXARI DƏMİRÇİLİ - İrəvan xanlığının Talin mahalında kənd adı. 1590-cı ilə aid mənbədə kəndin adı Dəmirçili kimidir [169, 63]. XIX əsrin ortalarında bu kənddən Aşağı Dəmirçili yarandıqdan sonra Yuxarı Dəmirçili adlanmışdır. Bax: Dəmirçili.

YUXARI DİGAH - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. XIX əsrin ortalarında bu kənddən Aşağı Digah kəndi yarandıqdan sonra Yuxarı Digah adlanmışdır. Bax: Aşağı Digah. Kəndin adı Azərbaycan dilində digah "yük-səklikdə əkin yeri", "suvarıla

bilinməyən tarla yeri” sözündən ibarət olmaqla kökünü türk dillərindəki tik (dik) və fars dilində gah "yer" sözləri təşkil edir.

YUXARI ƏYLƏNLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 8]. Mənbədə Aylanlu kimidir (yenə orada). Keçən əsrdə digər adı “Alyanlı Əbdürrəhman”dır ki, bu da “Abdurrahman (kəndi) yaxınlığındakı Aylanlı (kəndi)” mənasındadır. 1918-ci ildə kənddə Türkiyədən gəlmə ermənilər də yerləşmişlər. 1946-cı ildə kənd ermənicə Tsaxkunk adlandırılmışdır. 1948-ci ildə kəndin azərbaycanlıları Azərbaycana köçürülmüşdür. Toponimin mənşəyi barədə iki fikir ola bilər: 1. “Kitabi=Dədə Qorqudda” “Pasini Kara Dərbənddə Avlan qalası” (III boy) ifadəsi əsasında güman etmək olar ki, kəndin adı həmin Avlan qalasının adı ilə bağlıdır və Aylanlı adı “Avlanlı”nın fonetik formasıdır. 2. Kəndin yerli tələffüz forması Əglənlidir. 1728-ci ilə aid türkcə mənbədə də kəndin adı Əklənlu kimi göstərilmişdir [170, 59]. Buna əsasən güman etmək olar ki, kəndin həqiqətən adı Əglənlidir və Əylənli fonetik formadır. 1588-ci ilə aid bir türkcə mənbədə qışı da Gəncə sancağının Çalaberti və Bərdə sancağının Şir nahiyəsində Əglənli adlı maldar elin yaşaması qeyd olunur [167]. Bax: Əylənli.

YUXARI ƏLİMƏRQUS - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı (23, 114). Əlimərqus “Mərqus eli (tayfası) mənasındadır.

YUXARI ƏRDƏNƏ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 133). “Kəndin başqa adı Üçtəpədir” (yenə orada).

YUXARI ƏRMİK - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır. Bax: Armik.

YUXARI ZAĞALI - İrəvan xanlığının Göycə mahalında kənd adı [133]. Taşir Zağalısı və Qızılxaraba da adlanmışdır [20, 288]. 1978-ci ildə kənd ermənicə Axpradzor

adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Əsli Zağalı. Ondan Aşağı Zağalı məntəqəsi yarandıqdan sonra Yuxarı Zağalı adlanmışdır. “Zağalı” (zağa, mağara kaha, sığınacaq) yerinin adını əks etdirir.

YUXARI ZEYVƏ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1978-ci ildə kənd ermənicə Paronik adlandırılmışdır.

YUXARI İLKƏND - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 128). “Kəndin başqa adı Adıgözəldir” (yenə orada). “Əhalisi Haçumlu əşirətindəndir” (yenə orada).

YUXARI KEYTİ - İrəvan quberniyasının Aleksandropol qəzasında kiçik kənd adı [133]. XX əsrin əvvəllərində kənd dağılmışdır. Bax: Aşağı Keyti.

YUXARI KEÇİLİ - Masis r-nunda kənd adı. 1978-ci ildə kənd Sayat-Nova adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Bax: Aşağı Keçili.

YUXARI KİLSƏ - Quqar r-da kənd adı. XIX əsrin sonlarında yaranmışdır. XX əsrin 30-cu illərində kənd ermənicə Vavaqin (Şahalı) sovxozu ilə birləşdirilmişdir [20b 317]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Kəndin ərazisində həqiqətən 1935-ci ildə dağıdılmış qədim kilsə olmuşdur.

YUXARI KƏNÜZ - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı (23, 107).

YUXARI KİRƏTAQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qapan r-nun da) kənd adı [133]. 1988-ci ildə kəndin əhalisi Ermənistana qovulmuşdur. Kirətaq kəndindən XIX əsrin I yarısında Aşağı Kirətaq kəndi yarandıqdan sonra “Yuxarı Kirətaq” adlanmışdır. Türk dillərində kora “qışlaqda gecələr mal-qaranın salınması üçün tikinti, tövlə” və yataq sözlərindən ibarətdir.

YUXARI KOLANI - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133). 1978-ci ildə kənd Qriboyedov adlandırılmışdır. Azərbaycanda Qarabağda yaşamış Kolanı tayfasının məskunlaşması nəticəsində yaradılmışdır.

YUXARI KƏHRİZ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Digər adı İsabəy Kəhrizi.

YUXARI KÜRƏKLİ - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı (23, 67). “Ağotluq da adlanır” (yenə orada).

YUXARI KÜRKƏND - Artaşat rayonunda kənd adı. 1950-ci ildə kənd ermənicə Noraşen adlandırılmışdır. Bax: Aşağı Kürkənd. Əsli Korakənd. Türk dillərində kora “qışlaqda gecələr mal-qaranın salınması üçün tikili” və kənd sözlərindən ibarətdir.

YUXARI KÖRPÜLÜ - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Noyemberyan r-nunda) kənd adı [133]. 1950-ci ildə kənddə Gürcüstandan gəlmə ermənilər də yerləşdirildikdən sonra əhali qarışıq yaşamışdır. 1950-ci ildə kənd Noyemberyan, 1978-ci ildə ermənicə Haxtanak adlandırılmışdır. 1988-ci ildə kəndin Azərbaycanlı əhalisi qovulmuşdur. Əsli: Körpəli. XVII əsrdə Şərqi Anadoluda yaşamış türk mənşəli Körpəli tayfasının [46, 196] məskunlaşması nəticəsində yaranmışdır. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində də Körpəli kəndi qeyd olunmuş [170, 45] və onun Mesinlu tayfasına (“an aşiret-i Mesunlu”) məxsusluğu göstərilmişdir [170, 45].

YUXARI GƏNZƏK - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 155). Bax: Gənzək.

YUXARI GİLAN - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı (169, 202).

YUXARI KÖBƏKLİ Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı (133). XIX əsrin I yarısında Göbəkli. XIX əsrin ortalarında Aşağı Göbəkli məntəqəsi yarandıqdan sonra bu kənd Yuxarı Köbəkli adlanmışdır. Qıpçaqların Kobak tayfasının adını əks etdirir.

YUXARI GÖDƏKLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan rayonunda) kənd adı (133). 1918-ci ildə əhalisi qovulmuşdu. 1922-ci ildə azərbaycanlıların bir hissəsi geri qayıdaraq yenidən məskunlaşmışdı. 1988-ci ildə əhali Azərbaycana qovulmuşdur. İrəvan əyalətinin Kotak (erməni mənbələrində Kotayk) mahalında gəlmə ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Mahal isə mənşə etibarilə qədim türk mənşəli Katak tayfasının adını əks etdirir. Bax: Katak.

YUXARI GÖZƏLDƏRƏ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir.

YUXARI GÖYKƏND - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 36).

YUXARI GÜLÜDÜZÜ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133]. XIX əsrin I yarısında Gülüdüzü. Ondan Aşağı Gülüdüzü məntəqəsi yarandıqdan sonra Yuxarı Gülüdüzü adlandırılmışdır. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq Aşağı Gülüdüzü ilə birləşdirilmişdir. 1949-1950-ci illərdə kəndin əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir..

YUXARI GÜLLÜCƏ - 1728-ci ildə İirəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 124). Əlidaşanlı da adlanır (yenə orada).

YUXARI MAKARA - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 94).

YUXARI NECİLİ - İrəvan quberniyasının Zəngibasar mahalında kənd adı [133]. 1978-ci ildə Nizami Gəncəvinin şərəfinə Nizami adlandırılmışdır. Yuxarı Necili də adlanmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. 1990-cı ildə kənd ermənicə Masis adlandırılmışdır. 1728-ci ildə Necili kimi qeyd olunmuş və Necilu tayfasının adından ibarət olduğu göstərilmişdir [170, 24].

YUXARI NOVRUZLU - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. XIX əsrin əvvəllərində əhalisi qarışıq məntəqələrdəndir. 1918-ci ildə kəndin Azərbaycanlı əhalisi qovulmuşdur.

YUXARI PİRTİKAN - Talin r-nunda kənd adı. 1878-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 173). 1940-cı ildə kənd ermənicə Tsak-kasar adlandırılmışdır. Pirtikan kəndindən Aşağı Pirtikan məntəqəsi yarandıqdan sonra "Yuxarı Pirtikan" adlanmışdır. Kəndin ərazisindəki "Pir Tikan" pirinin adındandır.

YUXARI TALİN - İrəvan xanlığının mahallarından birinin adıdır [159]. Mahal Talin kəndinin adı ilə adlanmışdır. 1748-ci ildə kənd Verin Talin, 1978-ci ildə Talin adlandırılmışdır. 1930-cu ildən Talin r-nu mərkəzinin adıdır. Bax: Talin.

YUXARI TALIŞ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 236). Bax: Talış.

YUXARI TALİN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 85).

YUXARI TƏRNƏQUT - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 85). Xəzərlərin tərnə tayfasının adından və türk dillərində qut "düşərgə" sözündən ibarətdir. Bax: Aşağı Tərnəqut.

YUXARI TOXANŞALI - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı (23, 68). Bax: Toxanşalı.

YUXARI TÜRKMƏN - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və 1915-1918-ci illərdə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd ermənicə Apaqa adlandırılmışdır. Qızılbaşların Türkmən tayfasının [15] məskunlaşması nəticəsində yaranmışdır.

YUXARI TUT - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 245]. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir.

YUXARI XATUNARX - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 262]. XIX əsrin 70-ci illərində əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid mənbələrdə kəndin əhalisi ermənilər idi. 1978-ci ildə kənd ermənicə Haykaşen adlandırılmışdır. Bax: Aşağı Xatunarx.

YUXARI XOTANAN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı [133, 262]. Ermənicə Verin Xotanan adlandırılmışdır. Qədim türk mənşəli Kotan tayfasının adını əks etdirir.

YUXARI ÇADIRĞAN - 1728-ci ildə İirəvan əyalətinin Vedi nahiyəsində kənd adı (23, 52). Mənbənin başqa yerində kəndin adı həm də Çatqıran kimidir (yenə orada).

YUXARI ÇANAXÇI - İrəvan quberniyasının İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 279). Bax: Çanaxçı.

YUXARI ÇARBAX - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133). 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1925-ci ildə əhalisi geri kəndlərinə qayıtmışdır. İrəvan xanlarına məxsus "Çahar bağ" bağlarının adındandır.

YUXARI ÇURIQÇI - İrəvan quberniyasının Sürəmli qəzasında kənd adı (133, 280). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Əsli Çirakçı. Türk mənşəli çirak tayfasının adını əks etdirir.

YUXARI ÇƏMBƏRƏK - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanda) kənd adı. XX əsrin 30-cu illərində Çəmbərək rayon mərkəzinin adı idi.

YUXARI ÇİMƏNKƏND - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. Digər adı Qarabağlar. Bax: Yuxarı Qarabağlar.

YUXARI ÇOBANDƏRƏ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. XX əsrin əvvəllərində kənd dağılmışdır.

YUXARI ÇERAQLI - İrəvan quberniyasının Eçmiadzin qəzasında qışlaq adı (133, 82). XIX əsrdə Qars əyalətində Çeraq qalasının adı (133, 82) ilə bağlıdır.

YUXARI CAMIŞLU - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 80). Bax: Camış Basan.

YUXARI CÜYÜRLÜ - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 192].

YUXARI ŞAMİ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 291]. XX əsrin ortalarında bu kənddən Aşağı Şamı məntəqəsi yarandıqdan sonra "Yuxarı Şamı" adlandırılmışdır. Ərəbcə şam-"qamışlıq" sözündəndir.

YUXARI ŞORCA - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. Şorcalı Keyti də adlanmışdır [20, 218]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Bax: Şorca.

YÜZBAŞI - XVIII əsrin ortalarında İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [150, 209]. Səfəvilərin hakimiyyəti illərində Azərbaycanda yüz nəfər hərbçi və ya mülki şəxsin başçısı yüzbaşı adlanırdı.

KABUD - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (23, 60). Mənbədə kənddə 2 erməni ailəsinin yaşadığı qeyd olunmuşdur (32, 317).

KAVAKERT - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı [133]. Ararat bəylərbəyi Əmirqunə xanın (1606-1625) Şərqi Anadoluya hərbi səfər zamanı köçürüb gətirdiyi erməni ailələrinin yerləşdirdiyi kəndlərdəndir [135, 70].

KAVİS - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169, 61].

KAVŞ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [135]. 1919-cu ildə azərbaycanlı əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

KAVTARLI - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 124]. Mənbədə Kaftarlı kimidir (yenə orada). XVII əsrin əvvəllərinə aid ermənicə mənbədə Kavtaranots kimidir [150, 360]. 1878-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1950-ci ildə kənd ermənicə Panik adlandırılmışdır. Əsli Kaftarludur, lakin ermənicə "f" səsi olmadığına görə "Kavtar" kimi yazılmışdır. 1728-ci ilə aid türkcə mənbədə də kəndin adı Kaftar kimidir [170, 147]. Kaftarlu dağının adındandır. Bax: Kaftarlı.

KAQA - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 155). Kaha (mağara, zağa) sözündəndir.

KAVTARI - XIX əsrdə Qazax qəzasında dağ adı (133, 124).

KAĞ DƏRƏSİ - Eçmiadzini qəzasında göl adı (133, 107).

KAQİN - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [133, 156]. 1918-ci ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. 1728-ci ilə aid məebədə adı çəkilir (170, 17) və məzrəsi (yəni əkin yeri) "Mövcud Əli adlanan Kaqin kənd" kimi səciyyələndirilir [170, 17]. Türk dillərində kaqin - "bataqlıq yer", "çox da böyük olmayan çaybasar çəmən" [126, 239] sözünün fonetik formasıdır XIX əsrdə Stavropol quberniyasında Kaqın-Kul (kənd adı), Tiflis quberniyasının Tioneti qəzasında Kaqen-Xöy (133, 107) və Zəngəzur qəzasında Xaqın-Xut (Kaqin və monqolca xut "düşərgə" sözlərindən) toponimləri ilə mənaca eynidir.

KADZİK - XVIII əsrin ortalarına aid ermənicə mənbədə Göycə mahalında kənd adı [150, 360].

KADILU - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. XIX əsrin sonlarından sonra adı mənbələrdə çəkilmir. Ərəbcə qazı sözünün fonetik formasıdır. XIX əsrdə Şimali Qafqazda Ter əyalətinin Vladiqafqaz dairəsində Kadu Yurt, Qars əyalətinin Qars dairəsində Kaqızman dairəsində Kaduqışlaq toponimləri [133] ilə mənaca eynidir.

KAYALI - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı [170, 17]. Səlcuq oğuzlarının Kayı tayfasının adındandır. Bax: Qayalı. Türkiyə ərazisində Kayı tayfasının adı ilə bağlı 100 kənd vardır (Bax: 34. s. 402-404).

KAYQİNİ - 1590-cı ildə Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [169, 271].

KAYÇİ - 1728-ci ildə İrəvan əyalətinin Vadi (Vedi) nahiyəsində kənd adı. Digər adı İmanqulu [170, 10].

KAYALU - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 15]. Səlcuq oğuzlarının Kayı tayfasının adındandır.

KAYULU - 1728-ci ildə İrəvan əyalətinin “Qarni və Vedi nahiyəsi”ndə kənd adı [170, 75]. Səlcuq oğuzlarının Kayı tayfasının adındandır.

KAKAVUS - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. Ehtimal ki, Key-Kavus şəxs adındandır.

KALA - UZ - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı (133, 110). XIX əsrdə Stavropol əyalətində Kalausçay və Kalaus təpə, Ter əyalətinni Qroznı dairəsində Kalausdaq (133, 110) toponimləri ilə eynidir. Mənası məlum deyil.

KALLUQLU - İrəvan quberniyasının sürməli qəzasında qışlaq adı (133, 111).

KAMAL - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 155]. 1918-ci ildə əhalisi qovulduqdan sonra Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (11, 164). Ermənicə kənd Nor-Qetik adlandırılmışdır. 1590-cı ilə aid mənbədə Kamal-Dərviş [169, 59], 1728-ci ilə aid mənbədə Kemal [170, 32], XVII əsrrin ortalarına aid mənbədə isə Kamal kimidir [150, 362]. Ehtimal ki, qızılbaşların Şamlı tayfasının [15] məskunlaşması nəticəsində yaranmış məntəqələrdəndir. Şamlı türk tayfası XII əsrdən sonra Şamda (Suriyada) yaşadığına görə Şamlı adlanmışdır. İran-Suriya sərhəddində indi də Əbu-Kəmal adlı şəhər vardır.

KAMAL KƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 80).

KAMALPAŞA - 1590-cı ildə Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169, 258].

KAMASAR - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və kənd dağıdılmışdır. Əsli Kam-hasar. Türk dillərində kam, qam - “çay vadisi”, “yarğanlı dərə” (Şimali Qafqazda Ulu-Kam, Azərbaycanda Qax rayonunda Quru-Kam və b. adlarda olduğu kimi) və

mənşəcə ərəb dilinə məxsus hasar (burada “tsiklop tikinti”, “qalaça”, “hörükdaş”, “qala divarı”) sözlərindən ibarətdir. “Kitabi Dədə Qorqud” eposunda Ağ hasar toponimi ilə eynidir.

KAMİYAB - 1728-ci ildə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [170, 160]. Mənbədə qeyd olunur ki, kənddə heç kim yaşamır (32, 246).

KAMRANKƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 122).

KANAKİR - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı [159]. 1590-cı ilə aid türkcə mənbədə Kənəkir [169, 40], 1728-ci ilə aid mənbədə Kanakir (23, 36) XIX əsrin əvvəllərində əhalisi qarışıq kəndlərdəndir. Həmin əsrin əvvəllərində Azərbaycan türkləri sıxışdırılıb çıxarılmışdır. 1886-cı ilə aid məlumatda kəndin əhalisi ermənilər idi. Orta əsr erməni mənbələrində Kanaker kimidir [Bax: 150, 362]. Türk dillərində kanq “sıldırım” və monqolca qer “düşərgə”, ya da türk dillərində kır “alçaq yüksəklik”, düzən (126, 327) sözlərindən ibarətdir. Toponimin “kana” hissəsi XIX əsrdə Dağıstan əyalətinin Teymurxanşura dairəsində Kanaburkənd və Kanabur (dağ adı), Ter əyalətinin Qara Noqay mahalında Kanayqışlaq (kənd adı), Stavropol quberniyasının Acıqulaq dairəsində Kanay-Quyu (kənd adı) toponimlərindəki (133), “kana” sözü ilə mənaca eynidir. Toponimlərin sonlarında kır, qır sözünün iştirakı səciyyəvi haldır. Türkmənistanda Aqkır, Karakır, Altayda Atkır, Xakasiyada Tastı-Kır və s. [bax: 126, 327-328].

KANKAN - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (11, 164). 1978-ci ildə kənd ermənicə Hats adlandırılmışdır. 1590-cı ilə aid mənbədə Kənkan [169, 21], XVII əsrin əvvəllərinə aid ermənicə mənbədə isə Kankandır

[150, 362]. Ehtimal ki, Azərbaycan dilində (əsli farscadan) kənkan - “kəhriz çıxardan (qazıyan)” sözündəndir.

KANUNLU ULYA - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 9]. Böyük Kanunlu mənasındadır.

KANUNLU SUFLA - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 9]. Kiçik Kanunlu mənasındadır.

KARAKAŞ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 26]. Mənbədə kəndin “Hasan vələdi hüseyn” adlı bir şəxsə (mülkədara) məxsus olması qeyd olunur (yenə orada). Türk dillərində kara (azərbaycanca qara) və kaş (azərbaycanca qaş) “dağın irəliyə çıxmış hissəsi”, “dağın qaşı” sözlərindən ibarətdir.

KARAORAN - XVIII əsrin ortalarına aid ermənicə mənbədə Dərəçiçək mahalında bir kənd adı [150, 360]. Azərbaycanca Qara=Örən (“Qara viranəlik”) adının ermənicə yazılışıdır.

KARAKƏPƏNƏK - XVIII əsrin ortalarına aid ermənicə mənbədə İrəvan əyalətində bir kənd adı [150, 359]. Əsli qarye (ərəbcə qəryə "kənd") Kəpənək, yəni "Kəpənək kəndi". Bax: Kəpənək.

KARATAK - XVIII əsrdə İrəvan əyalətinin Göycə mahalında kənd adı [150, 360]. Kəndin adı ermənicə mənbədə qeyd olunuduğuna görə ehtimal ki, Qaradaq adının təhrifidir.

KARAULTƏPƏ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [170, 127].

KARAUCE - 1728-ci ildə İrəvan əyalətinin Vedi (mənbədə “Vadi” kimidir) nahiyəsində kənd adı [170, 15].

KARBİ - İrəvan xanlığının mahallarından birinin adı. Mahal Karbi kəndinin və oradan axan Karbi çayının adı ilə adlanmışdır. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı kimi qeyd olunur (23, 37). İndi kənd Aştarak r-nun ərazisindədir. XIX əsrin ortalarında bu kəndin Aşağı Karbi kəndi yarandığına görə “Böyük Karbi” adlanmışdır. Bax: Böyük Karbi.

KARBİ - İrəvan quberniyasının Aleksandropol qəzasında çay adı [133, 56]. Mənbədə Qarpiçay kimidir (yenə orada). Uz. 10 km. Mənbəini Pəmbək dağların-dan götürür və Pəmbək çayına tökülür. Çay Karbi qalasının adı ilə adlanmışdır. Bax: Böyük Karbi.

KARBİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 122]. XIX əsrin sonlarından sonra mənbələrdə bu kəndin adı çəkilmir. Ehtimal ki, Karbi mahalından çıxmış ailələrin özləri ilə apardıqları addır.

KARVANSARA - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Orta əsrlərdə ticarət yolları üzərində tikilən binalar karvansaray adlanırdı. XIX əsrdə Cənubi Qafqazda mövcud olmuş 10 Karvansara kəndindən [133] biridir.

KARVANSARA - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (36, 32). 1828-1832-ci illərdə əhalisi qovulmuş, lakin sonra qayıtmışdır. 1918-ci ildə əhali yenidən qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildə İcəvan adlandırılmışdır. Karvansara Səlim də adlanmışdır. Digər adı Ayrıca. 1806-cı ildə Gürcüstandan İrəvan xanlığına qaçıb gəlmiş 400 azərbaycanlı ailəsinin məskunlaşması nəticəsində yaranmış kəndlərdəndir (Bax: Baratı).

KARVANSARA - İrəvan xanlığının Sürməli mahalında kənd adı (159). 1828-1832-ci illərdə əhalisi qovulmuş və kənd dağıdılmışdır [159]. İlk dəfə 1728-ci ilə aid mənbədə adı çəkilir.

KARVANSARA - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1978-ci ildə kənd ermənicə Amretaza adlandırılmışdır. XVII əsrdən məlumdur [150, 368].

KARVANSARA - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 125).

KARVANSARA - Basarkeçər r-nunda kənd adı. XIX əsrin ortalarında dağılmışdır. "Səmədağa dərəsi" də adlanmışdır [20, 289].

KARVANSARA MƏZRƏSİ - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 224]. 1728-ci ilə aid mənbədə kənd adı (23, 54) kimidir.

KARENİS - XVIII əsrə aid ermənicə mənbədə İrəvan əyalətini6n Dərəçiçək mahalında kənd adı [150, 360]. Mənbədə oradakı monastırın da Karenis adlandığı qeyd olunur (yenə orada).

KARQAN - Kirovakan r-nunda Həmzəçimən kəndindən şimalda dağın adı (60, 82). Mənbədə Karqank kimidir (133, 101). XX əsrin 30-cu illərində dağın adı ermənicə Karan adlandırılmış və deməli ermənicə kar "daş" sözü ilə əlaqələndirilmişdir. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Karqank və Dağıstan əyalətinni Qaytaq Tabasaran dairəsində Karqan tau dağ adları ilə (133, 121) eynidir. Bax:Qarqantəpə.

KARMUNC - XVIII əsrə aid ermənicə mənbədə İrəvan əyalətində kənd adı [150, 359].

KARPİ - İrəvan xanlığının Karbibasar mahalında (indi Aştarak r-nunda) kənd adı [159]. 1728-ci ilə aid mənbədə Karbi nahiyəsində Karbi kəndi qeyd olunur (23, 36). Orta əsrlərdə əhalisi qarışıq millətlərdən olmuşdur. Ermənicə kəndin adı Araqatsotn idi [135, 50]. XIX əsrin I yarısında Azərbaycan türklərindən ibarət əhalisi sıxışdırılıb çıxarılmışdır. Bax: Böyük Karbi.

KARPİ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133]. Çayın adı ilə İrəvan xanlığının bir mahalı Karbibasar (yəni Karpi çayının suvara bildiyi ərazi) kəndinin adındandır.

KARTAQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı (133, 123).

KARXANA - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı [133]. 1906-cı ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

KARÇAN - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [170, 15].

KARÇEVAN - Yelizavetpol quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Meğri r-nunda) kənd adı [133]. XIX əsrin əvvəllərindən əhalisi qarışıq kəndlərdəndir. Lakin kəndin adı türkcədir. XIX əsrdə Şimali Qafqazda Kartsa, Batum əyalətində Karç=Xal (133), Azərbaycanda Qərçə (İsmayıllı rayonu) toponimləri ilə mənaca eynidir.

KASAX - Ermənistanda çay adı [133]. Mənbəini Ələyəz və Pəmbək dağlarından alır və Araza tökülür. Uz. 89 km. Erməni mənbələrində 1674-cü ildən adı çəkilir [135, 87]. Çayın axdığı dərə də "Kasax dərəsi" adlanmışdır [46, 205]. Çayın sol sahili XIX əsrdə Azərbaycan türkləri arasında "Uğuz yurdu" adlanırdı. Qazax tayfasının adındandır.

KASAX - Abaran r-nunda kənd adı. Qazax etnoniminin danışıqda təhrif formasıdır.

KATAX - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı (133). Eranın əvvəllərindən başlayaraq Azərbaycan və Ermənistan ərazisində Katak, Katuk formalarında toponimlər də geniş yayılmışdır. VII əsrə aid mənbədə Albaniyanın Artsak əyalətində bir mahalın Tuç=Katak adlandığı göstərilir [59, 51]. Bu mahal Kürün sol sahilinin Xaçın və Qarqarçay hissəsini əhatə etmişdir [66, 32]. "Alban tarixi"ndə bu ad ermənicə yazılışda "y" səsinin əlavəsilə Katayk kimidir. XVII əsrdə Dağlıq Qarabağda Kötüklü kəndinin adında qalmışdı [57, 226]. Digər tərəfdən, indiki Ermənistan ərazisində indi içərisindən Zəngiçay axan bir əyalət də V əsrdən [111] Katak (ermənicə yazılışda Katayk) kimi məlumdur. Bütün orta əsrlər boyu İrəvan əyalətinin bir mahalı Katayk, sonra Zəngibasar adlanmışdır. Hər iki Katak toponimi eranın əvvəllərində Cənubi Qafqazda məskunlaşmış türk mənşəli peçeneqlərin Katak tayfasının adını əks etdirir. X əsrdə Cənubi Rus çöllərində yaşamış peçeneqlərin bir tayfası Tun=Katay adlanırdı (geniş məlumat üçün bax: 79, 114). Qazaxlarda, qaraqalpaqlarda, özbəklərdə, başqırdlarda, qırğızlarda Kataq, katak tayfaları [bax: 79, 115] ilə peçeneqlərin Katak tayfası mənşəcə eynidir. Bu tayfanın adı ilə XIX əsrdə Qazax bölgəsində qazaxların bir qolu Gödəkli, Xələclərin bir qolu Gödəklər adları ilə məlumdur. Bu toponim Ermənistanda Aşağı Gödəkli və Yuxarı Gödəkli, XIX əsrdə Quba qəzasında Kötüklü dağı, Tiflis quberniyasının Axalsıx qəzasında Kötüklü, Azərbaycanda Cavad qəzasında Kötüklü [133, 155], Tovuz rayonunda Gödək dağı, Quba rayonunda Katak dağı və s. toponimlərdə iz qoymuşdur.

KATAŞEN - XVIII əsrin ortalarına aid ermənicə mənbədə Göycə mahalında qeyd olunmuş bir kənd adı [150, 360]. Kənd XVI əsrdə Türkiyənin Kahta qəzasından (34) gəlmiş erməni ailələrinin məskunlaşması nəticəsində yaranmışdır.

KATİK - XVIII əsrin ortalarına aid ermənicə mənbədə Göycə mahalında bir kənd adı [150, 360].

KAFİR-KÖY - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 156). Başqa adı Otona (yenə orada).

KAFTARLI - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 136). 1878-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir (6, 173). Azərbaycanda bir sıra toponimlərdə "Kaftar" (Goreşən, səhra və yarımsəhra yerlərdə yaşayan yırtıcı mənşəli heyvan, hazırda nəsli kəsilməkdə olan bu yırtıcı yalnız Talış dağlarında yaşayır) sözü vardır: Kaftardərə (Ağdam, Qubadlı, Zəngilan və Zərdab rayonlarında), Kaftarlıqaya (Qazax r-nu, Kaftar qobusu (Qax r-nu), Kaftarqışlaq (Qaradaq r-nu), Kaftarlı düzü (Qazax r-nu, Orta Salahlı k.), Kaftar yamacı (Cəbrayıl r-nu), Kaftar çalası (Qəbələ r-nu, Çuxur Qəbələ k.) və b. Azərbaycanda Şuşa qəzasında XIX əsrdə Kavtarlu dağ adı ilə (133, 155) mənaca eynidir.

KAXMAXİ - XVII əsrin ortalarında Göycə mahalında kənd adı (150, 361).

KAXSİ - İrəvan əyalətinin Dərəçiçək mahalında kənd adı [159]. XIX əsrin ikinci yarısına aid mənbədə kənddə ermənilərin yaşadığı göstərilmişdir (136, 60). XIX əsrin əvvəllərinə aid ermənicə mənbədə Kaqs kimidir (150, 362). Əsli Kaqız. Qars əyalətinin Kaqızman mahalından əhalinni hərəkəti ilə gətirilmə addır.

KEDİ QARABULAQ - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı (23, 61). Əsli Kəti Qarabulaq. “Keyti kəndi yaxınlığında Qarabulaq kəndi” mənasındadır.

KEYQAÇ - İrəvan quberniyasının İrəvan qəzasında qışlaq adı (113, 128).

KEYTİ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 128). Kəndin başqa adı Şorcalı olmuşdur (yenə orada). 1728-ci ilə aid mənbədə Kədi kimidir (170, 13). Adda “y” səsi danışıqda əlavə olunmuşdur. XIX əsrdə Quba qəzasında Kətədağ,

Dağıstan əyalətinin Qazı=Qumuq dairəsində Keta Kıku (dağ adı), İrəvan quberniyasının Novobayazid qəzasında Kətidağ, Qazax qəzasında Kətin=təpə (dağ adı) toponimləri [133] ilə mənaca eynidir. Qədim türkcə kədə "qarovul" (bax: Kətidaq) sözündəndir. Bax: Böyük Keyti və Kiçik Keyti.

KEYTİ - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı (23, 63).

KEYTİÇAY - İrəvan quberniyasının İrəvan qəzasında çay adı [133, 128]. Kətidağın adındandır. Bax: Kətidağ.

KEKES - Tiflis quberniyasının Borçalı qəzasında (1919-cu ildən sonra Ermənistanda Cəlaloğlu r-nunda) kənd adı (99, 389). XIX əsrin II yarısına aid mənbədə adı Kaqes kimi yazılan bu kənddə Türkiyədən gəlmə yunanların da yaşadığı qeyd olunur (yenə orada). Əsli Kaqız. Qars əyalətinin Kaqızman mahalından gəlmələri ilə gətirdiyi addır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

KEMKULİ - 1728-ci ildə İrəvan əyalətinin Vedi (Vedi) nahiyəsində kənd adı [170, 10].

KENANGİRD - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [170, 12]; Ehtimal ki, Kənan şəxs adından və farsca gird "qala" sözündəndir.

KERAŞAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 79). Türk dillərində kora "qışda mal-qaranı saxlamaq üçün tövlələr" və Aşan şəxs adından ibarətdir.

KERDƏLİ - İrəvan xanlığının Abaran mahalında kənd adı [159]. XVIII əsrin əvvəllərindən məlumdur [150, 366]. Əsli Kürdəli. Bax: Kürdəli.

KERDEŞ - İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 165]. Ehtimal ki, Kardaş (Qardaş) şəxs adındandır.

KETENUS - 1590-cı ildə Rəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [169, 361]. XVIII əsrin ortalarına aid ermənicə mənbədə Ketanos kimidir [150, 360]. Qıpçaqların Kotan tayfasının adından və yunan mənşəli-us şəkilçisindənibarətdir.

KETI - Zəngəzur dağ tirəsinin şimal hissəsində bir dağın adı (60, 83). Bax: Keyti və Kətidağ.

KETI - Göycə gölünün hövzəsinin cənub-şərqində bir çayın adı (60, 83).

KETUZ - Vedi r-nunda bir kəndin adı (60, 83).

KETUS - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 50). "Kəndin başqa adı Gülbudaq" (yenə orada).

KETUSDAQ - Vedi r-nunda Qelam dağ tirəsinin cənub-qərb yamacında dağın adı (60, 83). XX əsrin 30-cu illərində dağ ermənicə Ketus-Ler adlandırılmışdır.

KETİNUD - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (170, 12).

KEFLİ - İrəvan quberniyasınnı Aleksandropol qəzasında (133, 130), sonra Basar-Keçər r-nunda. 1918-1919-cu illərdə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. İkinci Qoşabulaq və Qırxbulaq da adlanmışdır (20, 289). 1978-ci ildə kənd ermənicə Kanasavar adlandırılmışdır. Əsli Kavlı. Kənd 1828-1832-ci illərdə Amasiya rayonundakı Kav kəndindən gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Bax: Gav.

KEÇƏRİZ - 1728-ci ildə İirəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı (23, 115). Mənbədə kəndin İbrahim Abdulla oğluna məxsus olduğu qeyd olunur (yenə orada). Ermənicə mənbədə Keçaris kimidir (150, 362) və həm də 995-ci ildə tikilmiş kilsənin adı kimi qeyd olunur. Qədim türk mənşəli Kəçər tayfasının adından (bax: Keçərli) və -is şəkilçisindən ibarətdir.

KEÇİBƏYLİ - 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində yaylaq adı (169, 334). Yaylağın adı orada dağın keçi beli formasında olması ilə əlaqədardır.

KEÇİD - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı. XVII əsrin əvvəllərinə aid ermənicə mənbədə Keçut kimidir (150, 558).

KEÇİD - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 41).

KEÇİLƏK - 1728-ci ildə İrəvan əyalətinin Abaran mahalında kənd adı. Köylükən kəndinin nəzdində məntəqə kimi göstərilir [170, 12]. Orta əsrlərdə Anadolu yarımadasının Kars yörəsində yaşamış Dulqədirli elinin qolların-dan (Varsaq, Dəmirçili, Zəlmanlu, Zakirlu, Qavurcalu, Əkinçilər və Keçlik) Keçlik qolunun adındandır (bax: 34, s. 185).

KEÇİLİ - İrəvan xanlığının Sərdarabad mahalında kənd adı (159). 1728-ci ilə aid mənbədən məlumdur (23, 36). 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır. 1728-ci ilə aid mənbədə Keçilu kimidir [170, 3]. Mənşəcə oğuzların Kayı tayfasına mənsub keçililər (Bax: V.A.Qordlevskiy, c. III. S. 109) Səfəvilər vaxtında Naxçıvanda yaşayan Kəngərlərə qarışmışdır (yenə orada, s. 49). XIX əsrin əvvəllərində Naxçıvan əyalətində yaşayan kəngərlərin bir qolu Keçili adlanırdı. Onların bir hissəsini Pənahəli xan köçürüb Qarabağda yerləşdirmişdi. XIX əsrin ortalarında Qarabağ düzündə qışlayan bir maldar el Keçili adlanırdı.

KEÇİLİ - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 190].

KEÇİLU - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3].

KEÇİLU KUZUÇULU - 1728-ci ildə İrəvan əyalətinin Xxınzirək nahiyəsində kənd adı [170, 7].

KEŞİŞ - 1728-ci ildə İrəvan əyalətinin İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [170, 12].

KEŞİŞ - 1688-ci ildə İrəvan əyalətinin Sisyan mahalında kənd adı. Tatev monastırına aid idi [135, 221]. 1727-ci ilə aid mənbədə deyilir ki, kənddə heç kim yaşamır (32, 253). 1728-ci ilə aid mənbədə bu kəndin həm də Didəbad adlandığı qeyd olunmuşdur [170, 160]. Didəbad adının mənası barədə bax: Didvar.

KEŞİŞARXI - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 41). Azərbaycan dilində keşiş "xristian", "xaçpərəst ruhanisi" (ilk dəfə Xaqani Şirvaninin əsərlərində və "Kitabi Dədə Qorqud" eposunda işlədilmişdir) və viranə - "xaraba" sözlərindən ibarətdir.

KEŞİŞVERƏN - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1935-ci ildə kənd ermənicə Tsovaşen adlandırılmışdır. 1948-1949-cu illərdə kəndin əhalisi Azərbaycana köçürülmüşdür. Əsli Keşişviranə, yəni "Keşişxaraba" Bax: Qızılörən.

KEŞİŞVERƏN - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1935-ci ildə ermənicə Urtsalanc adlandırılmışdır. 1848-ci ildə əhalisi Azərbaycana köçürülmüşdür. Əsli Keşiş viranəsi. 1728-ci ilə aid arxiv mənbəyində "Keşiş viranı" kimidir (170, 15).

KEŞİŞVİRANI - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində yer adı (23, 57). Mənbəyə görə orada adam yaşamır, qonşu kəndlərdən gəlib əkib-biçirlər (32, 57).

KEŞİŞDAQ - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı (133, 131).

KEŞİŞKƏND - 1728-ci ildə İirəvan əyalətinin Məzrə nahiyəsində kənd adı (23, 61).

KEŞİŞKƏND - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 120).

KEŞİŞKƏND - 1728-ci ildə İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı (23, 55).

KEŞİŞKƏND - Spitak r-nunda kənd adı. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində Keşişköy kimi qeyd olunmuşdur (23, 78). 1918-ci ildə kəndin əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd ermənicə Qeharot adlandırılmışdır. XVIII əsrin əvvəllərində Nadirşah bu kəndi Eçmiadzin kilsəsinə bağışlamışdır (150, 172). 1727-ci ilə aid mənbədə Dağlıq Qarabağda qeyd olunan Keşişkənd adı ilə mənaca eynidir.

KEŞİŞKƏND - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında (indi Ararat r-nunda) kənd adı [133, 131]. 1727-ci ilə aid mənbədə Keşiş kimidir (32, 294). Onda orada cəmi 2 erməni ailəsi yaşayırdı. 1931-1935-ci illərdə Keşişkənd inzibati rayonunun mərkəzi olmuşdur. 1935-ci ildə kənd Mikoyan, 1957-ci ildə ermənicə Yexeqnadzor adlandırılmışdır.

KƏBƏRƏLİ - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı (bax: 159). XIX əsrin ortalarından sonra mənbələrdə bu kəndin adı çəkilmir. Əsli Kəbər-eli, yəni "Kəbər tayfası", Mənşəcə xəzərlərin Kəbər tayfasının məskunlaşması nəticəsində yaranmışdır. Azərbaycanda orta əsrlərdə Mil-Qarabağ düzlərində yaşamış, XIX əsrdə Qərvəndli, Ulubablı Qızıl Məhəmmədli və Arıq Məhəmmədli qollarından ibarət olmuş 850 ailəlik Kəbirli tayfasının adı ilə mənşəcə eynidir (Kəbər tayfası barədə bax: Q.A.Qeybullaev, Xazarskie gtnonimı v Azerbaydjane. DAN Azerb. SSR, 1980, № 10, s. 95-96).

KƏVƏR - İrəvan xanlığının Göycə mahalında (indi Ermənistanın Kamo r-nunda) kənd adı (159). 1829-cu ildə Türkiyədən gəlmiş ermənilər yerləşdikdən sonra ermənicə Nor-Bayazid (1850-ci ildə rusca Novo-Bayazid) adlandırılmışdır. 1959-cu ildə kəndə Kamo adı verilmişdir. 1988-ci ildə qəsəbənin azərbaycanlı əhalisi qovulmuşdur.

Erməni tədqiqatçıları bu toponimin ermənicə qavar - “mahal”, “dairə”, “nahiyə” sözündən ibarət olduğunu yazmaqda səhv edirlər. Ona görə ki əvvəla, inzibati ərazi bölgüsü vahidini bildirən söz (“ölkə”, “əyalət”, “mahal”, o cümlədən ermənicə “qavar”) heç vaxt ayrılıqda yaşayış məntəqə adına çevrilə bilməz; ikincisi, bu məntəqənin XX əsrə qədər əhalisi erkən orta əsrlərdə burada məskunlaşmış xəzərlərin Kəbər tayfasının adının fonetik formasıdır.

KƏKİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) dağ adı [133, 155]. Naxçıvanda Küküdağ, XIX əsrdə Yelizavetpol quberniyasının Yelizavetpol qəzasında Kəkili dağ [133] adları ilə mənaca eynidir. Bax: Kığı.

KƏKİL - 1590-cı ildə Rəvan əyalətinin Abnik nahiyəsində məzrə adı [169, 254]. Əsli Kəki-il, yəni “Kəki eli (tayfası)”

KƏKLİCİK GÖDƏKARX - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 132). “Kəndin adına Zamanqışlağı da deyirlər” (yenə orada). “Gödəkarx yaxınlığında kiçik Kəkili kəndi” mənasındadır.

KƏLƏDƏK - 1590-cı ildə Rəvan əyalətinin Bazarçayı nahiyəsində kənd adı [169, 156]. 1728-ci ilə aid mənbədə də qeyd olunmuşdur (23, 151). Mənbədə kənddə 2 xristian ailəsinin yaşadığı göstərilir (32, 353). Azərbaycanda və Ermənistanda bir sıra toponimlərdə “kələ” və “kola” sözlərinin mənalarının aydınlaşdırılması çətindir. Ona görə ki, türk dillərində bu söz çoxmənalıdır: kol, yəni kol-kos, xırda meşəlik (məsələn, Ağdam r-nunda Kolqışlaq), kol “vadi”, “çəmən”, kola “dincə qoyulmuş torpaq sahəsi”, kola “bir tüstüyə, yəni bir ailəyə məxsus pay torpağı”, kol “dağın təpəsindən aşağıya doğru enən və dərənin ortasından yüksəklikdə olan

yer” və s. Adın sonluğunu qədim türkcə otaq "xan alaçığı" sözü təşkil edir. Bu kəndin adı Ağdam r-nunda Koladək kəndinin adı ilə mənaca eynidir.

KƏLƏDƏK - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (23, 57). Mənbədə kənddə 2 xristian ailəsinin yaşadığı qeyd olunur (32, 265).

KƏLƏKARX - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 155). 1946-cı ildə kənd ermənicə Şenavan adlandırılmışdır. Əsli Kulak-Arx. Türk dillərində kulak “dərə”, “çökəklik yer”, “çuxur” (bax: Qulaqsız) sözündəndir. Kəndin adı “Kulakdan çəkilmiş arx” mənasındadır. XIX əsrdə Azərbaycanda Yelizavetpol qəzasında Kələk (digər adı Şıxlar) kəndinin [133] adı ilə mənaca eynidir.

KƏLƏKLİ - İrəvan xanlığının Dərəkənd Parçenis mahalında kənd adı [159]. XX əsrin əvvəllərinə aid mənbədə Kələklu kimidir (133, 155). XX əsrin sonra mənbələrdə bu kəndin adı çəkilmir. Əsli: Kulaklı. Bax: Qulaqsız.

KƏLƏLİ - İrəvan quberniyasının İrəvan qəzasında (sonra Aqin r-nunda) (133, 155). 1878-ci ildə kəndin əhalisi Türkiyəyə qaçmışdır. 1900-cu ildən kənddə ermənilər yaşamağa başlamışdır. 1947-ci ildə kənd ermənicə Noraber adlandırılmışdır (6, 173). Ərəb dilində kelyə "məbəd" sözündəndir. Bax: Kələlibək.

KƏLƏLİBƏK - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133]. Ehtimal ki, ərəb dilində kelyə (yunan dilində kellion "məbəd" V.V. Bartolğd, soç. II, 1, s. 228) və qədim türk dillərində bək "təpə" sözlərindən ibarətdir. "Məbəd yerləşən təpə" mənasındadır. Naxçıvanda Kələki ( kelyə "məbəd" və əxi sözlərindən), İsmayıllı r-nunda Kələxana (orada Yeddigümbəz mavzoleyi- şeyx sərdabələri vardır) kənd adları ilə mənaca eynidir.

KƏLƏLİBƏK - İrəvan quberniyasının Eçmiadzin qəzasında qışlaq adı (133). Kəlalibək dağının adındandır.

KƏLƏLİBƏK - İrəvan quberniyasının Eçmiadzin qəzasında xaraba kənd adı [133]. Kəlalibək dağının adındandır.

KƏLİTƏPƏ - Talin r-nunda dağ adı. (hünd. 1748 m.). Ərəb dilində kelyə "məbəd" və azərbaycanca təpə sözlərindən ibarətdir. Ermənicə XX əsrin 30-cu illərində fərmanla Qaylablur (Qurdtəpə) adlandırılmışdır.

KƏLLƏYATAQ - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. Kəndin adı "Gəllə (baş) tərəfdə yataqlar" mənasındadır.

KƏLƏŞAM - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 155]. XIX əsrin ortalarından sonra mənbələrdə adı çəkilmir.

KƏLƏŞBƏK - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133, 155]. XIX əsrdə Kutaisi quberniyasının Leçxum qəzasında Kalaş və Dağıstan əyalətinin Xasav-Yurt dairəsində Kalaşlak kənd adları [133, 110 və 155], Azərbaycanın Qəbələ rayonunda Sileyli kəndindən cənubda, Göyçay dərəsi ilə Vəndam çay arasında Kələş düzü toponimləri ilə mənşəcə eynidir.

KƏLƏŞBƏK QULASI - Talin r-nunda kənd adı. 1828-1832-ci illərdə əhalisi qovulmuş və kənd dağıdılmışdır. XX əsrin əvvəllərinə aid mənbədə xaraba kənd kimi qeyd olunmuşdur (133, 155). Əsli Kələşbəy qülləsi. Kənd oradakı "Kələşbək qülləsi" qalasının adındandır.

KƏLƏŞKƏND - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133, 155]. 1918-ci ildə əhalisi qovulmuş, 1922-ci ildə az hissəsi geri qayıdaraq yenidən

məskunlaşmışdır. 1931-ci ildə kənd dağılmışdır. “Kələş” sözünün bu və başqa toponimlərdə mənşəyi məlum deyil. Ehtimal ki, gətirilmə addır. Orta əsrlərdə Kürdüstanda Kalas və Kalaş əyalətləri də məlumdur (bax: Max Şaraf-xanum Kürdistani. Xronika doma Ardalan. M., 1990, s. 93).

KƏLOĞLAN - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində qışlaq adı [170, 47].

KƏLTƏPƏ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 97).

KƏLTƏPƏ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 137). Başqa adı Çuxur Səid (yenə orada). Bax: Çüxur Səid k.

KƏLTƏPƏ KƏHRİZ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 96). “Axsaqlı kimi də tanınır” (yenə orada).

KƏMƏND BULAĞI - 1728-ci ildə İi rəvan əyalətinin Göycə nahiyəsində kənd adı (170, 12).

KƏMƏNKƏLÜL - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində məzrə adı (23, 58).

KƏMƏRLİ - İrəvan xanlığının Qarnibasar mahalında (XIX əsrdə İrəvan qəzasında) kənd adı (159). 1919-cu ildə əhalisi qovulmuş və 1915-1918-ci illərdə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Metsamor adlandırılmışdır. Er. əvvəl VIII əsrdə Qara dəizin şimal sahillərindən sakların təzyiqi altında Cənubi Qafqaza, buradan Urartu dövlətinin ərazisinə keçmiş qədim türk mənşəli Kəmər (Qəmər) tayfasının (antik mənbələrdə kimmer) adını əks etdirir. XIX əsrdə Borçalı qəzasında Yuxarı və Aşağı Qomareti, Qazax qəzasında iki Kəmərli kənd adları ilə mənşəcə eynidir. XIX əsrdə Azərbaycan və Ermənistanda 7 Kəmərli kəndi vardı [133, 111] 1946-cı ildə kənd ermənicə Artaşat adlandırılmışdır.

KƏMRƏZ - İrəvan xanlığının Qırxbulaq nahiyəsində(159), sonra İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 72) [159]. 1590-cı ilə aid türkcə mənbədə (169, 55) və 1728-ci ilə aid mənbədə Kəmris kimidir (23, 81). XIX əsrin sonlarına aid mənbədə Qəmriz kimidir (133, 72). 1978-ci ildə kənd ermənicə Kamaras adlandırılmışdır. XVII əsrə aid ermənicə mənbədə isə Qəmrəs [150, 362] yazılmışdır. Yerli əhali içərisində tələffüz forması Kəmrizdir. Lakin XIX əsrin sonlarına aid ədəbiyyatda da kənd Qəmriz yazılmışdır. Türk dillərində qəm, kəm, "çay", "dərə" [bax: 126] və arıs "tayfanın hissəsi" sözlərindəndir. Toponimin tərkib hissəsini təşkil edən kəm sözü XIX əsrdə Stavropol quberniyasının Açi-Kulak dairəsində Kəm-Tübə (dağ adı), Ter əyalətinin Nalçik dairəsində Kəm (kənd adı), İrəvan quberniyasının Novobayazid qəzasında Kəm dərəsi (dərə adı), Zəngəzur qəzasında Kəm-Bil, Kəmdağı (133) toponimlərində də vardır.

KƏNZƏK - İrəvan xanlığının Dərəkənd Parçenis mahalında kənd adı (159). XIX əsrin ortalarından sonra mənbələrdə bu kənd barədə məlumat yoxdur. Ərəbcə kəlisə "atəşpərəst məbədi" ("farsca məbəde-gəbran") Будагов Л.З. Словарь турецко-табарских наречий. том. II, с. 140) "kilsə" (Баранов, Арабско-русский словарь, с. 897) sözündən ibarətdir. Azərbaycanda Qobustanda Kənizdağ, İsmayıllı r-nunda Gənzədaq və Kənzə kənd, Naxçıvanda Kəzə kənd adları ilə mənaca eynidir.

KƏNZƏK - İrəvan xanlığının Göycə mahalında kənd adı (159). Digər adı Kosa Məhəmməd. 1728-ci ilə aid mənbədə Göycə nahiyəsində Kəlizək kimidir (170, 12). XVIII əsrin ortalarına aid ermənicə mənbədə Qqandzak kimi yazılmışdır (150, 361).

KƏNİZƏK - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 36).

KƏNİZƏK - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı (23, 107).

KƏNİZƏK - 1728-ci ildə İirəvan əyalətinin Abaran nahiyəsində kənd adı (23, 54).

KƏNİZƏK - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (23, 57). Mənbədə kənddə 5 müsəlman (azərbaycanlı) ailəsinin yaşadığı göstərilir (32, 266).

KƏNİZƏK - 1728-ci ildə İrəvan əyalətinin Sürməli nahiyəsində kənd adı (23, 63).

KƏNGİ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 77).

KƏNGƏR - Ermənistanın Gürcüstanla həmsərhəd bölgəsində dağ adı. V əsrdən məlumdur. Qədim türk mənşəli Kəngər tayfasının adı ilə bağlıdır.

KƏPƏNƏK - Axuryan rayonunda kənd adı. 1945-ci ildə kənd ermənicə Ovit adlandırılmışdır. Mənşəcə qədim türk mənşəli peçeneqlərin Kapan tayfasının adını əks etdirir. 1588-ci ildə Qarabağın "Otuziki" adlı ulusunda Kəpənəkçi eli yaşayırdı (167). 1721-ci ilə aid mənbədə Tiflis əyalətinin Dəmirçi nahiyəsində də 197 ailədən ibarət Kəpənəkçi elinin yaşadığı qeyd olunur (31, 159).

KƏPƏNƏK - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 113).

KƏNURƏS - 1590-cı ildə Rəvan əyalətinin Sisyan nahiyəsində kənd adı (169, 364).

KƏPƏS - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında dağ adı (133). Azərbaycanda Gəncə r-nunda Kəpəz dağ adı ilə mənaca eynidir. Türk dillərində kəp "pilləli qayalı dağ" sözündəndir.

KƏPÇƏK - İrəvan quberniyasında Şərur-Dərələyəz-Zəngəzur dağ silsiləsində aşırım adı (133).

KƏRD - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı (133). 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

KƏRƏLAV - 1590-cı ildə Rəvan əyalətinin Ərmus nahiyəsində kənd adı (169, 251).

KƏRƏBURUN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 78). “Başqa adı Horet” (yenə orada). Bax: Horet.

KƏRƏKOR - 1727-ci ildə Naxçıvan sancağının Dərələyəz nahiyəsində yer adı (32, 276). Mənbədə qeyd olunur ki, burada adam yaşamır, şiə olduqlarına görə köçüb gediblər və qonşu kəndlərdən gəlib əkib-biçirlər (yenə orada). Monqol dilində kərüqə “qışlaqda malqaranı gecələr salmaq üçün tövlələr" və türkcə or “çökəklik” sözlərindəndir.

KƏRƏKƏLÜK - 1727-ci ildə Naxçıvan Sancağının Dərələyəz nahiyəsində kənd adı (32, 291). Mənbədə deyilir ki, şiə olduğuna görə əhalisi köçüb gedib (yenə orada). Monqolca kərüqə “qışlaqda gecələr mal-qaranın salınması üçün tövlələr” (*) və azərbaycan dilində -lük şəkilçisindən ibarətdir.

KƏRƏM MƏHƏMMƏDƏLİ KƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 50).

KƏRƏMBİÇƏ - İrəvan quberniyasının Novobayazid qəzasında Toxluca kəndinə məxsus qışlaqlardan birinin adı (136, 34).

KƏRƏCLİ - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı (23, 113). 1918-ci ildə kənd ermənilər tərəfindən dağılmışdır (11, 164).

KƏRƏCXANA - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (170, 28). Əsli Kirəcxana.

KƏRİK BURNU OLAN - 1590-cı ildə Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı (169, 271). Türk dillərində kayrak "xart daşı (metal aləti itiləmək üçün bülöv daşı)" sözündəndir.

KƏRİM KƏNDİ - İrəvan xanlığınn Göyçə mahalında kənd adı. 1828-1832-ci illərdə kənddə xaricdən gəlmə ermənilər yerləşdirilmişdir (159). Bundan sonra əhali qarışıq yaşamışdır. 1918-ci ildə kəndin Azərbaycanlı əhalisi qovulmuşdur. 1940-cı ildə kənd ermənicə Tsaxnaşen adlandırılmışdır.

KƏRKAB - Vedi r-nunda kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

KƏRKİ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133 129]. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir. XIX əsrdə Quba qəzasında Kərki-Ezan, Naxçıvan qəzasında Kərki [133] kənd adları ilə mənşəcə eynidir. Qədim türk mənşəli kərki (türkmənlərdə və özbəklərdə Kərki tayfası barədə bax: 77, 86) tayfasının məskunlaşması nəticəsində yaranmışdır. XIX əsrin əvvəllərində Türkiyədə yaşayan tayfalardan biri Kərki idi [113, 393].

KƏRKİBAŞ - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Vardenis rayonunda) kənd adı (133). 1967-ci ildə kənd Şəfəq adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. XIX əsrin əvvəllərində yaşamış Kərkibaş tayfasının [159, 585] məskunlaşması nəticəsində yaranmışdır [76, 87]. Bax: Kirkibaş.

KƏRKİBAŞ - İərvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 156).

KƏRİMAĞALI - İrəvan xanlığının Göycə mahalında kənd adı. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. Kərimağa şəxs (feodal) adındandır.

KƏRİMARX - İrəvan xanlığının Sərdarabad mahalında kənd adı (159). 1918-ci ildə kənddə Türkiyədən gəlmə ermənilər də yerləşdirilmişdir. Bundan sonra kəndin əhalisi qarışıq yaşamışdır. 1935-ci ildə kənd ermənicə Sovetakan adlandırılmışdır. 1948-ci ildə kəndin azərbaycanlı əhalisi Azərbaycana köçürülmüşdür.

KƏRİNƏK - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində məzrə adı (23, 53).

KƏRİNÜD - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (23, 58). Mənbənin başqa yerində bu ad Küngüd kimi oxunur (yenə orada).

KƏRNİKİ - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı (23,115). Mənbədə kəndin İbrahim Dərviş oğluna məxsus olduğu göstərilir (yenə orada).

KƏRİM-ARX - İrəvan əyalətinin Eçmiadzin qəzasında kənd adı (133, 155).

KƏRİR AĞDAĞ - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 49).

KƏRPİCLİ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı (bax: 159). 1728-ci ildən məlumdur (23, 103). 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ildən sonra əhalinin bir hissəsi geri qayıdaraq yenidən məskunlaşmışdır. 1948-ci ildə kənd əhalisinin azərbaycanlı hissəsi Azərbaycana köçürülmüşdür. Kənd qışlaq əsasında yaranmışdır. Qışlaq isə "Kərpicli" (qırmızı kərpicdən tikinti xarabalığının adı) yerinin adını əks etdirir.

KƏRPİCLİ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 134).

KƏSƏMƏN - İrəvan quberniyasının Novobayazid qəzasında (133, 156) Basarkeçər r-nunda kənd adı. 1978-ci ildə kənd Bahar adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Qazaxların Kəsəmən tayfasının adını əks etdirir. XVI əsrdə Qarabağda Qoçubəyə və Zülfüqar bəyə məxsus Kəsəmənlu tayfası yaşayırdı [167].

KƏSƏMƏN - Artik r-nunda kənd adı. 1940-cı ildə kənd ermənicə Qetapi adlandırılmışdır. Qazaxların Kəsəmən tayfasının adındandır [bax: 78].

KƏSİKBAŞ - İrəvan xanlığının Göycə mahalında kənd adı [133, 159]. 1919-cu ildə kənddə Türkiyədən gəlmə ermənilər də yerləşdikdən sonra əhali qarışıq yaşamışdır. 1949-cu ildə kəndin Azərbaycanlı əhalisi köçürülmüş-dür. 1950-ci ildə kənd ermənicə Lernakert adlandırılmışdır. Digər adı Qasım-Baş. Kənd oradakı kəsik piramida formalı təpənin adını əks etdirir.

KƏSİR - 1590-cı ildə İrəvan əyalətinin Şərabxana nahiyəsində kənd adı [169, 240]. Türk dillərində kas-"yüksək qayalı sahil", "dağın qaşı" [143, II, I, 345] və ir " yüksəkliyin dalğavarı beli" [93, 235] sözlərindən ibarətdir.

KƏSMƏZTƏPƏ - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiysində kənd adı (23, 41).

KƏSTƏNLİ - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı (23, 51).

KƏTƏBİ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 9). Mənbədə kəndin həm də Gül-Budaqı adlandığı qeyd olunur (yenə orada). Türk dillərində kat "dağın gündüşən, meşəsiz tərəfi" [126, 264] və oba sözlərindən ibarət adın təhrif formasıdır.

KƏTİQOT - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. Türk dillərində kat "dağın gündüşən tərəfi" [126, 264], ya da kat "sahil" [143, II, 2, 275] yaxud kət "seçilən, "fərqlənən" və kot "quru otluq" [143, II, 2, 605], yaxud qut, kut "qışlaqda heyvan üçün tövlə, kutan sözlərindən ibarətdir. Azərbaycanın Oğuz r=nunda Qayıtdağ ("Kətidağ"dan təhrif), Kəlbəcər r-nunda Kətidağ, XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Kətitəpə [133] toponimləri ilə mənaca eynidir. 1307-ci ilə aid mənbədə Anadoluda Kəti qalasının adı çəkilir [160, 55].

KƏTİDAĞ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 130]. Türk dillərində kədə "qaravul", "gözətçi" [143, II, 2, 1133], yaxud kat "dağın meşəsiz gündüşən tərəfi" [126, 264] və dağ sözlərindən ibarətdir (Aşıq Alının bir şerində Xan-Ket dağının adı çəkilir: "Əyricə, Vers dağı, Xanget buxarı, Ağ sürülər Sarıyaldan yuxarı").

KƏTİÇAY - İrəvan quberniyasının Novobayazid qəzasında çay adı [133, 130]. Kətidağın adındandır.

KƏTUZƏ - 1590-cı ildə Rəvan əyalətinin İirəvan qəzasında kənd adı [169, 53]. Türk dillərində kat - "dağın gündüşən meşəsiz tərəfi" [126, 264] və monqolca usu "çay" [126, 582] sözlərindən ibarətdir.

KƏTXUDATAK MƏZRƏSİ - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 83]. Azərbaycanca (əsli farsca) kətxuda (kəndxuda) və məzrə "əkin yeri" sözlərindəndir.

KƏHRİZ - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 155). 1728-ci ildə İrəvan quberniyasının Karbi nahiyəsində məzrə adı [170, 53]. Mənbəyə görə oradakı Xəlfəli kəndinə məxsus əkin yerinin adı idi (yenə orada).

KƏHRİZ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında qışlaq adı (133, 155).

KƏHRİZLİ KƏHLƏŞƏN - Abovyan r-nunda kənd adı. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

KƏHLƏŞİN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Türk dillərində kak "yağış sularının toplandığı çökəklik", "dayaz gölməçə" (126, 242) və fars dilində şen "say" (su mənbəinin qumlu yeri, məsələn, "gəmi saya

oturdu") "qum" (145, 256) sözlərindəndir. Bütünlükdə toponim "Qumlu gölməçə" mənasındadır.

KƏÇƏLTƏPƏ - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Noyemberyan r-nunda) qışlaq adı (133). XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd dağılmışdır.

KİVAS - 1590-cı ildə Rəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [169, 361]. 1728-ci ilə aid mənbədə Kivas kimidir (23, 150). 1727-ci ildə bu kənddə 2 xristian ailəsi yaşayırdı (32, 249). Qədim türk dillərində qiy "kənd" (93, 440) və vays "sıldırım" (bax: Boz Abdal) sözlərindən ibarətdir.

KİKNAV - 1590-cı ildə Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169, 255]. Mənası məlum deyil.

KİLİTQAYA - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 125). Fars dilində kəlat "qala" və azərbaycanca "qaya" sözlərindən ibarətdir.

KİOT - İrəvan xanlığının Seyidli-Axsaqlı mahalında kənd adı [159]. XX əsrin ortalarından sonra mənbələrdə bu kəndin adı çəkilmir.

KİLSƏKƏND - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan rayonunda) kənd adı [133]. 1919-1920-ci illərdə əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd ermənicə Sraşen adlandırılmışdır.

KİOXT - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı (159). XIX əsrin ortalarından sonra mənbələrdə bu kəndin adı çəkilmir. Əsli Kult. Qədim türk mənşəli Kul tayfasının adından və cəm bildirən "t" şəkilçisindən ibarət adın ermənicə yazılışıdır.

KİRANLI - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1919-cu ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Mənşəyi məlum olmayan türk mənşəli Kiran tayfasının adındandır. Bu tayfanın adı ilk dəfə "Kitabi Dədə Qorqud"da çəkilir. İranda indi də Kiran tayfası yaşayır [146, 134]. Erkən orta əsrlərdə Beyləqan yaxınlığında Kiran qalası vardı (Йакут ал Хамави. Муджам ал Булдан. Сведения об Азербайджане. Баку, 1983, с.30). Kiran adlı digər qala Tovuz r-nun ərazisində idi. Bu qalanın xarabalıqları indi Ağcaqala adı ilə məlumdur və həmin r-ndakı Quşçu-Kirən və Xınna-Kirən kənd adları da bu qalanın adı ilə bağlıdır. 1727-ci ilə aid mənbədə Tovuz r-nun ərazisində Kiran kəndi çəkilmişdir [171]. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Sürməli mahalında da Kirən kəndinin adı qeyd olunmuşdur [170, 13]. Naxçıvandv XIII əsrdə Kiran (digər adı Kilan, lakin bu Kiran adının fonetik formasıdır) məntəqəsi vardı [244, 271]. Bu toponim indi Xaraba-Gilan (əsli Xaraba Kiran) və Azad Qiran adlarında qalmışdır.

KİRAS - 1728-ci ildə Sisyan nahiyəsində kənd adı (170, 60).

KİRAŞLU - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 134). İrəvan xanlığının Seyidli-Axsaqlı mahalında kənd idi. XIX əsrin əvvəllərindən sonra əhalisi qarışıq kəndlərdəndir. 1886-cı ilə aid məlumata görə əhalisi ermənilər idi. XX əsrin 30-cu illərində kənd ləğv edilmişdir. 1441-ci ildə Eçmiadzin (Üçkilsə) monastırının adına məxsus kənd kimi məlumdur [150, 177]. XVII əsrdə digər Kiraşlu kəndi Abaran mahalında [150, 33] idi. Bu kənd həm də Piri-Dərviş adlanırdı [2]. Türk dillərində qırac (azərbaycanca kirəç) sözündəndir.Şərqi Anadoluda XVII əsrin əvvəllərində ermənicə yazılışı Dalu Kiraz olan yaşayış məntəqəsinin adı çəkilir (Bax: 91, 6). XIX əsrdə Tiflis quberniyasının Oltin qəzasında Kiraşlı-Göl-Təpə (dağ adı) və Kiraşlı göl, Batum əyalətinin Artvin dairəsi ndə Kiraçdağ, Borçalı

qəzasında Kirəç-Muğanlı toponimləri ilə [133, 134] eynidir. (Türkmənistanda Qıraçlı kənd adı barədə bax: S.Atanıyazov, göst., lüğəti, s. 132).

KİRƏKƏK - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı. XIX əsrin sonlarından sonra adı çəkilmir. Türk dillərində kora, kura "qışda mal-qara üçün tövlələr" (143, II, 1, 551) və ükək "qüllə" [93, 623] sözlərindən ibarətdir.

KİRKİBAŞ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 156]. Türk dillərində kırka "bərk süxurlu yüksəklik" [126, 329] və baş sözündəndir.

KİRKİ BULAQ - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (170, 16). Türk dillərində kırka "şaxələnmiş daq beli", "bərk süxurlardan ibarət yüksəkliyin beli" (126, 329) və bulaq sözlərindən ibarətdir. Azərbaycanda Xırxatala (Qax r-nu) kənd adı ilə mənaca eynidir.

KİRKİTDAĞ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133, 134]. XIX əsrdə Şimali Qafqazda Vladiqafqaz dairəsində Kirqito-Kom (çay adı), Tiflis quberniyasının Duşet qəzasında Kurkitdaq (dağ adı), Stavropol quberniyasının Açi-Kulak dairəsində Kirkut (kənd adı) toponimləri (yenə orada) ilə səsləşir. Mənası məlum deyil.

KİRKİTDAQ - İrəvan quberniyasının Novobayazid qəzasında Toxluca kəndinə məxsus qışlaqlardan birinin adı (136, 34).

KİRKƏND - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 134).

KİRƏGİRD - 1590-cı ildə Rəvan əyalətinin Abaran mahalında kənd adı [169, 233]. Türk dillərində kır - "yüksəklik", "hündür sahil" [126, 327] və qədim farsca gird- "qala" (bax: 145) sözlərindəndir.

KİRƏŞDƏRƏ - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Noyemberyan r-nunda) qışlaq adı. XX əsrin 30-cu illərində kolllepktivləşmə ilə əlaqədar olaraq ləğv edilmişdir. Azərbaycan dilində kirəc və dərə sözlərindəndir. Azərbaycanda Kirəcbulaq (Qax r-nu Tasmalı kəndi), Kirəcdərə bulağı (Qax r-nu Ləkit-Malax kəndi), Kirəcbulaq (Qax r-nu İlisu kəndi), Kirəcbulaq (Zaqatala r-nu Ələsgər kəndi) toponimlərindəki kirəc sözü ilə eynidir. Bax: Kiraşlı.

KİRƏÇAY - İrəvan xanlığının Sürməli mahalında kənd adı. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159]. "Girəcli çay" mənasındadır.

KİRIX - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 134]. XIX əsrin sonlarından sonra adı çəkilmir. Qızılbaşların Ustaclu tayfasının Kırık tirəsinin adını əks etdirir. Bax: Əliqırıq.

KİRS - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı [133]. XIX əsrin 80-cı illərində məlumata görə Kəngərlərin Sofulu tayfasının qışlaqlarından (bax: Acıbac) biri Kirs adlanırdı (103, 166). 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Yerli əhali içərisində tələffüz forması Kırs. XIX əsrdə Azərbaycanın Şuşa qəzasında Kirs dağı və Quba qəzasında Kirsdaq toponimləri [133] ilə eynidir. Mənası məlum deyil.

KİSAR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı [133]. XX əsrin əvvəllərində kənd dağılmışdır. Əsli Hisar. Ərəbcə hesar "qala" (145, 237) (burada tsiklopik tikinti, qalaça, hörükdaş) sözündəndir.

KİSƏK - 1727-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (32, 296). Mənbədə kənddə cəmi 3 xristian ailəsinin yaşadığı qeyd olunmuşdur. (yenə orada).

KİTİKYAN - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı [159]. XIX əsrin ortaldarından sonra mənəbələrdə adı çəkilmir.

KİTİ - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159]. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır [159].

Kəti adından təhrifdir . Bax: Kətidağ.

KİTİ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Kəti adından təhrifdir. Bax: Kətidağ.

KİÇİK AĞVİRAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 80). "Ortaviran kəndinin yaxınlığında yerləşir" (yenə orada).

KIÇIK AQDAQ - Göycə bölgəsində Qelaş dağ silsiləsində zirvələrdən birinin adı (60, 63). XX əsrin 30-cu illərində ermənicə Qexasar adlandırılmışdır. Bax: Böyük Aqdaq.

KİÇİK AYASLI - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 49). Böyük Ayaslı kəndindən yaranmışdır. Mənşəcə Quşçu tayfasının məskunlaşması nəticəsində yaranmışdır. Bax: Böyük Ayaslı kəndi.

KİÇİK AĞAMƏK - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində qışlaq adı (22, 122).

KİÇİK AYRUM - Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Tumanyan r-nunda) kənd adı. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Ayrum elinin məskunlaşması nəticəsində yaranmışdır. Bax: Ayrım.

KİÇİK ARIQVƏLİ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 19]. İkinci Arıqvəli də adlanmışdır. 1878-ci ildə əhalisi qovulumş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd ermənicə Pokr Mantaş adlandırılmışdır.

KİÇİK ARMUDLU - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 19). 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. XX əsrin 30-cu illərində Böyük Armudlu ilə birləşmişdir. 1946-cı ildə kənd ermənicə Tandzut adlandırılmışdır.

KİÇİK BAŞKÖY - Artik r-nunda kənd adı. 1878-ci ildə kəndin azərbay-canlı əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmşdir (6, 158). 1946-cı ildə kənd ermənicə Saralanç adlandırılmışdır.

KİÇİK BƏYKƏND - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 36]. 1878-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 174). Digər adı Kiçik Pərni. Bax: Böyük Bəykənd. 1969-cu ildə kənd ermənicə Anuşavan adlandırılmışdır. Bəykənd sonralar XIX əsrin ortalarında Böyük Bəykənd kəndindən yaranmış məntəqədir. Mənbədə Bekand kimidir (yenə orada). Ona görə də toponimin bəy və kənd sözlərindən ibarət olması ağlabatan deyil.

KİÇİK BUĞUTLU - İrəvan quberniyasının Aleksandropol qəzasında (133, 44) Pəmbək dağ silsiləsinin zirvələrindən birinin adı [159]. Bax: Böyük Buğutlu.

KİÇİKBULAQ QIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində qışlaq adı (23, 85). Mənbədə qışlağın Havı Osman adlı şəxsə mənsub olması qeyd olunur (yenə orada).

KİÇİK VEDİ - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1590-cı ildən məlumdur [169, 217]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və 1920-ci ildə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ildə azərbaycanlıların bir hissəsi geri qayıdaraq yenidən məskunlaşmışdır. Ondan sonra kəndin əhalisi qarışıq olmuşdur. 1988-ci ildə əhalinin azərbaycanlı hissəsi qovulmuşdur. Bax: Vedi.

KİÇİK QARABAĞ - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı (23, 104).

KİÇİK QARAQOYUNLU - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 115]. Yengicə də adlanmışdır. XIX əsrin ortalarında Böyük Qaraqoyunlu kəndindən yaranmışdır. XX əsrin 30-cu illərində kənd dağılmışdır. Qaraqoyunlu tayfasının adını əks etdirir. Bax: Böyük Qaraqoyunlu.

KİÇİK QARAKİLSƏ - Axuryan r-nunda kənd adı. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1945-ci ildə kənd ermənicə Azatan adlandırılmışdır. Böyük Qarakilsə kəndindən yaranmış məntəqədir.

KİÇİK QARNİ - İrəvan xanlığının Abaran mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra kəndin adı çəkilmir. Qarni kəndindən XVIII əsrin sonlarında yaranmış məntəqədir. Bax: Qarni.

KİÇİK DAYƏ - 1728-ci ildə İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı (23, 56).

KİÇİK DƏVƏLİ - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 221].

KİÇİK DƏVƏLİ - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 226].

KİÇİK DƏLLƏR - İrəvan xanlığının Qarnibasar mahalında kiçik kənd adı (bax: 159). XIX əsrin sonlarına aid məlumatda İrəvan qəzasında Kiçik Dalular kimidir (133, 74). XIX əsrin 70-ci illərində xaricdən gəlmə ermənilər kənddə yerləşmiş və azərbaycanlıları çıxartmışlar. 1886-cı ildə kəndin əhalisi ermənilər idi. Ermənicə Pokr Sepasar adlandırılmışdır. Bax: Dəllər.

KİÇİK DÜZKƏND - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 123).

KİÇİK DÜRKƏND - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 124).

KİÇİK ZEYVƏ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. XIX əsrin 30-cu illərində Böyük Zeyvə kəndindən yaranmış məntəqədir.

KİÇİK ZİMMİ QIŞLAĞI - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 123).

KİÇİK YENİCƏ - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [170, 15].

KİÇİKKƏND - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 88). "Karbi kəndinin yaxınlığında yerləşən kiçikkənd. Kəndin başqa adı Uş" (yenə orada).

KİÇİKKƏND - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

KİÇİKKƏND - İrəvan xanlığının Seyidli-Axsaqlı mahalında kənd adı. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

KİÇİK KƏPƏNƏK - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 113]. 1878-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 173). 1945-ci ildə kənd ermənicə Hovit adlandırılmışdır. XIX əsrin 40-cı illərində Böyük Kəpənəkçi kəndindən yaranmış məntəqədir.Bax: Böyük Kəpənək.

KİÇİK KƏTİ (KEYTİ) - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 128]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Lernants adlandırılmışdır. XIX əsrin ortalarında Keyti kəndindən yaranmış məntəqədir.

KİÇİK GÜZNÜT - XVIII əsrin ortalarında İrəvan əyalətinin erməni mənbələrində Qeqarkuni (indiki Göyçə) adlandırıllan mahalda kənd adı [150, 360].

KİÇİKLİ - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [23, 70].

KİÇİKLİ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 125). Başqa adı Gözəldərə (23, 137). Bax: Gözəldərə kəndi.

KİÇİK GİLƏNAR - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. XX əsrin 50-ci illərində kənd ləğv edilmişdir. Əsli Kiçik Gilanlar [20, 230]. Bax: Gilanlar.

KİÇİK GİLAN - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 102).

KİÇİK MƏZRƏ - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. Digər adı Bala Məzrə. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Bax: Baş Məzrə.

KİÇİK MƏSİMLİ - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 103).

KİÇİK ÖRDƏK - İrəvan xanlığının Dərəçiçək mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra kəndin adı mənbələrdə çəkilmir. Böyük Ördək kəndindən XVIII əsrin axırlarında yaranmış məntəqədir.

KİÇİK SARIYAR - İrəvan quberniyasının Aleksandropol qəzasında (sonra Qukasyan r-nunda) kənd adı (133, 219). 1918-1919-cu illərdə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd Pokr Sariar adlandırılmışdır. Bax: Sarıyar.

KİÇİK TALİN - Talin r-nunda kənd adı. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı kimi çəkilir (23, 47). 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Digər adı Aşağı Talin. XIX əsrin əvvəllərində Talin kəndindən yaranmış məntəqədir.

KİÇİK TƏPƏGÖY - Amasiya r-nunda kənd adı. 1950-ci ildə Böyük Təpəgöy kəndinə birləşdirilmişdir (6, 174). Digər adı Xırda Təpəgöy. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

KİÇİK XAS - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 40).

KİÇİK XIRDAKAR - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 22). Əsli Xırdaqar. Azərbaycan dilində xırda (kiçik) və ərəbcə qar "mağara" sözlərindən ibarətdir.

KİÇİK CAMIŞLI - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133]. XIX əsrin ortalarından sonra kəndin adı mənbələrdə çəkilmir. XIX əsrin ortalarında Böyük Camışlı kəndindən yaranmış oba idi.

KİÇİK ŞƏHRİYAR - İrəvan quberniyasının Eeçmiadzin qəzasında kənd adı [133]. XIX əsrin əvvəllərində əhalisi qarışıq kəndlərdən idi. 1920-ci ildə kəndin azərbaycanlıları qovulmuşdur. 1968-ci ildə kənd ermənicə Nor-Hartaqes adlandırılmışdır.

KİÇİK ŞİŞTƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 267]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd Pokr Sepasar adlandırılmışdır.

KİÇİK ŞƏLLÜ DƏMİRÇİ - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı [159]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Darpnik adlandırılmışdır. Əsli Şorlu. Bax: Şorlu-Dəmirçi kəndi.

KIĞI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı (133, 131). Mənbədə Kiğı kimidir (yenə orada). 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Kığı kəngərlərin Sofulu tayfasının

məskunlaşması nəticəsində yaranmış məntəqələrdən biridir. Ona görə də digər adı Kiçik Sofulu. Əsli Kiqi. XIX əsrdə Şimali Qafqazda Kuban əyalətində Kukovoy- Kurqan və Kükü-Oba-Daq, Batum əyalətinin Batum dairəsində KukUti (kənd adı) Tiflis quberniyasında Kükü gölü, Naxçıvanda (Şahbuz r-nunda) Kükü kəndi, Quba qəzasında Kükü dağı, Zəngəzur qəzasında Kükülü dağı toponimləri [133] ilə mənaca eynidir. Abşeron yarımadasında (Qobustanda) bir palçıq vulkanı Gigidağ adlanır. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində Qıqıcan kəndi qeyd olunmuşdur [170, 22]. Kıqı dağının adındandır.

KIĞI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında dağ adı. Kığı kəndinin şimal tərəfindədir. Dağ həm də Əlimərdan adlanır [20, 150]. Əsli Kiqi. XIII əsərə aid mənbədə Türkiyənin şərqində Van gölündən şimalda yerləşən mahal adı kimi qeyd olunmuşdur [bax: 144, 393]. XIX əsrdə Ərzrum əyalətində Kiğı məlumdur [95, 22]. Görünür, əhalinin hərəkəti ilə əlaqədar olaraq gətirilmə addır. Mənası məlum deyil.

KIĞI QALASI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında Kığı çayının sağ sahilində Kığı kəndinin ərazisində qədim qala adı [20, 150].

KIĞIÇAY - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında çay adı [133]. Gərd, Acıbac və Kurut dağlarından başlayır və Zeyvə kəndi yaxınlığında Oxçu çayı ilə birləşir. Uzunluğu 30 km [20, 150].

KILIK - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133]. Gətirilmə adlardandır. XIX əsrdə Yelizavetpol quberniyasında Kilikdağ, Batum əyalətinin Batum dairəsində Kilik (dağ burnunun adı), Dağıstanın Kürə dairəsində Kilik-Qələnxur (kənd adı) toponimləri [133] və Dağıstan əyalətinni Samur dairəsində Kılık kənd adı (133,

151) və Kilikiya ilə mənaca eynidir. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. Mənası məlum deyil.

KIMIZDAQ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı (136, 32). Həmin qəzada Əyrivəng kəndinin oradakı yaylağı da Kımızdaqadlanırdı (yenə orada).

KINIQKƏND - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133]. Kınıksukənd də adlanmışdır. Səlcuq oğuzlarının Kınık tayfasının [34, 341-344] məskunlaşması nəticəsində yaranmışdır. Türkiyədə Kınık adlı 81 kənd vardır (34, 425-426).

KINRIQ - İrəvan quberniyasının Aleksandropol qəzasında xaraba kənd adı [133].

KOVUNLU - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı (170, 20). "Kəndin əhalisi Quzugüdənli əşirətindəndir" (yenə orada).

KOĞ - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133, 137]. Qədim ermənicə "l" səsi olmadığına görə türk mənşəli Kol adının yazılışıdır. Qədim türk mənşəli kol (kul) tayfasının adını əks etdirir [bu tayfa barədə bax: 78 və 79].

KOĞES - Stepanavan r-nunda kənd adı (60, 84). Qədim türk mənşəli Kol tayfasının adından yunan mənşəli "es" şəkilçisindən ibarətdir.

KOLAQARX - İrəvan xanlığının Seyidli-Axsaqlı mahalında kənd adı [159]. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Şenavan adlandırılmışdır. Yerli tələffüz forması Gölək-Arx. Bax: Qulaqsız.

KOLAGİRƏN - Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Quqar r-nunda) kənd adı (99, 380). XIX əsrin ortalarında Türkiyədən gəlmə ermənilər də yerləşdikdən sonra əhalinin əksəriyyətini ermənilər təşkil etmişdir. 1918-ci ildə kəndin əhalisi

qovulmuş və 1920-ci ildə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1948-ci ildə kənd ermənicə Antarmut, 1978-ci ildə Dzoraqet adlandırılmışdır. Kolagirən türk tayfasının adını əks etdirir. 1588-ci ilə aid türkcə mənbədə qışı Bərdə sancağının "Qəsəbə" nahiyəsində maldar həyat tərzi keçirən Kolagirən tayfasının adı qeyd olunmuşdur [167, 216]. Qədim türk mənşəli kol tayfasının adından və kuran "düşərgə" sözündən ibarətdir. Orta əsrlərdə Anadoluda yaşamış Danişmandlu-Turkmən tayfasının 24 boyundan biri Kolagirən adlanırdı [167, 216]. Kolangirən qolunun özü də bir sıra tirələrdən (Xocalı, Həsən Abdallu, Əyyublu, Çikdamlu, Çölməkçi, Darğalı, Dadulu, Darblu, Dür-Həsənli və b.) ibarət idi.

KOLAGİRƏN - İrəvan xanlığının Göycə mahalında (indi Ermənistanın Martuni r-nunda) kənd adı (133). XVIII əsrin ortalarından məlumdur (150, 361). 1935-ci ildə kənd ermənicə Tsovinar adlandırılmışdır. Kolagirən tayfasının adındandır.

KOLANI - İrəvan xanlığının Göycə mahalında kənd adı [159]. 1728-ci ildən məlumdur (23, 55). 1951-ci ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır. 1728-ci ildənməlumdur [170, 112]. Orta əsrlərdə Qarabağda və qismən İrəvan əyalətində yaşamış türkləşmiş kürd mənşəli Kolanı tayfasının [bax: 78, 74] məskunlaşması nəticəsində yaranmış məntəqələrdəndir. Naxçıvanda Kolanıçay hidronimi ilə mənşəcə eynidir (Azərbaycanda Kolanı tayfasının adını əks etdirən toponimlər barədə bax: 1, s.73-77).

KOLANI ARALIQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. "Kolanı yaxınlığında Aralıq kəndi" mənasındadır. Bax: Aralıq Kolanı.

KOLANIQIRAN - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 128]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür. Əsli Kolanı Quran. Ermənistan

ərazisində bir sıra toponimlərin tərkib hissəsi olan “qıran” sözü qədim türk dillərində kuran (kuren) “düşərgə”, “maldar elin düzən yerdə alaçıqlarının dvairəvi formada qurduqları yer” mənasındadır. Bax: Dərvişqıran, İtqıran və Çatqıran.

KOLANI - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (32, 310). Mənbədə kənddə 2 xristian ailəsinin yaşadığı qeyd olunmuşdur (yenə orada).

KOLANILI - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1945-ci ildə kənd ermənicə Verin Kolanlu adlandırılmışdır. Kolanı elinin adındandır.

KOLANILI - Vedi r-nunda kənd adı. 1949-cu ildə kəndin əhalisi Azərbaycana kbçürüldükdən sonra kənd dağılmışdır. Kolanı elinin adındandır.

KOLARA - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı [133]. 1621-ci ilə aid ermənicə mənbədə Kalar kimi yazılmış və onun Saatlı tayfasından Qayıtmış bəyə məxsus mülk olması göstərilmişdir [150, 27]. 1949-cu ildə kənd ermənicə Qukasavan adlandırılmışdır. Mənşəcə Azərbaycan türklərinin yaşadığı kəndlərdəndir. Çuxur-Səd bəylərbəyi Əmirqunə xan (1605-1625) Anadolunun Karin, Muş, Van və digər əyalətlərinə hərbi səfər zamanı gətirdiyi erməniləri Kolara, Göy-Gümbət (bax), Kavakert (bax), Parakar (bax) və Sabat kəndlərində yerləşdirilmişdir [135, 70]. İlk dəfə 1621-ci ilə aid mənbədə adı çəkilir [135, 116]. Azərbaycan dilində kol və ara (aralıq) sözlərindən ibarətdir. “İki kolluq arası mülk” yaxud Aralıqda yerləşən kol mənasındadır.

KOLAÇAN - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 126). Qapıcıq da adlanır (yenə orada).

KOLQAT - Alagöz dağ silsiləsindən şimalda dağın adı (60, 85). Yerli tələffüz forması Qolqat. Türk dillərində kol "vadi", "çay yatağı" (143,III, 1, 582-583) və kat "dağın gündüşən tərəfi" sözlərindən ibarətdir. Bax: Qolqat.

KOLT - XVIII əsrin ortalarında İrəvan əyalətində kənd adı [150, 354]. Qədim türkmənəşəli Kol tayfasının adından və cəm bildirən -t şəkilçisindən ibarətdir. Erkən orta əsrlərdə Albaniyada Kolt ("Alban tarixi", II kitab, 35-ci fəsil) və Kolt-Əkərək (yenə orada, 14-cü fəsil) toponimləri ilə mənşəcə eynidir

KONQURDAQ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 132]. Türk dillərində rəng bildirən konqur (Azərbaycan dilində qonur) və dağ sözlərindən ibarətdir. Azərbaycanda Kəlbəcər r-nunda Qonqurdaq dağ adı ilə mənaca eynidir.

KORATAQ - XVIII əsrin ortalarında Göycə mahalında kənd adı [150, 361]. Türk dillərində kora- "mal-qara üçün tövlələr" [143, II, I, 551] və yataq maldar elin "qışlaqda düşərgə yeri" sözlərindən ibarətdir.

KORBEL - XVIII əsrin ortalarında Göycə mahalında kənd adı [150, 361].

KORBULAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında çay adı (133, 140).

KORBULAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında (sonra Abaran r-nunda) kənd adı (133, 140). 1918-1919-cu illərdə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1978-ci ildə kənd ermənicə Şenkain adlandırılmışdır. Azərbaycan dilində Korbulaq gözü görünməyən (olmayan) bulaq mənasındadır. Azərbaycanda Korcabulaq [Şəmkir r-nu] və Korcabulaq [Laçın r-nu] kənd adları ilə mənaca eynidir. Kənd adını oradakı "Korbulaq"dan almışdır.

KORBULAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133, 140]. 1850-ci ildə kəndin əhalisi qovulmuş və 1878-ci ildən Türkiyədən gəlmə ermənilər

yerləşdirilmişdir (6, 174). 1946-cı ildə kənd ermənicə Tsaxkaşen, 1967-ci ildə Tsizavet adlandırılmışdır.

KORQAN - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı (133, 140). Türk dillərində kurqan sözündəndir.

KORQAN - İrəvan quberniyasının Sürməli qəzasında xaraba qala adı (133, 140). XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Korqan kənd adı ilə (133, 140) mənşəcə eynidir.

KORQOÇU - 1590-cı ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [169, 232]. Kora Qoçu, yəni "Qoçunun korası (tövlələri)" mənasındadır.

KORKEÇİLƏR - 1590-cı ildə Rəvan əyalətinin Talin nahiyəsində məzrə adı [169, 247]. Ehtimal ki, Kora Keçililər adından təhrifdir. Keçili tayfasına mənsub ailələrin korası mənasındadır.Bax: Keçili.

KORSULTANŞALI - 1590-cı ildə Rəvan əyalətinin Ərmus nahiyəsində kənd adı [169, 251]. Sultanşalı elinə məxsus kora mənasındadır.

KORLAVƏNG - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [170, 17]. Mənbədə kəndin Zəngənə camaatından yaratdığı məntəqə olması qeyd olunur (yenə orada). Ehtimal ki, əsli Koralıvəng. Türk dillərində kora-"mal-qara üçün tövlə" və vəng sözlərindən ibarətdir.

KORLU - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 45]. Mənbədə kəndin "Alı vələdi İbrahim" adlı şəxsə (mülkədara) məxsus olduğu qeyd edilir (yenə orada).

KOROĞLU - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133]. XIX əsrin sonlarından sonra mənbələrdə çəkilmir. Qızılbaşların Zülqədər tayfasının Koruqlu qolunun [78, 56] məskunlaşması nəticəsində yaranmışdır. Səlcuq oğuzlarının Karık tayfasının adından təhrifdir. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Koroğlu kənd adı [133] ilə mənaca eynidir. Karıqlı (təhrifi Koruqlu) elinin adı ilə bağlı adlarla 1610-1630-cu illərdə fəaliyyət göstərmiş xalq qəhrəmanı Koroğluya aid edilən yer adları qarışmışdır. XIX əsrdə Qars əyalətinin Ərdahan dairəsində Koroğlu dağı, həmin əyalətin Kaqızman dairəsində Koroğlu qalası və "Koroğlu dağı qalası", həmin əyalətin Oltin qəzasında Koroğlu qala xarabalağı və "Koroğlu başı dağı" [133], Azərbaycanda "Koroğlu zağası" [Gədəbəy r-nu], "Koroğlu dərəsi" (yenə orada), "Koroğlu qalası" (yenə orada), "Koroğlu qalası" (Şəmkir r-nu), "Koroğlu qalası" (Tovuz r-nu), "Koroğlu qalası" (Ağdam r-nu) və b. toponimlərin hamısının Koroğlunun adı ilə əlaqədar ola bilməsi (Qasım İsmayılov r-nunda Səfikürd kəndi ərazisində "Qıratın tövlə yeri" adlı toponim də vardır) ağlabatan deyildir. XVII əsrin əvvəllərinə aid ermənicə mənbədə Şərqi Anadolunun Tokat əyalətində qeyd olunan Çanqlubel dağ adı [90, 25] göstərir ki, Koroğlu dastanındakı Çənlibel dağı və qalası Azərbaycan ərazisində yerləşmirdi.

KOROĞLUQALASI - Pəmbək bölgəsində Şahalı kəndinin şimal-qərbində qalanın adı (6, 207).

KORÇİBAQ - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. "Qorçi (sultan qvardiyasının əsgəri) bağı" mənasındadır.

KORÇİLİ - İrəvan xanlığının Dərəçiçək mahalında (159), sonra İrəvan quberniyasının Novobayazid qəzasında (136, 64) kənd adı. Mənbədə kəndin həm də Allahverdikənd adlandığı qeyd olunur (136, 64). XIX əsrə aid mənbədə Korçalı kimidir (136, 64). Əsli Qorçili. Orta əsrlərdə qorçi-"sultan qvardiyasının əsgəri", "qulam" sözündəndir.

KORÇİBAQ - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. "Qorçi (sultan qvardiyasının əsgəri) bağı" mənasındadır.

KOSALAR - 1590-cı ildə Rəvan əyalətinin Abaran mahalında kənd adı [169, 237].

KOSALI - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı [133]. XX əsrin əvvəllərində kənd dağılmışdır. Ehtimal ki, Kosalı elinin adından ibarətdir.

KOSALI - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 12]. 1727-ci ilə aid mənbəyə görə kənddə cəmi 2 azərbaycanlı ailə yaşayırdı (32, 259).

KOSALI - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində kənd adı (23, 42).

KOSAMƏHƏMMƏD - İrəvan xanlığının Göycə mahalında, sonra İrəvan quberniyasının Novobayazid qəzasında (133, 141) kənd adı. 1830-cu ildə kənddə Türkiyədən gəlmə ermənilər də yerləşdirildikdən sonra əhali qarışıq yaşamışdır. 1935-ci ildə kənd erməncə Batikyan adlandırılmışdır. 1948-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür. Kəndin əsasını qoymuş şəxsin adıdır.

KOSACAN - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 141). 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 37) idi.

KOTANI - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (23, 59). Kotannı (əsli Kotanlı adından təhrifdir. Bax: Kotınlı.

KOTANLI - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. 1949-cu ildə kəndin əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır. Azərbaycanda və Ermənistanda türk mənşəli bir sıra toponimlərdə "Kotan" sözü əsas etibarilə iki

mənadadır: I. Qıpçaqların mənbələrdə qeyd olunmuş Kotyan tayfasının (V.Q.Tizenqauzen. Sbornik materialov, otnosəhixsə k istorii Zolotoy Ordı. Tom I, Spb, 1894, s. 540-541) adını əks etdirir. 2. Bəzi toponimlərdə isə türk dillərində kutan "qışlaqda maldarların düşərgə yeri", "tövlə" Bax: Koş-Kutan [126, 323], "gecələr heyvan salınan yer", "qoyun üçün ağıl" (Budaqov L.Z. lüğəti, II, 70) sözündəndir. Bu kənd erkən orta əsrlərdə Anadoluda yaşamış Kotan (Kotyan) tayfasının [36] məskunlaşması nəticəsində yaranmışdır.

KOTANLI - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133, 142]. 1918-ci ildə kənddə Türkiyədən gəlmə ermənilər də yerləşmişlər. 1946-cı ildə kənd ermənicə Karmraşen adlandırılmışdır. 1988-ci ildə kəndin Azərbaycanlı əhalisi qovulmuşdur. XIX əsrdə həmin qəzada Kotanlı kənd, Qars əyalətində Yuxarı və Aşağı Kotanlı kənd adları (133, 142) və Tiflis quberniyasının Siqnax qəzasında Kotaneti kənd adı (133, 142) ilə mənşəcə eynidir. Qıpçaqların kotyan tayfasının adını əks etdirir.

KOTGAH - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Noyemberyan r-nunda) kənd adı [133]. 1946-cı ildə kənd ermənicə Şavarşaşen adlandırılmışdır. XIX əsrdə Qazax qəzasında Kotkənd, Qars əyalətinin Ərdavan dairəsində Kotugöy (kənd xarabalığının adı), Şimali Qafqazda Stavropol quberniyasının Qroznı dairəsində Kotdağ (dağ adı) toponimləri [133], Azərbaycanda Qutqaşen (indi Qəbələ) ilə mənaca eynidir. Bir sıra türk mənşəli toponimlərdə həm də qut, kut formalarında iştirak edən bu söz həm də "möhkəmləndirilmiş yer"mənasındadır.

KOXB - Noyemberyan r-nunda kənd adı. Kolb adının ermənicə tələffüzü-dür. Kolb toponimi isə qıpçaqların Kuloba tayfası adının təhrifidir.

KOXUTTƏPƏ - İrəvan quberniyasının Eçmiadzin qəzasında təpə adı (133, 142).

KOXT - 1590-cı ildə Rəvan əyalətinin Qarni nahiyəsində kənd adı [169, 204]. 1728-ci ilə aid mənbəyə görə kənd "Hacı Abdullah Vələdi Əli" adlı şəxsə məxsus idi [170, 70]. XX əsrin əvvəllərinə aid mənbədə Erməni Koxtu və Tatar Koxtu kəndləri qeyd olunur (133-142). Kolt adının ermənicə tələffüzü formasıdır. Erməni mənbələrində indiki Ermənistan və Alban ərazisində bir neçə Kolt mahal adı çəkilir. Bir Kolt Kürün sağ sahili ilə Aqstafaçay arası bölgənin adı idi. Qədim türk mənşəli Kol tayfasının (bax: 79) adındandır. Bax: Koqt.

KOÇABƏY - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində [170, 14] kənd adı. Ehtimal ki, "Bəyə məxsus köç" mənasındadır.

KOÇKARA - İrəvan quberniyasının Aleksandropol qəzasında çay adı [133]. Azərbaycanda Qoşqarçay (orta əsrlərə aid mənbələrdə Koşkara kimi qeyd olunmuşdur) hidronimi ilə eynidir. Ehtimal ki, türk dillərində koç (koş) "köçəbə" və kora "maldar elin qışlaqda düşərgə yeri" sözlərindən ibarətdir.

KOŞEHAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3]. Əsli "Koş-e xan", yəni xana məxsus koş. Bax: Koşkutan.

KOŞKUTAN - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında ( indi Ermənistanın Noyemberyan r-nunda) kənd adı [133, 143]. Türk dillərində koş (qoş) "maldar elin yaylaqda düşərgəsi" və kutan "yaylaqda gecələr qoyun salınan yer", "dairəvi hasarlanmış yer", "tövlə" [126, 323], "qışda qoyun salınan yer" (L. Z. Budaqov, II, 170) sözlərindən ibarətdir. XVIII əsrin əvvəllərinə aid ermənicə mənbədə İrəvan əyalətinin Dərəçiçək mahalında Korkutan adlı kənd qeyd olunur [150, 362]. Qeyd edilməlidir ki, qədim türk mənşəli koş sözü məhz indi bəzi toponimlərdə olduğu kimi "xoş" formasında (bu göstərir ki, "k" səsinin "x"

səsinə çevrilməsi Azərbaycanda hələ erkən ortaəsrlərdə baş vermişdi). hələ "Alban tarixi"ndə VII əsrə aid hadisələrdə Albaniyada Artsax bölgəsində Xoştan və Xoş ("Alban tarixi", III fəsil) kənd adlarında əksini tapmışdır. 1727-ci ilə aid mənbədə bu toponim Xoşəndam və Xoştək kənd adlarında qalmışdı [171]. XIX əsrdə Qazax qəzasında Koşkutan [152], Qax r-nunda Keşkutan (əsli Koşkutan), Quba r-nunda Keşqutan çayı, Laçın r-nunda Xoşgədik [133], Şəki rayonunda Orta Zəyzit kəndi ərazisində Kotan nohur düzü və Qutan dərəsi (Oravan kəndi ərazisində) və başqa toponimlərlə mənaca eynidir. Qazaxstanda Kotan-Karaqay (108, 150) toponimi ilə müqayisə olunur.

KÖKSÜKÖVRƏK - 1728-ci ildə İrəvan əyalətinin Sürməli qəzasında yaylaq adı (23, 65). "Burada Sürməli kəndinin əhalisi yaylayır" (yenə orada). Kitabi Dədə Qorqud) eposunda çəkilən toponimlərdəndir.

KÖKÇÜ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [176, 7].

KÖMÜR - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133, 128]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür. Digər adı Axtaçul yəni "Axta kəndi yaxınlığında Çul (kəndi)" İlk dəfə 1728-ci ildən məlumdur [170, 15]. Qədim türk dillərində kömür-"dağın başında dar yarğan", "uçurum" [143, II, 1, 1321] sözündəndir. Azərbaycanın Kəlbəcər və Laçın rayonları Kömürdağ, Oğuz r-nunda Kömür aşırımı, Quba r-nunda Kömürdağ toponimləri ilə mənaca eynidir.

KÖMÜR - 1728-ci ildə İrəvan əyalətinin Sisyan nahiyəsində kənd adı (23, 150). Mənbədə qeyd olunur ki, kənddə heç kim yaşamır (32, 246). Naxçıvan MR Kömür kəndinin adı ilə mənaca eynidir.

KÖMÜRLÜ - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1828-1832-ci illərdə əhalisi qovulmuş, lakin sonra qayıtmışdır. 1918-ci ildə əhalisi qovulmuş və kənd

dağılmışdır. 1728-ci ilə aid mənbədə Kumurlu kimidir [170, 12]. Kömürlü dağının adındandır. Bax: Kömürlü dağı.

KÖMÜRLÜ - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133, 129]. Türk dillərində kömür (bax: Kömür) sözündəndir. Azərbaycan türklərinin yaylaq yerlərindən biri olmuşdur.

KÖPƏKLİ - 1728-ci ildə İirəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 128). Mənşəcə Qıpçaqların Kobyak tayfasının adını əks etdirir.

KÖRNƏ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170, 53]. Mənbədə kəndin adı həm də Hüseynli adlandığı və onun Quzugüdənli tayfasından yarandığı göstərilir (yenə orada). Mənası məlum deyil.

KÖRPƏLİ - İrəvan xanlığının Karbibasar mahalında kənd adı [159]. 1590-cı ildən məlumdur [169, 92]. 1728-ci ilə aid mənbədə kəndin Mesinli "əşirətindən" (yəni elindən) olması qeyd olunur [170, 45]. XIX əsrin ortalarında əhalisi qarışıq kənd idi. 1935-ci ildə kənd ermənicə Arşaluys adlandırılmışdır.

KÖRPÜQULAŞ - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı. XIX əsrin ortalarından sonra kəndin adı mənbələrdə çəkilmir. Əsli Karpi-Kulas. "Karbi (kəndi) yaxınlığında Kulas (kəndi)" yaxud "Kulas (kəndi) yaxınlığında Karbi (kəndi)" mənasındadır. Erkən orta əsrlərdə Xəzərlər içərisində qədim türk mənşəli Kulas tayfasının (bax: 78) adını əks etdirir. Azərbaycanda Xulaşlı və Ulaşlı kənd adları ilə mənaca eynidir.

KÖRPÜKƏND - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. Digər adı Körpüqulağı. "Torpaqqala" da adlanmışdır [20, 230]. 1949-1950-ci illərdə əhalisi Azərbaycana

köçürüldükdən sonra kənd dağılmışdır. Ehtimal ki, Şərqi Anadoluda orta əsrlərdə Kerpi (Kepri) mahalının [150, 115] adından ibarət olmaqla gətirilmə addır.

KÖRPÜLÜ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 128).

KÖTƏKLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1728-ci ildən adı çəkilir (170, 50). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Əsli: Kataklı. Peçeneqlərin Katak tayfasının adını əks etdirri. Bax: Katax.

KÖTÜKLÜ MƏZRƏSİ - 1590-cı ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [169, 70].

KÖHNƏ AĞDAŞ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 4]. Ağdaş kəndindən Təzə Ağdaş məntəqəsi yarandıqdan sonra “Köhnə Ağdaş” adlandırılmışdır. Kənd isə adını Novobayazid qəzasındakı Ağdaş dağından [133] almışdır. XIX əsrdə Qars əyalətinin Qars dairəsində Ağdaş dağı adı ilə [133] mənaca eynidir.

KÖHNƏ BULAQ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

KÖHNƏ TALİN - İrəvan xanlığının Talin mahalının mərkəzi (Bax: 159). 1590-cı ilə aid mənbədə Talin kimidir [169, 244]. Sonra ondan yeni məntəqə yarandığına görə (bax: Təzə Talin) Köhnə Talin adlanmışdır. Bax: Talin.

KÖHNƏ ŞAHABLI - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. XX əsrin əvvəllərində kənd dağılmışdır. Şahablı kəndindən (bax) Təzə Şahablı məntəqəsi yarandıqdan sonra “Köhnə Şahablı” adlandırılmışdır. Bax: Şahablı.

KÖHNƏ DİLİLƏR - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3]. Əsli Köhnə Dəlilər.

KÖÇƏRİ - 1590-cı ildə Rəvan əyalətinin Sisyan nahiyəsində kənd adı [169, 364]. 1728-ci ilə aid mənbədə də çəkilir (23, 150).

KÖÇƏRLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 61). Mənbədə Kəçərlu kimidir (yenə orada). XIX əsrin ortalarında əhalisi qarışıq kəndlərdən idi. 1886-cı ildə kəndin əhalisi ermənilərdən ibarət idi. 1946-cı ildə kənd ermənicə Mrqaşat adlandırılmışdır. Ehtimal ki, əhalinin hərəkəti əlaqədar olaraq Anadoludan gətirilmə addır. Orta əsrlərdə Türkiyədə Aydın əyalətindən Menderes çayı ilə ayrılan bir nahiyə Köçərli idi [83, 23]. XIX əsrin əvvəllərində qışı Qarabağda keçirən 52 ailəli bir el də Köçərli adlanırdı (bu tayfa barədə bax: 77). Mənşəcə Köçərli qədim türk mənşəli Kuçar tayfasına mənsubdur [77]. Bax: Basar-Keçər.

KUZOVDAN - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. 1919-cu ildə əhalisi qovulduqdan sonra kənd ddağılmışdır. Toponim ya qədim türk dillərində küz- ”payız otlağı” (Azərbaycan da Küzlək və Küzdək kənd adlarında olduğu kimi) və ovdan sözlərindən, ya da quzu və ovdan sözlərindən ibarətdir. Qışlaq əsasında yaranmış kəndlərdəndir.

KUYLU - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 147). Bax: Quyulu.

KULANƏLİ - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170, 20]. Əsli Qulanlıqışlaq. Qulan saxlanılan (qışlaq) mənasındadır.

KUMAN - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı. XX əsrin əvvəllərində kənd dağılmışdır. Qədim türk mənşəli koman (kuman) tayfasının [bax: 78] adını əks etdirir. 1593-cü ilə aid mənbədə Qarabağda Kumanlu (Qıpcaqlu) və Əski Kumanlu tayfalarının yaşadığı göstərilir (167, 211).

KUNDA - İrəvan xanlığının Sürməli mahalında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Ehtimal ki, fars dilində kund-”təpə” sözündəndir.

KURDUMVAR - İrəvan quberniyasının İrəvan qəzasında qışlaq adı (133, 140).

KURDUMVAR - İrəvan quberniyasının İrəvan qəzasında kutan adı (133, 140).

KURDUMVAR - İrəvan quberniyasının İrəvan qəzasında post adı (133, 140).

KURƏTAK - XVIII əsrin ortalarına aid ermənicə mənbədə Dərəçiçək mahalında kənd adı [150, 360]. Monqolca küriyə-”hasarlanmış yer”, “maldar elin düşərgəsi” və azərbaycanca yataq (qışlaqda mal-qara üçün yataq yeri) sözlərindən ibarətdir.

KURKİ - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı [170, 19]. Mənbədə kəndin həm də Rud adlandığı qeyd olunmuşdur (yenə orada). Ehtimal ki, türk dillərində kora “mal-qara üçün tövlələr” [143, II, I, 551] sözündəndir.

KURUT - Yelizavetpol (Gəncə) qubernyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı (133, 155). 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. XIX əsrin ortalarında Zəngəzur bölgəsində yaşamış maldar Qiqili tayfasının qışlaqlarından biri Kurut adlanırdı (103, 150). Bax: Gəgəli. Ehtimal ki, Kurut dağının adındandır. Bax: Kurut dağ adına.

KURUT - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) dağ adı [133, 134]. Mənbədə Kirut kimidir (yenə orada). Ehtimal ki, fars dilində kuh "dağ" və Urut toponimindən ibarətdir. Bax: Urud. "Urud dağı" mənasındadır.

KUTURAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 28]. Ehtimal ki, türk dillərində kudu-"otlaq" [143, II, 2, 99] və örən-"xaraba" sözlərindən ibarətdir.

KUŞÇU - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 16]. Bax: Quşçu.

KÜZƏÇİK - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 153]. Yerli tələffüz forması Gözəçıq. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (11, 164). 1950-ci ildə kənd ermənicə Lançaxpuyr adlandırılmışdır. 1728-ci ildən məlumdur [170]. XIX əsrin I yarısına aid mənbədə İrəvan xanlığının Qırxbulaq və Göycə mahallarında iki Gözəçıq kənd adı göstərilmişdir [159]. Qırxbulaq mahalındakı Gözaçıq kəndi 1828-ci ildə ermənilər tərəfindən dağıdılmışdır [159]. Orta əsrlərdə Anadoluda yaşamış Bayat tayfasının Küzücəkli qolunun (34, 233) adını əks etdirir.

KÜZƏCİK - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 153).

KÜKÜDAĞ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında iki dağın adı (133, 153).

KÜKÜVANZ - 1728-ci ildə İirəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (170, 4). Həmin mənbədə kənddə cəmi 3 xristian ailəsinin yaşadığı qeyd olunur (32, 300).

KÜKÜRDLÜ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 124).

KÜKÜRDLÜBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 128).

KÜLƏKLİ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində Hacur kəndinə məxsus məzrənin adı (23, 127). Yerli tələffüz forması Güləkli. Güləxilidən, Güləxili isə Qul Əxi-dən təhrifdir.

KÜLƏXİ - 1728-ci ildə İrəvan əyalətinin Baqdadcıq kəndinin başqa adı (23, 131). Əsli Qul Əxi. Sufi ordeninə mənsub əxiyə bağışlanmış kəndin adı.

KÜLTƏPƏ - 1728-ci ildə İrəvan əyalətində kənd adı (150, 183). Ayrum tayfasına mənsub ailələrin "Kültəpə" adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır (yenə orada).

KÜLTƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133). Dağ oradakı "Kültəpə" qədim yaşayış yerinin (təpədə ocaq yeri olduğuna görə kül qatı vardır) adı ilə adlanmışdır.

KÜLÜT - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı (133). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. XIX əsrdə Borçalı qəzasında Kulet dağ adı, Dağıstan əyalətinin Samur dairəsində Kulid kənd adı (133) ilə mənaca eynidir.

KÜMÜRLÜ - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində əkənd adı (23, 53).

KÜMÜRLÜ - İrəvan quberniyasının Novobayazid qəzasında Pəmbək dağ silsiləsinin zirvələrindən birinin adı (136, 2).

KÜNBƏD - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı (28, 68). Əsli Gümbəd (Gümbəz).

KÜNNÜT - 1727-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (32, 278). Bax: Günnüt.

KÜRDVİRANI - 1590-cı ildə Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı (169, 269). Mənbədə kəndin həm də Güney yörə adlandığı qeyd olunur (yenə orada). Kürd kənd xarabalığı mənasındadır.

KÜRD ƏLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. 11728-ci ilə aid türkcə mənbədə Kürd Əli

[170, 48], lakin həmin vaxta aid ermənicə mənbədə Kurdali kimidir [150, 366]. Kəndin adı ya Əli adlı bir kürd (feodalın), ya da "Kürd eli", yəni "Kürd tayfası" mənasındadır.

KÜRDƏLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı (133, 154). 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 88). "Abarana tabe olan Haşamlı kəndinin yaxınlığında yerləşən Kürdəli kəndi" (yenə orada). Əsli Kürd eli, yəni "Kürd tayfası".

KÜRDƏMİR - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsindjə kənd adı [170, 15]. Kürd etnonimindən və Əmir şəxs adından ibarətdir.

KÜRDKƏND - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 154).

KÜRD KƏNDİ - İrəvan quberniyasının Qarnibasar mahalında kənd adı [133].. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağıdılmışdır [159]. "Kürdlərin yaşadığı kənd" mənasındadır.

KÜRDLƏR - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus r-nunda) kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

KÜRDPƏMBİ - Abaran r-nunda kənd adı. XIX əsrin 70-ci illərində Türkiyədən köçüb gəlmiş Yezid kürdlərinin məskunlaşması nəticəsində yaranmışdır. Digər adı Sipak.

KÜRDÜVAN - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın İcevan r-nunda) kənd adı [133]. Digər adı Şiraz. 1935-ci ildə kənd ermənicə Yenokavan adlandırılmışdır. "Kürd kəndi" mənasındadır.

KÜRD XƏLİL - 1590-cı ildə Rəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [169, 271].

KÜRD ÇULU - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 154).

KÜRƏVAN - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı (169, 226). 1728-ci ilə aid mənbədə Kuravan kimidir (170, 10).

KÜRƏQOÇAQ - İrəvan quberniyasının Dərəkənd-Parçenis qəzasında kənd adı (133). XIX əsrin ortalarından sonra kəndin adı mənbələrdə çəkilmir. Türk dillərində kora-"qışlaq yerində qışda, gecələr mal-qara salmaq üçün tikinti", "daşqura (143, II, 1, 551) və Qoçaq şəxs adından ibarətdir. Azərbaycanda Şəmkir r-nunda Qurudağ (yəni quralar yerləşən dağ) adında əksini tapmışdır. Toponimlərdə təhrif olunmuş şəkildə "kürə" və "quru" formalarında olan bu söz XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində Qurudağ, Tiflis quberniyasının Borçalı qəzasında Qurulu (qışlaq adı), Vladiqafqazda Kura Əyan (bulaq adı), Dağıstanın Samur dairəsində Qurudağ (dağ adı), Ter əyalətinin Maykop dairəsində Kuru Kutan, Azərbaycanda Kürədağ (Cəbrayıl r-nu), Kürkəndi (Sabirabad r-nu) və Kortala (Zaqatala r-nu) və s. toponimlərdə [133] də vardır. Bax: Quruağac və Quruboğaz dağ adlarına. Kürə həm də "sıldırım yamaclarla əhatə olunan yer, dar keçidli yamacın vadisi" mənasında ola bilər.

KÜRƏDİZ - 1590-cı ildə Rəvan əyalətinin Məvaziyi=Xatun nahiyəsində kənd adı [169, 133]. Türk dillərində kora "qışlaq yerində gecələr mal-qaranı salmaq üçün tövlələr" və düz sözlərindən ibarətdir. Təhrifi Horadiz.

KÜRƏKƏNDİ - İrəvan xanlığının Karbibasar mahalında kənd adı [133]. 1918-ci ildə əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. 1978-ci ildə ermənicə Ferik adlandırılmışdır. Azərbaycan dilində kora "qışlaqda gecələr mal-qara saxlamaq üçün daşdan və ya çiy kərpicdən tikinti" və kənd sözlərindəndir. Qışlaq əsasında yaranmış məntəqədir. Bax: Kürəqoçaq.

KÜRƏKƏNLİ - İrəvan quberniyasının Eçmiadzin qəzasında (indi Abaran r-nunda) kənd adı (133, 154).. 1918-ci ildə kəndin əhalisi qovulmuş və 1922-ci ildə Türkiyədən gəlmiş Yezid kürdləri yerləşdirilmişdir (20, 101). Digər adı Qaracanlı. Toponim Quraqanlı adının təhrifidir. Türk dillərində quraqan (qoriqan)-"maldar elin düşərgəsi", "alaçıqları qurduqları yer" mənasında-dır. Bax: İtqıran və Çatqıran.

KÜRƏKLİ - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı (23, 68). "Kəndin başqa adı Baxış qışlağıdır" (yenə orada). "Əminəli qışlağı" da adlanır (yenə orada). Bax: Aşağı Kürəkli və Yuxarı Kürəkli.

KÜRƏKLİ - 1728-ci ildə İrəvan əyalətinin İqdır nahiyəsində kənd adı (23, 68). "Nəzərəli qışlağı da adlanır" (yenə orada).

KÜRƏNLİ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində məzrə adı [170, 53].

KÜRƏCİK - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 79). Türk dillərində kora (kura) "qışlaqda gecələr mal-qaranı salmaq üçün tikililər" sözündəndir. "Kiçik kora" mənasındadır.

KÜRƏCİK - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 77).

KÜRKÇÜ - 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində məzrə adı [169, 204]. "Hacılı kəndinin yaxınlığında olan Kürənli məzrəsi" (23, 92).

KÜRÜS - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Meğri r-nunda) kənd adı (133, 159). XIX əsrə aid ədəbiyyatda Kuris kimidir yenə orada). Gorus toponiminin təhrif formasıdır. Bax: Gorus.

KÜSÜS - İrəvan quberniyasının İrəvan qəzasında (indi Vedi r-nunda) kənd adı [133, 155]. 1590-cı ildə Rəvan əyalətinin Karbi nahiyəsində Küsüsüz qışlaq adı [170, 47]. Mənbədə

qışlağın adı Tərnəqut (bax) kəndinə məxsus olması qeyd olunur (yenə orada). 1728-ci ilə aid mənbədə Vedi nahiyəsində Küssüz kimidir (23, 106). 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd ləğv edilmişdir. Küsüz də adlanmışdır [20, 230]. Bax: Küsüs dağı.

KÜSÜS DAĞI - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı [133]. Küz (paryız otlağı) olmayan mənasındadır.

KÜSÜHLÜ ŞƏTLİ - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində əkənd adı (23, 51). Küsühlü Qızılbaşların Ustaclu tayfasının Küsülü qolunun (138, 90) adını əks etdirir. "Küsülü (kəndi) yaxın-lığındakı Şətli (kəndi)" mənasındadır.

KÜTÜRAN - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı (23, 51). Türk dillərində qut, kut “kutan” (bax: Koşkotan) və aran “qışlaq” sözlərindən ibarət adın təhrif formasıdır.

KÜTÜRAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 78).

KÜTÜS - 1590-cı ildə Rəvan əyalətinin Vedi nahiyəsində kənd adı [169, 222].

GABUT - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133]. 1918-ci ildə kəndin əhalisi qovulmuşdur. 1932-ci ildə bir hissəsi geri qayıdaraq yenidən məskunlaşmışdır. 1968-ci ildə kənd Kapuyt adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. 1728-ci ilə aid mənbədə Kabut kimidir [170, 15]. Ehtimal ki, kənd Kabut dağ adındandır. Gabud adı isə mənası məlum olmayan “ga” (ga, qa) və türk dillərində but “dağ qolu”, “ayrıca yüksəklik” [126, 104] sözündən ibarətdir. Altayda Karabutdağ, Uzunbut [126, 104], Azərbaycanda Sultanbud və Quba r-nunda məşhur Təngə dərəsinin üstündə Qobutdağ adları ilə mənaca eynidir.

GAV - Amasiya r-nunda kənd adı. 1878-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 175). 1946-cı ildə kənd ermənicə Kaps adlandırılmışdır. Azərbaycan dilinin dialektlərində gav-"daşlı keçid" (6, 175) mənasındadır. Qazax r-nunda Gavtarı dağının (gav və qədim türk dillərində tör "yüksək dağ örüşü" sözlərindən) adından "gav" komponenti ilə mənaca eynidir. "Alban tarixi"ndə Gava mahalının (Tavus çayının aşağı axarı ilə Ağstafa arasındakı ərazi, indi Ermənistana aid Şəmşədil və Azərbaycanın Qazax r-nu əraziləri) adı ilə səsləşir.

GEDAS - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170, 20].

GENƏLİ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133, 60]. XIX əsrin II yarısında qışlaq əsasında yaranmışdır. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Mənbədə Qenalu kimidir. XIX əsrdə Şimali Qafqazda Qenal kənd adı (133, 60) ilə eynidir. Mənası məlum deyil.

GELLAVAN - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Aralıq nahiyəsində Geləvan kimidir (90, 103). XIX əsrin sonlarından sonra kəndin adı mənbələrdə çəkilmir. Əsli Geloqavan. Türkiyə ərazisində Diala çayının ətraf ərazisində-Şirvanda yaşamış Caf tayfa birləşməsinin Keloqavak tayfasının [90, 17] adındandır.

GEMAZOR - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı (23, 115). Mənbədə kəndin Mustafa Həsən oğluna məxsus olduğu qeyd olunur (yenə orada).

GENDƏRƏ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133, 60]. 1918-ci ildə kəndin əhalisi qovulmuşdur. 1928-ci ildə əhalinin az hissəsi geri qayıdaraq yenidən məskunlaşmışdır. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar

olaraq kənd dağılmış və rəsmi surətdə ləğv edilmişdir. Qerqer (əsli Qarqar) çayı sahilindəki “Gendərə” dərəsinin adındandır.

GENDƏRƏ - SU - İrəvan quberniyasının Novobayazid qəzasında çay adı (133, 60)).

GENƏŞİK - Yexeqnadzor r-nunda kənd adı. 1918-1919-cu illərdə azərbaycanlı əhalisi qovulmuş və ermənilər yerləşdirilmişdir. Kənd ermənicə Qışik adlandırılmışdır. Azərbaycan dilində gen (geniş) və eşik sözlərindən ibarətdir. Qışlaq əsasında yaranmış məntəqələrdəndir.

GERAŞBAĞ - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23, 92).

GEREŞAN - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 79).

GƏDİ MAYMAK - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı [133]. Türk dillərində gədə-”keşikçi”, “gözətçi”, “qaravul” və Mamak (Mamay) adından ibarətdir. Azərbaycanda Gədəbəy (gədə “keşikçi”, “qaravul” və bək “təpə” sözlərindən) toponimi ilə səsləşir.

GƏDİS - İrəvan quberniyasının İrəvan qəzasında dağ adı. Ehtimal ki, türk dillərində gədə-”keşikçi” sözündəndir.

GƏDİKVƏNG - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı [133]. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. 1946-cı iləcək Qoturvəng adlanmışdır. Lakin yerli tələffüz forması Qoduqvəngdir. Əgər toponim Gədikvəngdirsə, onda Azərbaycan dilində gədik və vəng “kilsə” sözlərindən ibarətdir və “gədikdə (dağ belində batıq yerdə) yerləşən vəng” mənasını verir.

GƏZBEL - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında dağ adı [133]. Aazərbaycan dilində gəz (dağın belində batıq yer, bax: Alagöz) və bel (dağ beli) sözlərindən ibarətdir.

GƏZDƏK - Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Noyemberyan r-nunda) qışlaq adı [133]. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq ləğv edilmiş, əhalisi qonşu Ləmbəli kəndinə köçürülmüşdür. Qədim türk dillərində küz-”payız otlağı” və məkan bildirən -lək, -dək şəkilçisindən ibarətdir.

GƏZƏRBAD - Ani r-nunda kənd adı. 1945-ci ildə kənd ermənicə İshakyan adlandırılmışdır. Qədim forması Xəzərabad. Erkən orta əsrlərdə Albaniya və Ermənistan ərazisində məskunlaşmış Xəzər tayfalarının izlərindəndir. Füzuli r-nunda Xəzər dağı, Ordubad r-nunda Xəzər-Yurd dağ adlarında qalmışdır.

GƏGƏLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. XVI-XVII əsrlərdə Anadoluda Van gölündən şərqdə yaşamış Mahmudlu (Kürd Mahmudlu da adlanırdı) tayfasının Gəgəli (Gigili) tirəsinin məskunlaşması nəticəsində yaranmışdır. XIX əsrin 80-cı illərinə aid mənbədə Qiqili kimidir (103, 150). Maldar həyat keçirən bu elin Kurut (bax: Kurüt), Mahmudlu Payxan və Çiriş adlı qışlaqları vardı (yenə orada). Azərbaycanda İmişli və Füzuli rayonlarında Kürd Mahmudlu tayfasının XIX əsrdə bir qolu Gəgəli adlanırdı. XIX əsrin əvvəllərində Qarabağda yaşayan tayfalardan biri də Gəgili idi [104, 274]. Zəngilan r-nunda Yuxarı və Aşağı Gəyəli kənd adları ilə mənşəcə eynidir.

GƏMİQAYA - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133]. Şimali Qafqazda Ter əyalətinin Nalçik dairəsində Kəm (dağ adı), Azərbaycanda Nuxa qəzasında Kəmdaq (133, 155). Zaqatal dairəsində Kəmiqaya (133, 111), XIX əsrin

sonlarından sonra kəndin adı mənbələrdə çəkilmir. XIX əsrdə Dağıstan əyalətinin Xasavyurt dairəsində Qəmə-tübə (kənd və təpə adı), Stavropol quberniyasının Açi-Kulak dairəsində Kemi-Tübə (təpə adı), Sürməli qəzasında Xami (dağ adı), Novobayazid qəzasında Kemi dərəsi (çay adı) [133], Azərbaycanın Kəlbəcər r-nunda Gəmiqaya (dağ adı), Qazax r-nun Şıxlı kəndi ərazisində Gəmiqaya (yer adı), Abşeronda Gəmicə dağı toponimləri ilə mənaca eynidir. Türk dillərində kəm, qəm-"dərə", "vadi" sözündəndir.

GƏLİNQAYA - 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində yaylaq adı [169, 334].

GƏLİNQAYA - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 72). Şirak vadisi ilə Pəmbək bölgəsiin ayıran dağın adı., hünd. 2489 m. Fərmanla ermənicə Harsnakar adlandırılmışdır.

GƏLİNQAYA - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında dağ adı (133, 72).

GƏLƏVAN - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [170, 87]. Bax: Gellovan.

GƏLƏNÇEVİR - 1727-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı (32, 288). Mənbədə kənddə cəmi 2 xristian ailəsinin yaşadığı qeyd olunmuşdur (yenə orada).

GƏLİNÇAR - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 121). Azərbaycanca gəlin və türk dillərində car "yarğan" sözündəndir.

GƏLİNCƏ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında dağ adı (hünd. 2741 m) [133].

GƏLTO - İrəvan quberniyasının Eçmiadzin qəzasında qışlaq adı [133, 72]. XX əsrin əvvəllərində dağılmışdır. Ehtimal ki, Azərbaycan dilinin dialektlərində kəl-"istirahətə buraxılmış əkin sahəsi" sözündəndir.

GƏNCƏK - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı [159]. 1728-ci ildən məlumdur [170, 14]. Bu mənbədə Gencek kimidir. 1828-1832-ci illərdə əhalisi qovulmuş və kənd dağıdılmışdır [159]. Bu kəndin yaranma tarixi məlum olmadığına görə adının mənşəyini aydınlaşdırmaq çətindir. Hər halda Azərbaycanın qədim Gəncə (ilkin forması Gəncək) şəhərinin adı ilə səsləşir. Qeyd etmək lazımdır ki, Gəncə adlı şəhər er. əv. III əsrdən Atropatenanın paytaxtı olmuşdur. Baş Od məbədi də orada yerləşirdi. Həmin şəhər VII əsrdə Bizans tərəfindən dağıdılmışdır və onun xarabaları indi Təxti-Süleyman adlanır. Şimali Azərbaycandakı Gəncə isə erkən orta əsrlərdə yaranmışdır və onun VI-IX əsrlərdə yaranması haqqında fikirlər müxtəlifdir. Bir sıra tədqiqatçılar (İ.Markvart, V.V.Bartold, N.Y.Marr, V.F.Minorski, Y.A.Manandyan, Z.M.Bünyadov, M.M.Altman, İ.M.Cəfərzadə və b.) Gəncə toponimini fars dilindəki gənc-"xəzinə", "dəfinə" (125, 409) sözü ilə əlaqələndirmişlər. Güman edilir ki, guya natura və pulla yığılan vergilər buralarda toplandığına görə həmin yerlər kəncə-"xəzinə" adlanmışlar. Bu fikir tamamilə əsassız və toponimika sahəsində bəsit düşüncə məhsuludur. Heç vaxt belə yolla coğrafi ad yaranmır. Nəzərə alınmır ki, birinci, Gəncə (k) toponimi (şəhər və kənd, çay adları) geniş areala malikdir; ikinci, qırğızlarda, qazaxlarda və türkmənlərdə indi də Gəncə (Gənjə) tayfaları vardır (bax: 79) və onların hamısını gənc (xəzinə) sözü ilə bağlamaq olmaz. Həqiqət bundan ibarətdir ki, həm şimalda, həm də Cənubi Azərbaycanda Gəncə şəhərləri er. əv. VII əsrdə şimaldan gəlmiş qədim türk mənşəli sakların yığcam halda yaşadığı yerlərdə yaranmışdır və ehtimal ki, Gəncək saklarda bir tayfanın adı olmuşdur. XI əsrdə Şərqi Türkistanda (qədimdə sakların yaşadığı ərazidə) oğuzların içərisində

Gəncək tayfasını Mahmud Qaşqari qeyd etmişdir. Beləliklə, indi Ermənistan ərazisində Gəncək kənd adı ya hələ er. əv. VII əsrdə gəlmiş saklarla, ya da XII əsrdə oğuzlarla gəlmiş Gəncək tayfasının adı ilə bağlıdır.

GƏNCƏK - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170, 3].

GƏNCƏLİ - 1728-ci ildə İrəvan əyalətinin Vedi nahiyəsində kənd adı (23, 106). “Zəncirli kəndinin yaxınlığında yerləşir” (yenə orada). “Başqa adı Şahablıdır” (yenə orada).

GƏNCİLİ - 1590-cı ildə Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169, 256].

GƏRAYKƏNDİ - 1590-cı ildə Rəvan əyalətinin Karpi nahiyəsində kənd adı [169, 205].

GƏRD - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ildə əhalinin bir hissəsi qayıdaraq yenidən məskunlaşmış və ermənilərlə qarışıq yaşamışdır. 1988-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuşdur. XIX əsrdə Zəngəzurda yaşamış Sarallı tayfasının qışlaqlarından (bax: Almalıq) birinin adıdır (103, 164). XIX əsrdə Şimali Qafqazda Kuban əyalətinin Bədəlpaşa dairəsində Kərt Məmiçay, Ter əyalətinin Nalçik dairəsində Kertmen (dağ adı), Zəngəzur qəzasında Gerdözən (çay adı) [133], Qazax r-nunda Gərdindağ, Dağlıq Qarabağda Kert (digər adı Quzumkənd) kənd adı [133] və başqa toponimlərlə mənaca eynidir. Altay-türk dillərində gərd-”hasarlanmış yer” [126] sözündəndir.

GƏRDƏCUR - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169, 196].

GƏRGƏR - Ttiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Stepanavan r-nunda) kənd adı [133]. 1937-ci ildə Puşkino adlandırılmışdır. 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Bezabdal dağından axan çay da Gərgərçay adlanır.

Əsli: Qarqar. Azərbaycan xalqının etnik tarixində mühüm rol oynamış qədim türk mənşəli [bax: 79] Qarqar tayfasının adını əks etdirir. Zaman keçdikcə bu tayfanın adı ilə bağlı yer adları guya pis səsləndiyinə görə “Gərgər”, “Hərhər” və “Qerqer” formalarına salınmışdır. Halbuki orta əsr mənbələrində bu toponimlərin hamısı “Qarqar” formasında əksini tapmışdır. XIX əsrdə Yelizavetpol quberniyasının Yelizavetpol qəzasında Gərgər, Şuşa qəzasında Gərgər, Borçalı qəzasında mənbənin Boz Abdal dağından götürən (99, 380) Gərgərçay [133], (Gədəbəy r-nunda Gərgərçay kəndində Gödəkdərə kəndinin Sarıhəsənli kəndindən çıxmış Qarqarlar nəslinin məskunlaşması nəticəsində yarandığı məlumdur), Dağlıq Qarabağda Maçkalaşen kəndi yaxınlığında Herher kənd xarabalığı, Dağlıq Qarabağda Qarqardağ silsiləsi vəb. toponimlərlə mənşəcə eynidir. XVIII əsrin ortalarına aid ermənicə mənbədə Türkiyənin şərqində Karqar adlı kənd qeyd olunmuşdur [150, 117]. Qarqarlar yığcam halda Albaniyanın indiki Dağlıq Qarabağ bölgəsində, Gərgər və Hərhər toponimlərindən göründüyü kimi, habelə indi Ermənistanda, Gürcüstanın Azərbaycanla həmsərhəd bölgələrinkidə, habelə Cənubi Azərbaycanda (orada Qərqər adlı 4 kənd vardır-145, 54) yaşamışlar. Bir versiyaya görə V əsrdə onların dilində alban əlifbası yaranmışdır. Rus, gürcü və erməni tarixçilərinin yazdıqları əsasında Azərbaycan tarixşünaslığında qarqarlar Dağıstan dilli (Qafqazdilli) hesab edilmiş və beləliklə bu türk mənşəli etnos azərbaycanlıların etnik tarixindən təcrid edilmişdir. Lakin son tədqiqatlar bu fikrin yanlış olduğunu göstərmiş və tarixi həqiqət yerini tutmuşdur (bu barədə bax: 13; 14; 78; 79). Ermənistanın Meğri r-nunun yerli əhali içərisində “Qarqadaşı” (əsli “Qarqardaşı, “Qarqar qayası”) adlanan bazalt qaya parçaları üzərində türk runi əlifba ilə yazılmış yazılar aşkar edilmişdir (Tariyel Əliyev. Həmzə Əliyev, Nüvədi Qarqadaşı yazılı abidələri. “Elm və həyat” jurnalı, 1968, № 11).

GƏRGƏR - Əzizbəyov r-nunda kənd adı. (60, 73). Qarqar adından təhrifdir.

GƏRGƏR - Stepanavan r-nunda kənd adı (60, 73). Qarqar adından təhrifdir.

GƏRGƏR - Əzizbəyov r-nunda Arpaçayın qollarından birinin adı XX əsrin 30-cu illərində çay ermənicə Erer adlandırılmışdır. Qarqar adından təhrifdir.

GƏRƏVAN - İrəvan xanlığının Vedibasar mahalında kənd adı [159]. Yerli tələffüz forması Gorvan olduğuna görə 1946-cı ildə Yenikənd adlandırılmışdır. Əsli Quravan. Türk dillərində kora (Azərbaycan dilindəki qura) "qışlaqda gecələr mal-qaranı salmaq üçün tikinti" və avan "kənd" sözlərindən ibarətdir. Bax: Kürəkəndi.

GƏRƏK - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 120). Türk dillərində karak "çay yaxud başqa su mənbəyi yaxınlığında yerləşdiyinə görə suvarılmaya ehtiyacı olmayan əkin (sahəsi)"; (qədim türk dillərində kayir "qum", "boş torpaq" sözündən), "nəm torpaqlı əkin yeri", "yeraltı sudan qidalanan əkin yeri" (bax: 126, 241) sözündəndir. Ola bilsin bu toponim türk dillərində kayrak "xart daşı" sözündəndir.

GƏRƏKBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı (23, 81). "Çobangərənməz kəndinin yaxınlığında yerləşir" (yenə orada).

GƏRƏKÇİÇƏK - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı (23, 46).

GƏRMƏSATAN - 1590-cı ildə Rəvan əyalətinin Abaran nahiyəsində kənd adı [167, 232].

GƏRMƏŞOV - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 72]. XIX əsrin sonlarından sonra adı çəkilmir. Gərməşov dağının adındandır.

GƏRMƏŞOV - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı [133, 72]. Dağın adı orada gərməşov ağacının bolluğu ilə əlaqədardır.

GİDEVAS - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170, 15].

GİGİD QAYASI - 1590-cı ildə Rəvan əyalətində yaylaq adı. "Şərabxana camaatı yaylayır" [169, 66].

GİLABİ - İrəvan xanlığının Abaran mahalında kənd adı [159]. XIX əsrin ortalarından sonra mənbələrdə bu kəndin adı çəkilmir. Ehtimal ki, erkən orta əsrlərdə Albaniyanın Gilab qalasının ("Alban tarixi", kitab, fəsil) adı ilə bağlıdır.

GİLABİ - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı. XIX əsrin ortalarından sonra mənbələrdə bu kəndin adı çəkilmir.

GİLANİ=SAQİR - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [170, 85].

GİLANİ=KƏBİR - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [170, 85].

GİLANAR SUFLA - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı [159]. 1828-1832-ci illərdə əhalisi qovulmuş və kənd dağıdılmışdır (yenə orada). XVII əsrə aid ermənicə mənbədə Böyük Gilan və Kiçik Gilan kəndləri qeyd olunmuşdur [150, 358]. Ehtimal ki, Gilan şəhərinin adındandır. Ordubad şəhərinin 6 km-liyində Gilan çayının sol sahilində Xaraba-Gilan adlı orta əsr şəhər xarabalığı vardır. Arazın əsl qollarından biri Düylün, digəri Gilan adlanır.

GİLANAR ULYA - İrəvan xanlığının Qarnibasar mahalında kənd adı. 1828-1832-ci illərdə əhalisi qovulmuş və kənd dağıdılmışdır [159]. Ehtimal ki, Gilan şəhərinin adındandır.

GİLƏMEŞƏ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) xaraba kənd adı.

GİLƏKƏRLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus r-nunda) kənd adı [133]. Kənd XX əsrin əvvəllərində dağılmışdır. Mənası məlum deyil.

GİLİK - Babaqar (Bax: Babakar) dağ belində bir zirvənin adı (60, 74). Əsil adı Gillik (yenə orada). Azərbaycan dilində Gillik (gil olan yer, gil çıxarılan yer) sözündəndir.

GİLLİGÖL - Göycə gölünün cənub şərq sahilində bir gölün adı (60, 74). XX əsrin 30-cu illərində ermənicə Gilli-Liç adlandırılmışdır (yenə orada).

GOMUŞ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı. XIX əsrin sonlarından sonra kəndin adı mənbələrdə çəkilmir. Qızılbaşların Qaradağlı [16] tayfasının Gamış tayfasının adındandır. Bax: Qamışlı. Ehtimal ki, tayfanın adı erkən orta əsrlərdə İranda Kumis əyalətinin [144] adından götürülmüşdür.

GORAN - İrəvan xanlığının Sərdarabad mahalında kənd adı [159]. XIX əsrin 70-ci illərində kəndin əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi. 1949-cu ildə kənd ermənicə Nor-Gesariya adlandırılmışdır. Qarabağın Kolanı tayfasının Goran qolunun məskunlaşması nəticəsində yaranmışdır. Orta əsrlərdə Kürdüstanda (XVI əsrdə Türkiyə və İran arasında bölüşdürülmüşdür) Baban, Ruvanduz, Xankəndi, Baxdian, Boxan və Ərdalan əmirliklərində yaşamış kürd mənşəli bir tayfa Goran adlanırdı (Ətraflı məlumat üçün bax: Max Şaraf-xanum Kürdüstani. Xronika doma Ardalan. Per. s. persidskoqo, vvedenie i premeçaniə E.İ.Vasilğevoy. M., 1990). Azərbaycanda Goran (Goranboy r-nu) kəndinin adı ilə mənşəcə eynidir. Azərbaycanda çoxlu Goran (Dağlıq Şirvanda Goran yurdu, Goran qışlağı barədə, bax: 7) toponimləri ilə mənşəcə eynidir.

GORAN - Spitak r-nunda kənd adı. 1918-1919-cu illərdə kəndin azərbaycanlı əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Qoqaran adlandırılmışdır. Goran tayfasının adındandır.

GORAN QALASI - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında dağ adı (136, 60).

GORANLI - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1935-ci ildə kənd ermənicə Arşaluys adlandırılmışdır. Kolanı tayfasının Goran tayfasının məskunlaşması nəticəsində yaranmışdır. Azərbaycanda (Dağlıq Şirvanda) kolanılardan Mustafa xana mənsub 13 ailəli XIX əsrin sonlarında yaratdığı Goranlı kəndinin adı ilə mənşəcə eynidir.

GORANƏ - 1590-cı ildə Rəvan əyalətinin Şərabxana nahiyəsində kənd adı [169, 240].

GORU - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus r-nunda) kənd adı [133]. 1950-ci ildə kənd ermənicə Dzovraşen adlandırılmışdır. 1728-ci ilə aid türkcə mənbədə İrəvan əyalətinin Göyçə nahiyəsində Korlu [170, 43] kənd adları çəkilir.

GORUS - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında XVIII-XIX əsrlərdə mahal adı (133). İndi Ermənistanda Qoris r-nunun ərazisidir. Mahal Albaniyanın Qoroz qalasının (“Alban tarixi”, III kitab, 16-cı fəsil) adındandır. Qoroz qalasının adı XI əsrə aid mənbədə də çəkilir [110, 188]. Qədim türk mənşəli qerus tayfasının adını əks etdirir (bax: Qors). Azərbaycanda və Ermənistanda toponimlərdə bu tayfanın adı Qors, Xors, Xoruzlu, Hors formalarında qalmışdır. Gorus mahalından çıxmış Azərbaycan-türk mənşəli bir elin XVI-XVII əsrlərdə Qızılbaşların tərkibində səfəvilərin hakimiyyətə gəlməsində rolu olmuşdur. Azərbaycanda və Ermənistanda “Gorus” adlı bir sıra toponimlər məhz Qızılbaş Gorus tayfasının

Səfəvi şahlarının onun üçün ayırdığı yerlərdə məskunlaşması nəticəsində yaranmışdır. Bu tayfa adının orta əsrlərdə Kürdüstanda mənbələrdə Gərrus kimi çəkilən əyalət adı ilə əlaqəsi bizə aydın deyildir (Bu tayfa barədə bax: Q.Qeybullayev. Qarabağ. Bakı. 1991, s. 101-104).

GORUS - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qoris r-nunda) məntəqə adı [133]. XIX əsrin əvvəllərində (1829-cu ildə) kəndə xaricdən gəlmə ermənilər də yerləşdikdən (103, 150) sonra əhali qarışıq yaşamışdır. 1918-ci ildə azərbaycanlılar qovulmuşdur. Ermənicə Qoris formasındadır.

GÖVHƏR HƏSƏN - 1728-ci ildə Dərələyəz nahiyəsində Həmzəli kəndinə məxsus otlağın adı (23, 57).

GÖDƏK BUZAVƏND - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı (23, 100). Başqa adı İnas (23, 101). Mənbədə kəndin Əli Abdulla oğluna məxsus olduğu göstərilir (yenə orada).

GÖDƏKBULAQ - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133]. XIX əsrin II yarısında xaricdən gəlmə ermənilər kənddə yerləşmiş və azərbaycanlılar tədricən sıxışdırılıb çıxarılmışdır. 1946-cı ildə kənd ermənicə Karçaxpur adlandırılmışdır. Digər adı Xırdabulaq. Azərbaycan dilindəki ködək, “qısa”, “kiçik” sözündəndir.

GÖDƏKLİ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 58]. 1919-cu ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. 1728-ci ilə aid mənbədə Kötəklidir [170, 49]. Qazaxların Gödəkli tayfasının [bax: 78] məskunlaşması nəticəsində yaranmışdır. Qazaxların Gödəkli tayfası isə mənşəcə qədim türk mənşəli Kotak tayfası ilə bağlıdır. Bax: Katak.

GÖDƏKLİ - İrəvan quberniyasının sürməli qəzasında kənd adı (133, 58). Başqa adı Qarabaqlu (yenə orada).

GÖDƏKLİ - İrəvan quberniyasının İrəvan qəzasında (indi Artaşat r-nunda) kənd adı [133, 58]. Başqa adı Kiçik Dəlilər (yenə orada). 1919-cu ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1945-ci ildə kənd ermənicə Mrqavan adlandırılmışdır. Qazaxların Gədəkli tayfasının adındandır.

GÖDƏKLİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus r-nunda) kənd adı [133, 58]. XIX əsrin sonlarından sonra mənbələrdə adı çəkilmir. Səlcuq oğuzlarının Xələc tayfasının Gödəkli qolunun adını əks etdirir.

GÖDƏKLİ - ZİJQAN - Yelizavetapol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı (133) XX əsrin əvvəllərində kənd dağılmışdır.

GÖZƏLDƏRƏ - Quqark r-nunda kənd adı. Digər adı İbrahimli. Keçmişdə Xancığaz da adlanmışdır [20, 318]. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur. Gözəldərə gözəl görünüşlü, təbiətcə cəlbedici dərə mənasındadır. XI əsrə aid ermənicə mənbədə Van gölünə tökülən bir çayın Gözəldərə çayı (ermənicə Txacur) adlandığı qeyd olunur (110,126). Gözəldərə adlı yaylaq yeri XYI əsrdə İranda Sultaniyyə yaxınlığında vardı (160, 174).

GÖZƏLDƏRƏ -İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı (133, 58) 1590-cı ildən məlumdur. (169,240). 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı kimi qeyd olunmuşdur (23, 137). Başqa adı Kiçikli (yenə orada). 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Vardanik adlandırılmışdır. Həmin qəzadakı Gözəldərə dağının adındandır.

GÖZƏLDƏRƏ - Ararat r-nunda kənd adı. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişlər. 1946-cı ildə kənd ermənicə Qexadzor adlandırılmışdır. Digər qədim adı Niq.

GÖZƏLDƏRƏ - Yelizavetopol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Gorus r-nunda) kənd adı (133). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

GÖZƏLDƏRƏ - Ələyəz dağından başlanan 30 km. uzunluqda dərə adıdır. Oradan axan çay da Gözəldərə adlanır (uz. 34 km.).

GÖZƏLDƏRƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 58). Mənbədə Gözəldərə-Tatar (yəni azərbaycanlı) da adlanır (yenə orada). 1918-ci ildə əhalisinin bir hissəsi (200) məscidə doldurulub yandırılmış (6, 175), digər hissəsi Türkiyəyə köçmüşdür. Hazırda xaraba kənddir.

GÖZƏLDƏRƏ - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı (133, 58).

GÖZƏLDƏRƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında çay adı (133, 58). Qazax r-nunda Gözəldərə çay adı (133, 58) ilə mənaca eynidir.

GÖZƏLDƏRƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı (133, 58). Mənbədə həm də Gözəldərə-Erməni də adlanır (yenə orada). XX əsrin 30-cu illərində kənd ermənicə Qexadir adlandırılmışdır (60, 73).

GÖZLÜ - İrəvan quberniyasının Elmiadzin qəzasında kənd adı (133, 52). 1950-ci ilə aid mənbədə "Gözlü məzrəsi" kimidir [169, 248]. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kəndə ermənicə Axunk adlandırılmışdır. XVIII əsrin əvvəllərinə aid ermənicə mənbədə Qozlu kimidir (6,368) "Gözlübulaq məzrəsi" adından qısaltmadır.

GÖZLÜBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı. Digər adı Ay-Toqmuş (170,145).

GÖZLÜBULAQ - 1728-ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı (23,112). " Kəndin başqa adı Təknəbulaqdır (yenə orada).

GÖZLÜ KƏMƏRLİ - İrəvan quberniyasının Elmiadzin qəzasında kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. "Gözlü (kəndi) yaxınlığında Kəmərli (kəndi)" mənasındadır. Qədim türk mənşəli Kəmər tayfasının adını əks etdirir. Bax: Kəmərli.

GÖYABBAS - İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında kənd adı(133, 59). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.(1922-ci ildə əhakli geri qayıtmışdır). Əsli Köy Abbas, yəni "Abbas köyü (kəndi)". Türkcə köy "kənd" və Abbas şəxs adından ibarətdir. 1948-ci ildə əhalisi Azərbaycana köçürülmüşdür.

GÖYBULAQ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində Gözlübulaq kəndinə məxsus məzrə idi (23,135).

GÖYBULAQ - İrəvan quberniyası Novobayazid qəzasında Elicə kəndinin maldarlarına məxsus yurd yerinin adı (136,34)

GÖYƏQIL - 1950-ci ildə Rəvan əyalətinin Karpi nahiyəsində kənd adı (169,211). "Göybulaq- ağıl" ( yəni Göybulaq üstündəki qoyun ağılları) adından qısaltmadır.

GÖYDƏRƏ - Masis r- nunda kənd adı.1948-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüş və ermənicə Qukasavan adlandırılmışdır. Azərbaycan dilində göy (göllük, yaşıllıq mənasında) və dərə sözlərindən ibarətdir.

GÖYƏRÇİLİ - 1728-ci ildə İrəvan əyaləti Karbi nahiyəsində kənd idi.(23, 96). Peçeneqlərin Kuyerçi tarlasının adının əks edilir. Bax: Göyərçin-.Yelizavetopol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın İcevan r-nunda) kənd adı [133]. 1950-ci ildə kənd ləğv edilmiş, əhalisi qonşu Salah kəndinə və Azərbaycana köçürülmüşdür [20, 78]. XIX əsrdə Qars əyalətinin Kaqızman dairəsində iki Göyərçin kəndi və Göyərçin dağı [133], ,Azərbaycan da Göyərçin-Veysəlli (Cəbrayıl r-nu) toponimləri ilə mənşəcə eynidir. XIX əsrdə Qafqazda Göyərçin adlı altı kənd vardı [133] Toponimlərdə "Göyərçin"sözü iki mənadadır. Bəzi kiçik, qayalı dağ adlarında (məsələn,Qobustanda Göyərçin dağı) bu söz məhz göyərçin quşunun adı ilə, bağlıdır. 2.Qədim türk mənşəli tayfa adıdır. IX əsrdə Cənub-Şərqi Avropada peneneqlərin Guyərçi tayfasının adı məlum olduğuna görə [bax:109] belə nəticəyə gəlmək olar ki, eranın əvvəllərində hunların tərkibində Cənubi Qafqaza gəlmiş peçeneqlərin içərisində Kuyərçi tayfası da vardı [bax:79]. Bax: Becini.Lakin sonralar danışıqda bu etnonim tanış göyərçin quşunun adı ilə qarışdırılmış və toponimlərdə də əksini tapmışdır.

GÖYƏRÇİN - İrəvan quberniyasının İrəvan qəzasində xaraba kənd adı [133,58].

GÖYƏRÇİN - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133).1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır.

GÖYƏRÇİN -İrəvan xanlığının Talin mahalında kənd adı (159) 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır (yenə orada).

GÖYƏRÇİNQALA - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı. 1918-ci ildə əhalisi qovulduqdan sora kənd dağılmışdır. Yaxınlıqdakı "Göyərçinqala"sının adı ilə adlanmışdır. Qalanın adı isə iki cür izah edilə bilər: 1) qala xarabalığında

göyərçin quşunun yuva salmasına görə; 2) Qədim türk-mənşəli Kuyərçi tayfasının adını əks etdirir. Bax:Küyərçilu.

GÖYƏRÇİN - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 130).

GÖYƏRÇİNLU - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23,130). Başqa adı Bəbirlu" (yenə orada).

GÖYYOXUŞ - Spitak r-nunda kənd adı. 1828-1829-cu illərdə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Saralanc adlandırılmışdır. Azərbaycan dilində göy (göylük, yaşıllıq mənasında) və yoxuş (yamac mənasında) sözlərindən ibarətdir.

GÖYKƏND - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində məzrə adı (23,109).

GÖYKİLSƏ - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı. [159]. 1590-cı ildən məlumdur [169,60]. 1918-ci ildə kəndin əhalisi qovulmuşdu (11,164). 1922-ci ildə bir hissəsi geri qayıtmışdır. 1935-ci ildə kənd ermənicə Kaputan (əsli farsca kabud-"göy") sözündən adlandırılmışdır. 1949-cu ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür. XVIII əsrin əvvəllərinə aid ermənicə mənbədə çəkilir. (150, 362). Əsli Göy Kilsə. Türkcə köy "kənd" və kilsə sözlərindən ibarət olmaq etibarilə "Kilsə kənd" mənasındadır.

KÖYGÜNBƏD - İrəvan xanlığının Zəngibasar mahalında kənd adı (159). 1590-cı ildən məlumdur. 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1922-ci ildə əhalinin bir hissəsi geri qayıdaraq ermənilərlə qarışıq yaşamışdır. 1946-cı ildə kənd ermənicə Texanist adlandırılmışdır. 1948-ci ildə azərbaycanlı əhali Azərbaycana köçürül-müşdür. Ararat əyalətinin bəylərbəyi. Əmirqunə xanın (1605-1625). Anadoludan gətirdiyi erməni

ailələrinin yerləşdirildiyi kəndlərdəndir. (135,70). Bax Kolara. Göy künbəz də adlandırılmışdır. Oradakı göy rəngli kaşı ilə bəzədilmiş günbəzli mavzoleyin adındandır.

GÖYRANUS - 1728-ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı. [170,15].

GÖYSU - İrəvan quberniyasının Novoboyazid qəzasında kənd adı (133, 59) 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Əsli Köy-Su. Türkcə köy"kənd"və su (çay) sözlərindən ibarət olmaq etibarilə "Çay kənd" mənasın-dadır.

GÖYNƏRLİ - 1728-ci ildə İrəvanda mənim İqdır nahiyyəsinə məzrə adı (23,69)

GÖY SEYİD - 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsindəkənd adı (23, 43).

GÖYTALA - Yelizavetopol (Gəncə) quberniyasının Qazax qəzasında  (indi Ermənistanın Dilican r-nunda) kiçik kənd adı.(133) XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir (20, 76).

GÖYULUS - İrəvan xanlığının Sürməli mahalında kənd adı. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulduqdan sonra kənd dağılmışdır.(159). Orta əsrlərdə Anadoluda yaşamış Boz Ulus elinin adını əks etdirir.

GÖYCƏ - Ərməniyə ərazisində  gölün adı. Dəniz səviyyəsindən 1916 m. yüksəklikdədir. Bax: Göycə mahal adı.

GÖYCƏ - İrəvan xanlığının mahallarından birinin adı.İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan türklərinin yaşadıqları bölgələrdən biridir.İlk dəfə 488-ci ildə Alban kilsə yığıncağında Koqçay (Göycə hidroniminin qədim ermənicə yazılışıdır) keşişinin iştirak etməsi qeyd olunmuşdur.  Şah I İsmayılın 1510-cu ilə aid fərmanında  "Göycə mahalı"ifadəsi işlədilmişdir. [134,177]. Gölün "Göycə"

adlanması XII-XIII əsrlərə aiddir. " Kitabi Dədə Qorqud" eposunda "Gökçə tenqiz" kimidir (27, 110). 1386-cı ildə Əmir Teymurun (Teymurləngin) Cənubi Qafqaza hərbi səfəri ilə əlaqədar olaraq mənbədə "Kökcə Tenqiz" (33,11), Həmdullah Qəzvinin əsərində (XIVəsr), Qekçə tenqiz, 1548-ci ilə aid mənbədə (134,179) "Qokca denqiz" formasındadır. Gölün bu adı onun suyunyn açıq havada göy (mavi) rəngə çalması ilə əlaqədardır. Ermənicə gölün adı V əsrdə Qelam dənizi kimidir (Moisey Xorenasi, II, 46) Bu ad erməni mənbələrində XVII əsrə qədər işlədilmişdir. XIV əsr erməni müəllifi "Qeqam dənizi" [107, 343], XVII əsr müəllifi isə "Qelam gölü" ifadəsini işlətmişdir [46, 202]. XVIIəsr erməni tarixçisi Arakel Təbrizinin əsərində də "Qeqam" (əsli Qelam, erməni dilində qədimdən "l" səsi "ğ" kimi tələffüz edildiyinə görə) dənizi formasındadır (57,494). Lakin XVII əsrin əvvələrinə aid başqa bir ermənicə mənbədə [150,360] Göycə mahalı "Göl olan" adlandırılmışdır. Orta əsrlərin erməni müəllifləri bu gölü həm də "Qeqarkuni gölü" [150, 361], Göyçə mahalını isə "Qeqam ölkəsi " [57, 92] adlandırırlar. (Alban tarixində "Qeqam vilayəti", “Alban tarixi” I-ci kitab 16-cı fəsil). Qeqarkuni (əsli Qelarkuni)və gürcü mənbələrində Göyçə gölü və mahalı üçün işlədilən Kelakuni (XIII əsr ərəb tarixçisi İbn Əl-Əsirin əsərində-Kilkun) əslində eyni adın müxtəlif formalarıdır və mənşə etibarilə qədim türk mənşəli qol (göl) sözündən yaranmışdır. Qelakuni er əv. VIII-VII əsrlərdə Urartuluların Göycə mahalını ifadə etmək üçün işlədikləri Gelakuni adı ilə bağlıdır.

Gölün ermənicə "Sevan" adlandırılması orta əsrlərə aiddir. Biz əvvəllər yanlış olaraq gölün Urartu dilində suye "su" və bu dildən erməni dilinə keçmiş tsov-"su" sözündən ibarət olduğunu yazmışdıq. Əslində "Sevan" adı ermənicə "Sevvanq" adının fonetik formasıdır. XIX əsrin ortalarına aid rusdilli mənbədə gölün adı "Sevanq" kimi qeyd olunmuşdur (136,2). İ.Şopen də gölün adını Sevanq kimi yazmışdır (159,

10). Gölün içərisində (şərq tərəfində) "Ada" adlanan kiçik ada vardır. Buranın Ada adlandığını XVIII əsrin əvvəllərində yaşamış erməni müəllifinin özü yazır [150, 360]. Qeyd edilməlidir ki, XI əsrdə Anadoluda Van qalasından şərqdə bir qala da "Sevan" adlanırdı [110,128]. 697-ci ilə aid hadisələrdə bu Sevan "Alban tarixi"ndə də qeyd olunur (Alban tarixi, III kitab, 13-cü fəsil). Adada Azərbaycan türkləri tərəfindən Qaravəng, ermənilər tərəfindən Sev-vank ("Qaravəng" adının tərcüməsi) monastırı vardır. Bu monastırın yerləşdiyi ada ilk dəfə XI əsr erməni mənbəyində [142, 58] və sonra XVII əsrdə Arakel Təbrizinin əsərində "Sevan adası" adlandırılmışdır. Həmin kilsə XVII-XVIII əsrlərdə Eçmiadzin kilsəsinin əmri ilə günahkar elan olunmuş monaxların sürgün yeri idi (150,397, qeyd 192). Məsələn, XVII əsr erməni mənbəyində deyilir ki, Eçmiadzin kotalikosu Akop Sevan tərkidünyasına başı qırxılmış və ayaqları qandallanmış monax göndərmişdi (90, 105). 1930-cu ildə "Göycə" adı fərmanla "Sevan" adlandırılmışdır. Göycə mahalı tarix boyu əhalisi Azərbaycan türklərindən ibarət bölgə olmuşdur. Təsadüfi deyil ki, hətta XVIII əsrin ortalarından bu mahal Eçmiadzin kilsəsinin yox, Kəlbəcər r-nundakı Xotavəng monastırının təsir dairəsinə daxil idi [150, 360]. Maraqlıdır ki, XVIII əsrin I yarısında Göycə gölünün içərisindəki, Qaravəng ( ermənicə Sevvang) monastırının nəzarət etdiyi kəndlər Azərbaycan türklərinin yaşadığı məntəqələr idi: Kamaxi,Batakal, Pşmakal, Buğdatəpə, Qaradaulu, Portak, Korataq, Ozan,Teqqi və b. [150, 361]. Ermənicə yazıldığına görə təhrif olunmuş bu kənd adlarının hamısı türk mənşəlidir. Alban tarixçisi 697-ci ilə aid məlumatda yazır ki, Göycənin içərisində adada qalanı tutduqdan sonra Mərvan ibn Məhəmməd "oradan o Ərməniyəyə keçib Bizans və erməni qoşunlarını məğlub etdi" ("Alban tarixi" III kitab, 13-cü fəsil).

GÖYCƏ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23,125).

GÖYCƏ - İrəvan xanlığının Göyçə mahalında kənd adı [159] 1590-cı ildən məlumdur. Digər adı Suaçır [169,331]. 1828-1832-ci illərdə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş və xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. 1969-cu ildə kənd ermənicə Anuşavan adlandırılmışdır. Göyçə gölünün adını əks etdirir.

GÖYCƏBƏYLİ - 1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd adı [169,62].

GÖYCƏBİNƏK - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı [170,23). "Əhali Nəcili camaatındandır". (Yenə orada).

GÖYCƏLİ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (133, 59). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Kənd XIV-XVI əsrlərdə Anadoluda yaşamış türk mənşəli Yeruk tayfa birləşməsinin Göycəli qolunun [34,186], ya da həmin əsrlərdə Anadolunun Varsaq tayfasının Göycəli qolunun [34,304] məskunlaşması nəticəsində yaranmışdır. Qeyd edilməlidir ki 1588-ci ilə aid mənbədə Qarabağın "Otuz iki ulusunda" yaşayan bir el də Göycəli adlanırdı. [167].

GÖYCƏLİ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 59). Mənbədə Qekcalu kimidir (yenə orada).

GÖL - İrəvan xanlığının Göycə mahalında (indi Martuni r-nunda) kənd adı. 1935-ci ildə kənd ermənicə Liçk adlandırılmışdır. 1948-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Göycə nahiyəsində Könülgöl və Camalkənd adları çəkilmişdir. [170,12].

GÖL - İrəvan quberniyasının İrəvan qəzasında (indi Vedi r-nunda) kənd adı (133, 59). 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır.

GÖL AYSOR - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 59] 1949-cu ildə əhalisi Azərbaycana köçürüldükdən sonra kənd dağılmışdır. "Aysor-göl", yeni "Göl yaxınlığında yerləşən Aysor" mənasındadır. Bax: Ələkli.

GÖLQAT - Artik r-nunda kənd adı. 1878-ci ildə əhalisi qovulmuş və erməni yerləşdirilmişdir (6, 175). 1948-ildə kənd ermənicə Qexanist adlandırılmışdır.

GÖLQAT - Artik r-nu ərazisində göl adı.

GÖLDAŞ - 1728-ci ildə İrəvan əyalətini Sürməli nahiyəsində kənd adı [23,63]

GÖLDƏK - 1728-ci ildə İrəvan əyalətinin Məzrə nahiyəsində kənd adı [23,62].

GÖLƏDƏK - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nqahiyəsində kənd adı [170, 16]. Kolataq adından təhrifdir. Azərbaycan dilinin dialektlərində kola "buynuzsuz keçi", "xırda buynuzlu heyvan" və yataq (qışlaqda xırda buynuzlu heyvanların saxlandığı yer) sözlərindən ibarətdir.

GÖLKƏND - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi ermənistanın Krasnoselo r-nunda) kənd adı [133]. 1988-ci ildə kəndin əhalisi azərbaycana qovulmuşdur. Əsli Qulkənd.Qıpçaqların kul (qul) tayfasının adını əks etdirir.

GÖLKƏND - İrəvan quberniyasının Novobayazid qəzasında kənd adı [133, 59]. 1728-ci ilə aid mənbədə Köyçə nahiyəsində kənd kimi qeyd olunur (23, 56). 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. Əsli Qulkənddir. Mənşəcə qıpçaqların kul (qul) tayfasının adını əks etdirir. Azərbaycanda çoxlu Qullar kənd adları ilə mənşəcə eynidir.

GÖLKƏND - 1728-ci ildə İrəavn əyalətinin Şirakel nahiyəsində kənd adı (23, 127).

GÖLKƏŞ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23, 121).

GÖLƏLİ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133]. 1878-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1847-ci ildə kənd erməncə Norabert adlandırılmışdır. Gətirilmə addır. Anadoluda Kür çayının yuxarı başında "Göləsuyu" adlı yer vardır, çünki orada Banardağ, Taqatəpə və Buğatəpə dağlarından gələn üç su Allahəkbər dağından gələn Kimiskar-Su ilə birləşərək göl əmələ gəlir. "Göləsu"nun ətrafı orta əsrlərdə maldar ellərin qışlaq yeri idi.

GÖLZİYARƏT - İrəvan quberniyasının Eçmiadzin qəzasında dağ adı [133,59]. Dağ həm də "Ziyarət" adlanmışdır, çünki orada qədim sitayiş yeri vardı. "Göllü Ziyarət dağı" mənasındadır.

GÖLYAZI - 1468-ci ildə Kapan vilayətinin Sisəcan nahiyəsində kənd adı [134,168]. XVI əsrdə Dəstəgird kəndinin məzrə (əkin) yeri idi [135,198].

GÖLLÜ - Amasiya r-nunda kənd adı. 1989-cu ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur. 1990-cı ildə kənd erməncə Ardenis adlandırılmışdır. Kəndin ərazisində həqiqətən gölməçə vardır.

KÖLLÜQIŞLAQ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Sisyan r-nunda) kənd adı [133]. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. "Göl olan qışlaq" mənasındadır.

GÖLLÜZƏMİ - Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan r-nunda) kənd adı [133]. XX əsrin əvvəllərində kənd dağılmışdır.

GÖLÇİQİN - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı [133, 59]. XIX əsrin sonlarından sonra adı çəkilmir. "Göl yanındakı Çiqin kəndi" mənasındadır. Səlcuq oğuzlarının Çiqin tayfasının adını əks etdirir. Bax: Çiqin. Bəlkə də toponim

Azərbaycan dilində göl və türk dillərində çiqin - "çayın döngəsi" [126,615] sözlərindən ibarətdir.

GÖRDƏK - 1728-ci ildə İrəvan əyalətinin Dərəçiçək nahiyəsində kənd adı [23,116].

GÖRKƏNDİ - 1728-ci ildə İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı [23,55].

GÖRÜCÜÖRƏN - 1728-ci ildə İrəvan əyalətinin Göycə nahiyəsində kənd adı (23,56).

GÜDÜLABAD - 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı (23,91). "Əhalisi Quzugüdənli camaatındandır" (yenə orada).

GÜGƏRÇİLÜ 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd adı [170,68]. Peçeneqlərin Kukerçi tayfasının adını əks etdirir. Bax: Göyərçinli.

GÜZÜT - 1590-cı ildə Rəvan əyalətinin Ağcaqala nahiyəsində kənd adı [169,191]. Ehtimal ki, küz - "payız otlağı" (küzlək) sözündəndir.

GÜGƏNDİZ - 1728-ci ildə Rəvan əyalətinin Vadi (Vedi) nahiyəsində kənd adı (170, 10). Mənası məlum olmayan "Gügən" və farsca diz "qala" sözlərindən ibarətdir.

GÜLABİ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı. XIX əsrin sonlarından sonra mənbələrdə kəndin adı çəkilmir. [133, 71] XIX əsrdə Tiflis quberniyasının Borçalı qəzasında Gülabi dağ (133, 71) adındandır. Ehtimal ki, keçmişdə paltar yumaq üçün istifadə olunan gilabın çıxarıldığı yerin adıdır.

GÜLABLI - İrəvan quberniyasının Eçmiadzin qəzasında (indi Ermənistanın Abaran r-nunda) kənd adı [133, 70] XIX əsrin 70-ci illərində kəndə ermənilər məskunlaşmış və azərbaycanlılar sıxışdırılıb çıxarılmışdır. 1886-cı ildə kəndin əhalisi erməni idi. 1946-cı ildə kənd ermənicə Dzoraqyuq adlandırılmışdır. XVIII əsrin əvvəllərinə

aid ermənicə mənbədə Gülabudur [150,365]. Azərbaycanda Gülablı dağı və Gülablı kəndi (Ağdam r-nu) adları ilə mənşəcə eyni olsa da mənası məlum deyil.

GÜLABLI - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Şəmşədil r-nunda) kənd adı [133].

GÜLBUDAQ - 1728-ci ildə İrəvan əyalətinin Qarni nahiyəsində kənd adı [23,50]. "Başqa adı Ketus (yenə orada). Bax: Ketus Əsli Qul Budaq.

GÜLƏKƏRƏK - Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Stepanovan r-nunda) kənd adı [99,418]. XIX əsrin ortalarında kənddə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1887-ci ilə aid məlumata görə kəndin əhalisi erməni idi [99,418]. Əsli Kol Əkərək. "Kol (kəndi) yaxınlığında Əkərək (kəndi) " mənasındadır. Bax: Əkərək.

GÜLƏR -İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında bulaq adı (133, 70).

GÜLƏHMƏD - İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında kənd adı [159] XIX əsrin ortalarından sonra mənbələrdə kəndin adı çəkilmir. Əsli: Qul Əhməd.

GÜLKƏND - 1728-ci ildə İrəvan əyalətinini Karbi nahiyəsində kənd adı [23,94]. Masdara kəndinin yaxınlığında yerləşir." (yenə orada)

GÜLLÜBULAQ - İrəvan quberniyasının Aleksandropol qəzasında (indi Qukasyan r-nunda) kənd adı [133, 70]. Zağaqışlaqda adlanmışdır [23, 129]. 1878-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 169). 1946-cı ildə kənd ermənicə Vardaxpuyr adlandırılmışdır.

GÜLLÜBULAQ - XIX əsrin sonlarında Qars əyalətinin Qars dairəsində., (indi Amasiya r-nunda) kənd adı (133, 70). 1988-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

GÜLLÜDƏRƏ - Quqar r-nunda kənd adı. Bax: Mollaqışlaq.

GÜLLÜDOĞAN - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adı [133] XX əsrin əvvəllərində kənd dağılmışdır. Əsli Güllü Doğan (yaxud Toğan).

GÜLLÜDÜZ - İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd adı (133, 70). 1946-cı ildə kənd ermənicə Vardovit adlandırılmışdır. 1988-ci ildə əhalisi Azərbaycana qovulmuşdur.

GÜLLÜK - İrəvan xanlığının Vedibasar mahalında kənd adı. 1828-1832-ci illərdə əhalisi qovulmuş və kənd dağıdılmışdır. Əsli Gühüllük. Azərbaycan dilində gühül (fars dilindən keçmədir) "yaşamaq üçün yeraltı ev", "yeraltı gediş yolu" və -lük şəkilçisindən ibarətdir. Kənd yaxınlığında kühülləri olan qayanın - "Gühüllük"ün adını əks etdirir.

GÜLLÜK - İrəvan xanlığının Sürməli mahalında kənd adı [159]. 1919-cu ildə əhalisi qovulmuş və kənd dağıdılmışdır. Əsli; Gühüllük.

GÜLLÜTOP - 1728-ci ildə İrəvan əyalətinin "Ağrıdağ tərəfdə olan yaylaq adı" [23, 71].

GÜLLÜTAP - 1728-ci ildə İrəvan əyalətinin Aralıq nahiyəsində kənd adı [170,20].

GÜLLÜCƏ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı [133, 70]. 1728-ci ildən məlumdur. [170,14] XIX ərin ortalarından sonra kəndli adı mənbələrdə çəkilmir. Gül-çiçəkli yer mənasındadır.

GÜLLÜCƏ - Abovyan r-nunda kənd adı. 1590-cı ildən məlumdur. [169,58]. 1978-ci ildə kənd ermənicə Tsovk adlandırılmışdır.

GÜLLÜCƏ - XIX əsrdə Qars əyalətində (133, 70) sonra Amasiya r-nunda kənd adı 1728-ci ildən məlumdur [23,64] Digər adı Gülablı. 1989-ci ildə kəndin əhalisi Azərbaycana qovulmuşdur.

GÜLLÜCƏ - Spitak r-nunda kənd adı. XVII əsrdən məlumdur. [150,365]. XIX əsrin 90-cı illərində kənddə Türkiyədən gəlmə ermənilər də yerləşdirildikdən sonra əhali qarışıq yaşamışdır. 1918-1919-cu illərdə azərbaycanlılar sıxışdırılıb çıxarılmışdır. 1945-ci ildə kənd ermənicə Sarıhart adlandırılmışdır.

GÜLLÜCƏ - İrəvan xanlığının Qırxbulaq mahalında kənd adı [159] . XX əsrin əvvəllərinə aid mənbədə İrəvan qəçzasında Küllücə kimidir (133, 154). 1590-cı ilə aid türkcə mənbədə adı çəkilir [169,58]. 1828-1832-ci illərdə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. 1728-ci ilə aid mənbəyə görə Eknəduz (bax: İynəduz) kəndindən Güllücə adlı yerdə yaranmış məntəqədir [170,32].

GÜLLÜCƏ - Abaran r-nunda kənd adı. 1728-ci ildən məlumdur. [170,123]. Mənbədə kəndin həm də Güneykəndi, həm də Ərikli adlandığı qeyd olunmuşdur [170,123]. 1878-ci ildə əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir (6, 176) 1946-cı ildə kənd ermənicə Vardenik adlandırılmışdır.

GÜLLÜCƏ - 1728-ci ildə İrəvan əhalətinin Şirakel nahiyəsində kənd adı [170,124]. Mənbədə kəndin Gügürtlü kəndinə məxsus məntəqə olması qeyd olunur (yenə orada).

GÜLLÜCƏ - 1728-ci ildə İrəvan əyalətinin Xınzirək nahiyəsində kənd adı [23,46]. "Əhalisi Dümbüli camaatındandır. (yenə orada).

GÜLLÜCƏ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində Ərikli (başqa adı Güneykənd) kəndinin başqa adı [23,126].

GÜLLÜCƏLİ MƏZRƏSİ - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [170,121] .

GÜLTƏPƏ - İrəvan quberniyasının Aleksandropol qəzasında dağ adı (133, 71).

GÜLÜSTAN - İrəvan quberniyasının Aleksandropol qəzasında (indi Qukasyan r-nunda) kənd adı. XIX əsrin 70-ci illərində kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi ermənilər idi. Azərbaycan dilində gühül (farsca kevil, kehil sözündən) - "süni surətdə qazılmış yeraltı ev", "yeraltı sığınacaq" sözündəndir (Şirvanda və Abşeronda hətta XIX əsrin sonlarına qədər yeraltı ev - "gühül", yaxud "gühül ev" adlanırdı. Bax: A.N.Mustafayev. Şirvanın maddi mədəniyyəti. Bakı,1977, s. 31). Danışıqda təhrif forması olan gül (kühül-küül -kül-gül) və İran mənşəli stan - "yer" sözlərindən ibarətdir. Azərbaycanda erkən orta əsrlərin sonlarından məlum olan iki Gülüstan (əsli Kühülüstan) qala adları ilə mənaca eynidir. Tarixi ədəbiyyatda bu qalaların adlarının yanlış izahı (onların guya "gül", "çiçək" sözündən ibarət olması) ilə əlaqədar olaraq qısaca məlumat vermək məqsədəuyğundur. 1. Şamaxı r-nunda həm də "Qız qalası" adlanan Gülüstan qalası (qalada həqiqətən yeraltı binalar vardır). Mənbələrdə adı - XI əsrdən çəkilsə də, onun 500-cü ildə Alban çarı III Vaçaqanın qızı üçün tikildiyi qeyd olunur. (A.P.Fituni. O nekotorıx narodnıx leqend o klade Aleksandra Makedonskoqo v Şirvane. İzvestiə obhestva obsledovaniə i izuçeniə Azerbaydjana, N4, Baku, 1927, s.187). Qalanın adının həqiqətən də kevil, kühül sözündən ibarət olması onun 1063-cü ilə aid mənbədə Kevilmiyan ("Ortası kühül" mənasında, həqiqətdə də bu qalada kühül düz dağın zirvəsindədir) adlanması da təsdiqlənir. (V.F.Minorski. İstoriə Şirvana i Derbenta, M. 1963, s.56). 2. Gülüstan adlı digər qala Dağlıq Qarabağda, indiki Goranboy r-nunda yerləşir. Bu qalanın adı ilə XVIII əsrdə Dağlıq Qarabağın bir məlikliyi də Gülüstan adlanırdı. Murovdağın şimalında, İncəçayın sahilində dağ başında xarabalığı qalmış bu qalanın (bax: 133, 70) da yeraltı otaqları (gühülləri) vardır.

Diqqətəlayiqdir ki, bu qala nağıllarımızda, məsələn, "Hatəm xanın nağılında ("Azərbaycan nağılları" II c.s. 32,44) adı çəkilən "Gülüstani-İrəm"dir. (XVIII əsr müllifi Mirzə Yusif Nersesov qalanın yerləşdiyi dağı məhz "Gülüstan-İrəm" dağı kimi qeyd etmişdir). Bu qalanın yerləşdiyi dağın ətrafı həqiqətdə də mənzərəli və gözəl olduğuna görə orta əsrlərdə aşıqlar tərəfindən təriflənmişdir. Qurbaninin "Tamaşaya gələr cəmi Gülüstan" (tədqiqatçılar bu adın xüsusi isim olduğunu bilməyərək onu kiçik hərflə "gülüstan" kimi yazırlar) misrası da buna işarədir. Toponimin İrəm hissəsi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında Hirəm kimi olmuş, lakin poemanın sonralar üzünü köçürmüş katiblər "Cirəm" kimi yazmışlar. Şairin poemasında "Cirəm çölü" adı əslində "Hirəm çölü" (dəqiqi "İrəm çölü") kimi bərpa edilməlidir. Təəssüf ki, nizamişünaslarımız belə məsələlərdən xəbərsizdilər. Hər üç Gülüstan toponimi Culfa r-nundakı XVII əsrə aid Gülüstan qülləsinin adı ilə mənaca eynidir.

GÜMBƏZ - İrəvan xanlığının Abaran mahalında kənd adı [159]. 1590-cı ilə aid mənbədə Gümbəzli kimidir. [169]. 1828-1832-ci illərdə əhalisi qovulduqdn sonra kənd dağılmışdır [159] . Fars dilində gümbəd (gümbəz) "sərdabə", "məzar üstündə qülləvari tikinti" sözündəndir. İranda bu sözdən düzəlmiş 26 kənd adı vardır. (145,59-60). Azərbaycanda Gümbəzdağ (Qubadlı r-nu) toponimi ilə mənaca eynidir.

GÜMBƏZLİ - 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində kənd adı [23,109]. Mənbədə kəndli Bəktaş Şaban oğluna mənsub olması göstərilir (yenə orada).

GÜMBƏZLİ - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı [23, 124].

GÜMBƏT - İrəvan quberniyasının Novobayazid qəzasında dağ adı [133]. XIX əsrdə Tiflis quberniyasının Axalsix qəzasında Gümbətdağ adı, (133) Tiflis quberniyasının Borçalı qəzasında Gümbət kəndi [99,408], Qars əyalətinin Qars dairəsində

Gümbət [133] adları ilə mənaca eynidir. XVII əsrin ortalarına aid ermənicə mənbədə Alagöz - Qars - Daş Kaya karvan yolu üstündə, Şərqi Anadoluda Kümbət məntəqə adı çəkilir. [91,27]. XVIII əsrin əvvəllərinə aid mənbədə isə İrəvan xanlığı ərazisində Gümbətli kəndinin adı qeyd olunur. Oronim dağın kəlləsinin gümbəz formalı olmasını bildirir.

GÜMRÜ - İrəvan quberniyasının Aleksandropol qəzasında kənd adı [133]. 1728-ci ilə mənbədə Şirakel nahiyəsində qeyd olunur [23,124]. 1837-ci ildə Aleksandropol adlandırılmışdır. XIX əsrin II yarısında quberniyanın Alekandropol qəzasının mərkəzi olmuşdur. 1924-cü ildə Leninakan, 1990-cı ildə Kumayr adlandırılmışdır. 1728-ci ilə aid türkcə mənbədə Kumri kimidir. [170,122]. Qədim forması Kəmər (yaxud Qəmər), ermənicə tələffüs forması Kumayr. Er. əv VIII əsrdə şimaldan Cənubi Qafqaza, o cümlədən indiki Ermənistan ərazisinə gəlmiş qədim türk mənnşəli kəmər yaxud qəmər (antik mənbələrdə kimmer) tayfasının adını əks etdirir. Kümrü (ermənicə tələffüzü Kumayr) toponiminin Kəmər etnoninimdən i barət olduğunu elə erməni tarixçiləri yazmışlar. Lakin onlar kimerləri İran dilli tayfa saydıqlarına görə bu adı dəyişdirmirlər.

GÜMÜŞ - İrəvan xanlığının Dərəçiçək mahalında (indi Razdan r-nunda) kənd adı (159). 1918-ci ildə kəndin əhalisi qovulmuş və Türkiyədən gəlmə ermənilər yerləşdərilmişdir. 1728-ci ilə aid mənbədə Əhməd adlı bəyin (mülkədar)-ın kəndi kimi qeyd edilir [170, 28]. Qədim adı Karen (əsli Karin) olmuşdur. (46,192). Gətirilmə addır. Anadoluda Kumis ya da Xumus [36b,199] mahalından gəlmə ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Orta əsrlərdə İranın şimal-şərqində Rey və Nişapur arasında bir əyalət də Kumis adlanırdı.

KÜMÜŞ - 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində kənd adı. (23,79). "Kəndin başqa adı Dəməşqdir" (yenə orada).

GÜMÜŞXANA - İrəvan quberniyasının Şərur-Dərəlyəz qəzasında kənd adı (133, 71) 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. 1922-ci ildə bir hissəsi geri qayıtmışdır. Əhalinin hərəkəti ilə əlaqədar olaraq gətirilmə addır. Anadoluda Trabzon ilə Ərzrum arasında orta əsrlərdə Şirvan şəhəri yaxınlığında [83,230] Gümüşxana şəhəri və mahalı vardı [46]. 1950-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür.

GÜMÜŞCÜK - 1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində kənd adı [170,14]. Mənbədə kənddə cəmi 2 xristian ailəsinin yaşadığı qeyd olunmuşdur (32,312).

GÜNDƏ - İrəvan quberniyasının Sürməli qəzasında kənd adı (138). XIX əsrin sonlarından sonra mənbələrdə bu kəndin adı çəkilmir.

GÜNDOĞMUŞ - 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində kənd adı (23,122).

GÜNEY - Yelizavetapol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın İcevan r-nunda) kənd adı. 1935-ci ildə kənd ermənicə Qetaşen, 1967-ci ildə Kirants adlandırılmışdır. (Kiran Tovuz r-nu ərazisində qədim Alban qalasının adıdır-bax: İtqıran). Güney dağının adındandır.

GÜNEY - Yelizavetopol (Gəncə ) quberniyasının Qazax qəzasında (indi ermənistanın İcevan r-nunda) dağ adı (133). Azərbaycan dilində güney "dağın gündüşən, meşəsiz tərəfi"sözündəndir. Keçmiş yaylaq yeridir.

GÜNEYVƏNG - İrəvan xanlığının Dərələyəz mahalında kənd adı (159). XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq dağılmış və kənd ləğv edilmişdir. XIX əsrin əvvələrində Naxçıvan əyalətində və Dərələyəzdə yaşamış Hacısamlı tayfasının məskunlaşması nəticəsində yaranmış məntəqələrdən (Sallı, Qozluca, Xorbadlı,

Alagöz, Güneyvəng, Qaraqaya, Qotur, Qovuşuq, Aysası və Qabaqlı) biridir. (Cbornik svedeniy o Kavkaze, tom III-c 247-248).

GÜNEYKƏND - 1728-ci ildə İrəvan əyalətinin Şirakel nahiyəsində kənd adı (23,124). Kənd Əilli və güllücə də adlandırılmışdır.

GÜNEYKƏND - 1728-ci ildə İrəvan əyalətinin Xanzırək nahiyəsində kənd adı (170,7).

GÜNEYTƏPƏ - Yelizavetopol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistannın Dilican r-nunda) qışlaq adı (133) XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir.

GÜNEYPİRMƏHƏMMƏD - 1590-ci ildə Rəvan əyalətinin Ərmus nahiyəsində kənd adı. [169,252).

GÜNEYDÖVLƏTYARLI - 1590-cı ildə Rəvan əyalətinin Abnik nahiyəsində kənd adı [169,255).

GÜNEYPİRİLİ - 1590-cı ildə Rəvan əyalətinin Abnik nahiyəisndə kənd adı. Digər adı Camus damı [169,257].

GÜNEY HƏRKƏS - 1728-ci ildə İrəvan əyalətinin Zirzəmin nahiyəsində kənd adı (23,121). Əsli Güney Ərkəz. Bax: Quzey Hərkəs.

GÜNƏŞLİ - Basar Keçər r-nunda kənd adı. 1935-ci ilə qədər adı Sultanəli qışlaq (bax).

GÜNƏŞLİ - Noyemberyan r-nunda qışlaq adı. XX əsrin 30-cu illərində kollektivləşmə illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd ləğv edilmişdir.

GÜN-KOBI - İrəvan quberniyasının Aleksandropol qəzasında xaraba kənd adı (133, 71).

GÜNGÖRMƏZ - İran quberniyasının Sürməli qəzasında adı (133, 71). Digər adı Pir-Ohan. Güngörməz dağının adındandır.

GÜNGÖRMƏZ - İrəvan quberniyasının Sürməli qəzasında dağ adı (133, 71). XIX əsrdə Cavanşir qəzasında Güngörməz və Şamaxı qəzasında Güngörməz dağ adları (133) ilə mənaca eynidir. "Gün düşməyən, quzey yerdə yerləşən dağ" mənasındıdır.

GÜNGÖRMƏZ - İrəvan quberniyasının Sürməli qəzasında xaraba kənd adı [133, 71].

GÜNNÜT - İrəvan quberniyasının İrəvan qəzasında kənd adı (133, 71). Tam adı Günnüt Cəfərli (yenə orada). 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır. Naxçıvanda Günnüt kəndinin adı ilə mənşəcə eyni olsa da mənası məlum deyil. Ehtimal ki, türk dillərində günet "dağın gündüşən tərəfi" sözündəndir.

GÜNLÜ - 1590-cı ildə Rəvan əyalətinin Zar nahiyəsində kənd adı [169,328].

GÜRCÜYOL - İrəvan quberniyasının Aleksandropol qəzasında (indiki Qukasyan r-nunda) kənd adı (133). XIX əsrin 70-ci illərində kəndin əhalisi qovulmuş və ermənilər yerləşdirilmişlər. 1886-cı ilə aid məlumata görə kəndin əhalisi erməni idi. XIX əsrdə Şimali Qafqazda Ter əyalətinin Mozdok dairəsində Kurçi-Tubə dağ adı (133), Azərbaycanda Oğuz (keçmiş Vartaşen r-nunda) Gürcədağ (əsli Gürçədağ) [133] , Qars əyalətinin Ərdahan dairəsində Qurcibək kəndi [133, 72] adı ilə mənaca eynidir. XIX əsrdə Qars əyalətinin Qars dairəsində Kurci xaraba kənd və Zəngəzur qəzasında Gurcilu kənd adları (133, 149) da bu sıraya daxildir. P.N.Yaqodınski XIX əsrin ortalarında Quba qəzasında bir yaylağın adını Sənqələ-Gürcü kimi yazılmışdır.Gürcü etnonim ilə bağlı deyildir. Türk dillərində qurç-"möhkəm", "qüvvətli", yaxud qorçi, qurçi- "sultan qvardiyasının əsgəri" sözündəndir. Azərbaycanda Səfəvilər sülaləsi vaxtında qvardiya döyüşçüsü qurçi (farsca tələffüz forması qorçi) adlanırdı. Qurçi qırmızı rəngli papax qoymalı və uzun bığ saxlamalı idi. Qurçilərə hərbi xidmətlərinə görə torpaq sahələri verilirdi (bu barədə bax: Ş. Məmmədova. Xülasət ət- təvarix -Azərbaycan tarixinin

mənbəyi kimi. Bakı, 1991. İranın toponimiyasında "qorci"formasında bu sözdən yaranmış 8 kənd adı vardır. (145,60). V.İ. Savina səhv olaraq bu adları "gürcü " etnonimi ilə əlaqələndirmişdir (Yenə orada). Azərbaycanda Ağsu r-nunda Hacıman və Diliman kəndləri sərhəddində "Gürcübulağı", Abovyan r-nunda Ellər kəndinin qərbində Gürcü arxacı (6, 209) bulağının adındakı "gürcü" sözü ilə eynidir.